RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 90 (9545) 3 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# 110 ölkə, 700 mötəbər qonaq

## İlham Əliyevin təşəbbüsü ilə yaradılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu artıq mühüm qlobal platforma kimi qəbul edilir

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha dünyaya sülh, həmrəylik çağırışı etdi. Azərbaycanın bu yolda tutduğu mövqeyini, qarşıya qoyduğu məqsədini açıqlayan Prezident qlobal təhdidlərə qarşı birgə mübarizənin konturlarını təqdim etdi.

Tədbirin moderatoru, ABŞ-nin Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor Alpaslan Özerdem də səmimi şəkildə vurğuladı ki, forum iştirakçıları Bakıda toplaşan zaman sərhədləri aşan, məfkurələri keçən dərin çağırışlarla və fürsətlərlə səciyyələnən qlobal duruma şahidlik edirlər.

Onun fikrincə, bu gün bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kibertəhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Əlbəttə ki, dünya dövlətləri insanlıq naminə münaqişələri həll etməli və sülhü yaratmalıdırlar. 2011-ci ildən başlayaraq məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub.

Xatırladaq ki, 2008-ci ildə İlham Əliyev tərəfindən irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda forumlar çərçivəsində 180 ölkədən olan iştirakçı 250-dən artıq müxtəlifformatlı tədbirlərə, plenar və panel müzakirələrə, təqdimatlara qatılıb. Keçirilən 250 tədbir bölgədə yeni mədəniyyətlərarası təşəbbüsləri ilhamlandırıb.

Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

Əsas məqsəd dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Forumun məqsədi yeni siyasət, sənədlər və razılaşmalar formalaşdırmaqdır.

→ 8

## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2,0 (iki) min manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1,0 (bir) min manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2024-cü il*

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Mayın 2-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın 2024-cü il 7 mart tarixli iclasının protokolu təsdiq olunub.**



Sonra VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Ələmşah oğlu Məmmədovun deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxılıb.

Bildirilib ki, Milli Məclisin deputatı Ramin Məmmədov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edildiyinə görə ölkə Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə əsasən deputat səlahiyyətlərinə xitam verilməlidir. Mərkəzi Seçki Komissiyası qeyd olunanları nəzərə alaraq, qanunvericiliyə uyğun qaydada Ramin Məmmədovun deputat səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edib.

Daha sonra Mərkəzi Seçki Komissiyasının normativ xarakterli aktına dair məsələyə baxılıb və komissiya üzvlərinin müzakirəsindən sonra "Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"də müvafiq dəyişiklik edilməsinə qərar verilib.

Beynəlxalq təşkilat təmsilçisi və media nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin bir sıra seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

## Azərbaycan müsbət nümunəsi ilə iqlim dəyişmələri proseslərinə öz töhfəsini verir



Prezident İlham Əliyev BMT Baş katibinin xüsusi müşavirini qəbul edib

→ 2

## Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlər daim yüksələn xətlə inkişaf edir



Prezident İlham Əliyev Rusiyanın Federasiya Şurasının sədr müavinini və Dövlət Dumasının komitə sədrini qəbul edib

→ 2

## Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda ayrı-ayrı xalqların və etiqadların mənsubları yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlayırlar. Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Bu gün Azərbaycan Respublikası müxtəlif dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimad mühitinin, demokratik birgəyaşayış prinsiplərinin mövcud olduğu unikal bir məkandır və dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir.

Cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqları, o cümlədən xristian vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz həmvətənlər!

Dirçəlişin, yeniliyin, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olan Pasxa bayramı münasibətilə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram.

*Bayramınız mübarək olsun!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2024-cü il*

# Azərbaycan müsbət nümunəsi ilə iqlim dəyişmələri proseslərinə öz töhfəsini verir

## Prezident İlham Əliyev BMT Baş katibinin xüsusi müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Selvin Çarlz Hart BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi.

Qonaq BMT-nin Baş katibinin Azərbaycanda keçiriləcək COP29 tədbirində iştirak etmək niyyətində olduğunu bildirdi.

Azərbaycan Prezidenti BMT Baş katibini COP29-da görməkdən məmnun olacağını dedi.

Dövlətimizin başçısı vurğuladı ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər plana uyğun davam etdirilir. Azərbaycan beynəlxalq ictimaiyyətlə və təsisatlarla COP29-un substantiv məsələləri üzrə danışıqlar və məsləhətləşmələr aparır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın məqsədi dünya ölkələri arasında iqlim dəyişmələri mövzusunda həmrəyliyin və birgə fəaliyyətin gücləndirilməsidir. Bütün dünya ölkələri, o cümlədən Azərbaycan iqlim dəyişmələrinin mənfi təsirlərinə və fəsadlarına məruz qalıb. Belə ki, artıq son yeddi ildə Azərbaycanda quraqlıq müşahidə olunub, yağıntının miqdarı əhəmiyyətli dərəcədə azalıb. Bu il yağıntının miqdarının artması prosesi baş versə də, bütövlükdə Azərbaycan bundan əziyyət çəkir.

Azərbaycan Prezidenti vurğuladı ki, Xəzər dənizinin suyunun çəkilməsi prosesi müşahidə olunur və bu da ciddi narahatlıq doğuran məqamdır.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan müsbət nümunəsi və "yaşıl gündəliyi" ilə iqlim dəyişmələri proseslərinə və iqlim fəaliyyətinə öz töhfəsini verir. Belə ki, neft və qaz ixrac edən Azərbaycan bu sahədə əldə olunmuş gəlirləri ölkənin inkişafına sərf etməklə uğurlu inkişaf modeli nümayiş etdirir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda "yaşıl keçid" qarşıya hədəf kimi qoyulub və ölkəmizdə beynəlxalq tərəfdaşların da iştirakı ilə ciddi "yaşıl enerji" ixrac potensialı yaradılır.

Prezident İlham Əliyev qeyd etdi ki, bu günlərdə Azərbaycan, Özbəkistan və Qazaxıstanın Energetika və İqtisadiyyat nazirliklərinin birgə iştirakı ilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının Xəzərin dibi ilə Azərbaycana ötürülməsi və buradan da Avropaya ixrac edilməsi barədə yeni layihənin əsası qoyulub.

Qonaq vurğuladı ki, COP29 prosesində Azərbaycana zəruri dəstək vermək üçün BMT ailəsi Baş katib tərəfindən səfərbər edilib və xüsusi işçi qrup yaradılıb. Bu yaxınlarda BMT-nin İnkişaf Proqramının (UNDP) nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini deyən Selvin Çarlz Hart ölkəmizin təbii resurslardan əldə etdiyi gəlirləri effektiv şəkildə idarə etməsinin və sosial-iqtisadi inkişafa sərf etməsinin uğurlu nümunə olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycan eyni zamanda bu sahədə əldə etdiyi gəlirləri "yaşıl enerji" gündəliyinə də sərf edərək çox mühüm nümunə yaradır. Qonaq bu prosesdə BMT-nin Azərbaycana dəstəyini bir daha ifadə etdi.

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanının ləğvi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Energetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 aprel tarixli 30 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 3.0.6-cı və 3.0.9-cu yarımbəndləri ləğv edilsin.

2. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 69 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2024-cü il*

# H.X.Əsədovun Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Heydər Xanış oğlu Əsədov Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2024-cü il*

# Tbilisidə Asiya İnkişaf Bankının 57-ci illik toplantısı öz işinə başlayıb

**Bu gün Tbilisidə Asiya İnkişaf Bankının (AİB) 57-ci illik toplantısı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, mayın 5-dək davam edəcək toplantıda üzv ölkələrdən nazirlər, yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri, iş adamları, maliyyə təşkilatlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak edirlər. Azərbaycanın maliyyə naziri, AİB-in Rəhbərlər Şurasının üzvü Samir Şərifov da tədbirdə iştirak edir.

"Gələcəyə körpü" devizi altında keçirilən toplantının iştirakçıları iqlim dəyişikliyi, süni intellekt və "yaşıl enerji" də daxil olmaqla Asiya və Sakit okean regionunun üzləşdiyi əsas inkişaf məsələlərini araşdıracaqlar.

Gürcüstan ilk dəfədir ki, AİB Rəhbərlər Şurasının İllik Toplantısına evsahibliyi edir. İllik toplantı çərçivəsində müxtəlif tədbirlər, seminarlar, təqdimatlar keçiriləcək.

Qeyd edək ki, 1966-cı ildə təsis edilən Asiya İnkişaf Bankının əsas məqsədi üzv ölkələrin iqtisadi inkişafına dəstək olmaqla yoxsulluğun aradan qaldırılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yardım etməkdir. Azərbaycan 1999-cu ildə banka üzv olub. AİB-in 48-ci illik toplantısı 2015-ci ildə Bakıda keçirilib.

# Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlər daim yüksələn xətlə inkişaf edir

## Prezident İlham Əliyev Rusiyanın Federasiya Şurasının sədr müavinini və Dövlət Dumasının komitə sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovu və Dövlət Dumasının MDB işləri, Avrasiya iqtisadiyyatı və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Konstantin Kosaçov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodinin salamlarını dövlətimizin başçısına və Birinci xanım Mehriban Əliyevaya çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Valentina Matviyenko və Vyaçeslav Volodinə çatdırmağı xahiş etdi.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkil olunması ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdıran Konstantin Kosaçov bu tədbirə böyük beynəlxalq marağın olduğunu vurğuladı. Qonaq forumda Azərbaycan Prezidentinin dərin məzmunlu çıxışının önəmini qeyd etdi və bildirdi ki, dövlətimizin başçısının çıxışında Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Qoşulmama Hərəkatının fəaliyyəti, neokolonializm və digər mövzular barədə fikirləri müasir şəraitdə böyük aktuallıq kəsb edir. Konstantin Kosaçov vurğuladı ki, Azərbaycanın beynəlxalq səviyyədə çox layiqli yer tutması sevinc doğurur və bu da öz növbəsində Azərbaycan-Rusiya ikitərəfli münasibətlərində vacib amillərdən birinə çevrilir. O, Prezident İlham Əliyevin bu yaxınlarda Moskvaya səfərinin çox uğurlu keçdiyini qeyd etdi. Konstantin Kosaçov Azərbaycanın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığını deyərək Bakıya hər dəfə gələrkən paytaxtımızda gedən böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirdi.

Dövlətimizin başçısı beynəlxalq dialoq sahəsində mühüm platformalardan birinə çevrilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Rusiyanın yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasından məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Moskvaya səfərinə toxunaraq həmin səfərin çox səmərəli olduğunu və müttəfiqlik münasibətlərimizin strateji xarakterini bir daha nümayiş etdirdiyini vurğuladı.

Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putin ilə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə Moskvada dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşünü xüsusi vurğuladı. Görüşdə hələ sovet dövründə bu layihənin əleyhinə çıxış edən bəzi qüvvələrin olmasına, çoxsaylı texniki, bürokratik və təbii maneələrə baxmayaraq, Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyində çalışdığı zaman Baykal-Amur Magistralının həyata keçirilməsində müstəsna xidmətlərinin qeyd edildiyini məmnunluq hissilə bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Rusiyanın iki qonşu dövlət kimi bir-birinə qarşılıqlı dəstək, hörmət, ikitərəfli və çoxtərəfli məsələlərin həlli ilə bağlı maksimal qarşılıqlı fəaliyyət göstərdiklərini vurğuladı. Azərbaycan Prezidenti qeyd etdi ki, Rusiya təhlükəsizliyin təmin olunması məsələsində təkcə regionda deyil, daha geniş məkanda mühüm rol oynayır. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin daim yüksələn xətlə inkişaf etdiyini deyərək bunu Cənubi Qafqazda, daha da geniş coğrafiyada regional inkişafın mühüm amili kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik rəhbərliyi zamanı, eləcə də hazırda bu təsisatın "sədrlik üçlüyünə" daxil olduğu dövrdə bir çox mühüm təşəbbüslərlə çıxış etdiyini bildirərək vacib məsələlərlə, o cümlədən neokolonializmlə bağlı böyük səylər göstərdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın həm ölkəmizdə, həm də ölkəmizdən kənarda bu mövzu ilə əlaqədar tədbirlər keçirildiyini bildirərək bundan sonra da neokoloniazatorların keçmişdə və müasir dövrdə törətdiyi cinayətlərin, onların digər ölkələrə və xalqlara qarşı həyata keçirdikləri ikili standartlarının aşkarlanması istiqamətində səylərini davam etdirəcəyini dedi.

Görüşdə iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın hərtərəfli inkişafından məmnunluq ifadə olundu. Ötən il Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Rusiya Dövlət Dumasının inzibati binasında Dumanın sədri Vyaçeslav Volodinin iştirakı ilə sərginin təşkilinin əhəmiyyəti qeyd edildi.

Son dövrlərdə Azərbaycan ilə Rusiya arasında turizm sahəsində əməkdaşlığın inkişafından və Rusiyadan Azərbaycana gələn turistlərin sayının artmasından məmnunluq ifadə olundu, iki ölkənin şəhərləri arasında uçuşların sayının artması müsbət amil kimi qiymətləndirildi. Dövlətimizin başçısı bildirdi ki, COVID-dən öncəki turizm sayının və göstəricilərinin bərpa olunması artıq realdır.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əməkdaşlığa toxunuldu, bu xüsusda ölkəmizdə rus dilinə göstərilən qayğı və məktəblərdə rus dilinin tədrisi vurğulandı.

Görüşdə "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin inkişaf perspektivləri ilə bağlı da fikir mübadiləsi aparıldı.

# *Lük Fransis KAROL:* "Assimilyasiya siyasəti mədəniyyətlər arasında dinc qarşıdurma deyil, tam müharibədir"

**Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Vyanada keçirilən konfransın həsr olunduğu mövzu - ölkələrimizdəki assimilyasiya məsələsi müstəmləkəçiliyin ayrılmaz hissəsidir.**

Bu fikirləri Bakı Təşəbbüs Qrupunun BMT-nin Vyana ofisində təşkil etdiyi "Müstəmləkəçilikdən qurtuluş: assimilyasiyanın nəticələri və onun insan hüquqlarının həyata keçirilməsinə təsiri" mövzusunda konfransın iştirakçısı, Martinik Azadlıq Partiyasının rəhbəri, Martinik Assambleyasının və BTQ-nin üzvü Lük Fransis Karol AZƏRTAC-a müsahibəsində deyib.




O bildirib ki, uzun illər əvvəl, hətta assimilyasiyaya dair 1946-cı il 19 mart tarixli qanunun qəbulundan öncə assimilyasiyaya dair xüsusi strategiya olub. Yəni Afrikada və digər ölkələrdə yerli xalqları öz mədəniyyətlərindən, soykökləriindən uzaqlaşdırmaqla guya onların müasir sivilizasiyalar səviyyəsinə yüksəltmək məqsədi güdülüb. Belə ki, 1795-ci il avqustun 4-də Termidor Konvensiyası komissiyasının üzvü, yeni Konstitusiyanın hazırlanmasına məsul olan Fransua-Antuan dö Buassi d'Anqla (François-Antoine de Boissy d'Anglas) koloniyalarla bağlı assimilyasiya nəzəriyyəsini irəli sürdü. Bu yanaşmada müstəmləkə əhalisinə münasibətdə qardaşlıqdan əsər-əlamət yox idi. Bir ölkənin təsirinin və gücünün əsasında koloniyaların dayandığı irəli sürülərək, müstəmləkələri mərkəzə qəti şəkildə bağladılar və avtokton xalqların suverenliyə qovuşmasının qarşısını almağa çalışdılar. İqtisadi baxımdan Fransa hökumətinin xeyrinə olan sivilizasiyanın, irqin iyerarxiyalaşdırılması aparıldı. Bunları XIX əsr fransız filosoflarının fəlsəfəsində də aydın görmək olur. Əsl reallıq budur ki, müstəmləkələr avtokton xalqları biliklərindən, mədəniyyətlərindən uzaqlaşdırdı. Məsələn, müstəmləkəçi ölkənin atdığı ilk addım əhalinin əsl ad və soyadının fransız adları ilə dəyişdirilməsi oldu. Afrikalıların dinini cadugərlik hesab etdilər. Bütün vasitələr yerli əhalinin şəxsiyyətini məhv etməyə yönəlmişdi. Milli inkişafımız uğrunda apardığımız mübarizə həmçinin müstəmləkəçinin bizə qarşı tətbiq etdiyi qadağalara qarşı mübarizədir.

Müstəqillik uğrunda mübarizədə qətiyyətli olduqlarını vurğulayan Lük Fransis Karol bildirib: "Assimilyasiya siyasəti müstəmləkəçilərlə müstəmləkə altındakı mədəniyyətlər arasında, sadəcə, dinc qarşıdurma deyil. Bu, tam müharibədir. Müstəmləkəçi ölkə hiylə, şantaj, hər cür təzyiq, tətbiq etdiyi inkişaf yolu, məhkəmə sistemi və dövlət zorakılığı ilə üstünlük əldə etməyə çalışır. Ümid edirik ki, Vyanadakı konfrans müəyyən qlobal istiqamətlərə çıxışa yol açacaq və bizim mübarizəmizi daha da sürətləndirəcək".

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Milli Məclisin Sədri Sahibə Qafarova VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Parlamentlərarası Konfransında çıxış edib




**Mayın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun "Mədəni irsin qorunmasında qanunvericiliyin rolu və qabaqcıl təcrübələr" mövzusuna həsr olunmuş Parlamentlərarası Konfransında çıxış edib. Azərbaycan Respublikasının parlamenti adından qonaqları salamlayan spiker Sahibə Qafarova VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində təşkil olunan Parlamentlərarası Konfransın işinə uğurlar arzulayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova bildirib ki, Bakıda VI Ümumdünya Forumu öz işinə başlayıb. Zati-aliləri cənab İlham Əliyevin açılış mərasimindəki çıxışından və gün ərzində keçirilən müzakirələrdən artıq bu forumun əsas ideyası məlumdur. Bu tədbirin dialoqu, qarşılıqlı etimadı və anlaşmanı təşviq etdiyini söyləyən Milli Məclisin Sədri deyib ki, müxtəlif mədəniyyətlər, dinlər və baxışlar arasında körpülər qurmaq üçün yalnız dialoq vasitəsilə gərginliyi və qarşıdurmanı azaltmaq, ayırıcı xətləri aradan qaldırmaq və irəliləmək yolunda dürüst fikir mübadiləsinə başlamaq mümkündür.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yarandığı gündən Birləşmiş Millətlər Təşkilatı tərəfindən dəstəklənən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası və dinlərarası dialoq üçün əsas qlobal platformalardan birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycan bu təşəbbüsün həyata keçirilməsində böyük uğur qazanıb. Spikerin sözlərinə görə, Şərqlə Qərbin kəsişməsində yerləşən Azərbaycan ləyaqət, sülh və dostluq şəraitində birlikdə yaşayan müxtəlif etnik və dini qrupların evidir. Bu gün cəmiyyətimiz əsrlərboyu formalaşmış dəyərləri rəhbər tutur. Multikulturalizm xalqımızın və ölkəmizin həyat tərzidir. VI Forum çərçivəsində keçirilən bu konfrans parlamentlərin mədəniyyətlərarası dialoqa yanaşmasının əhəmiyyətini göstərir. Biz xalqımızın nümayəndələri və parlament üzvləri olaraq, mümkün olan ən yaxşı həllərin tapılmasında iştirak etmək üçün əhəmiyyətli imkanlara sahibik. Və bu gün burada toplanaraq mövcud müzakirələrə töhfə verməyə çalışırıq.

Spiker qeyd edib ki, bu konfransın mövzusu mədəniyyətlərarası dialoqun təşviqi üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki mədəni irs insanların kimliyini, tarixini, ənənələrini və dəyərlərini təmsil edir. Bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi düzgün institusional və qanunvericilik yanaşmasını və bütün maraqlı tərəflərin bu prosesə fəal cəlb edilməsini tələb edir. Bu mənada, parlamentlərimiz təkcə milli deyil, beynəlxalq səviyyədə də mühüm rol oynayırlar. O, qarşılıqlı dialoq və səylərin birləşdirilməsinin, ən yaxşı təcrübələrin mübadiləsinin ümumi hədəflərə çatmağa və işimizi daha da zənginləşdirməyə kömək edəcəyini söyləyib.

Milli Məclisin Sədri çıxışında həmçinin bildirib ki, yalnız başqasının mədəni irsinə hörmət etməklə öz dəyərlərimizi təbliğ edə və dünyanı inkişaf etdirmək üçün konstruktiv mədəniyyətlərarası dialoqda iştirak edə bilərik. Spiker təəssüflə bildirib ki, mədəni irsin qorunması həll edilməli olan problemlərdən biri olaraq qalır. Bu baxımdan münaqişələr və müharibələr əsas təhlükədir. Onun fikrincə, bu sahəni tənzimləyən beynəlxalq konvensiyalara hələ də lazımi qaydada əməl olunmur. Spiker diqqətə çatdırıb ki, 30 il ərzində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı ölkəmizin mədəni irsi üçün fəlakətli nəticələrə səbəb olub. Həmin ərazilərdə mədəni irsimizin yüzlərlə obyekti qəsdən məhv edilib, talan olunub, qanunsuz yollarla mənimsənilib və daşınıb. Bu hərəkətlər Ermənistan tərəfindən işğal olunmuş ərazilərin mədəni irsinə hörmət edilməsi və qorunması üzrə beynəlxalq hüququn öhdəliklərinin ciddi şəkildə pozulmasıdır. Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa işləri aparılır. Bu işlərin əsas prioritetlərindən biri də həmin ərazilərdə mədəni irsin bərpası və qorunmasıdır. Spiker qeyd edib ki, Azərbaycanın mədəni irsi burada əsrlərboyu yaşamış bütün etnik və dini qrupların irsini təmsil edir. Ölkəmizdə müxtəlif dini və mədəni abidələr, məscidlər, kilsələr və sinaqoqlar yan-yanadırlar. Bu cür mədəni müxtəliflik cəmiyyətimizin güclü tərəfidir və bu dəyərlərə hörmət dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bütün tarixi və dini abidələrin dövlətin himayəsində olduğunu bildirən Milli Məclisin Sədri qeyd edib ki, onların yüzlərlə nümunəsi dövlət maliyyəsi ilə bərpa edilib və qorunub saxlanılıb. Mədəni irsin qorunması sahəsində mövcud olan qanunvericilik bazası haqqında da danışan Milli Məclisin Sədri bildirib ki, bu istiqamətdə qanunvericilik işi ölkəmizdə sözügedən məsələyə hərtərəfli yanaşmanın vacib bir tərəfidir.

Parlamentimizin qəbul etdiyi çoxsaylı qanunlar, o cümlədən "Mədəniyyət haqqında" qanun, "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında" qanun, digər qanun və dəyişikliklər bu məsələ ilə bağlı effektiv hüquqi bazanın yaradılması üçün çox vacib olmuşdur. Spiker qeyd edib ki, parlamentimiz mədəni irsin qorunmasının müxtəlif aspektləri üzrə mütəmadi olaraq ictimai dinləmələr keçirir. Bu cür dinləmələr bizə bütün maraqlı tərəflərlə məsləhətləşməyə və gələcək qanunvericilik proseslərində onların fikirlərini nəzərə almağa imkan verir. Bundan əlavə, parlamentimizin ixtisaslaşmış komitəsinin - Mədəniyyət komitəsinin Mədəniyyət Nazirliyi ilə fəal əməkdaşlığı bu sahədə qanunların hazırlanması, qəbul edilməsi və icrası prosesində parlamentin və hökumətin səmərəli əməkdaşlığından xəbər verir.

Spiker Sahibə Qafarova onu da deyib ki, Azərbaycanın mədəni irsin qorunması sahəsində fəaliyyəti təkcə milli səviyyə ilə məhdudlaşmır. Müxtəlif ölkələrdə bəşəriyyətin ortaq sərvəti sayılan mədəni irsin bərpası və qorunması üçün ardıcıl addımlar atılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun bu işə verdiyi böyük töhfələr bəşəriyyətin mədəni irsinin qorunmasına və mədəniyyətlərarası dialoqun təşviqi işinə əvəzsiz dəstəkdir. Milli Məclisin Sədri çıxışının sonunda bugünkü tədbirin əhəmiyyətini bir daha vurğulayaraq müzakirələrin mühüm nəticələr verəcəyinə və birgə səylərə əhəmiyyətli töhfə olacağına əminliyini ifadə edib.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının Baş katibi ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) Baş katibi Siti Rozaimeriyanti Dato Haji Abdul Rahman ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə ölkəmizin evsahibliyi ilə keçirilən forumun əhəmiyyəti və müzakirə olunan mövzuların aktuallığı barədə fikirlər səsləndirilib. Milli Məclisin Sədri Sahibə Qafarova Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycan Prezidentinin təşəbbüsü ilə "Bakı Prosesi" əsasında yaradıldığını, bu forumun hazırda mədəniyyətlərarası dialoq, dünyamızı narahat edən, birgə səylər və əməkdaşlıq tələb edən məsələlər üzrə açıq müzakirələr üçün beynəlxalq səviyyədə mühüm platformaya çevrildiyini bildirib.

Söhbət zamanı forum çərçivəsində keçirilən "Mədəni irsin qorunmasında qanunvericiliyin və qabaqcıl təcrübələrin rolu" mövzusuna həsr olunmuş Parlamentlərarası Konfransın sözügedən mövzunun parlamentarilər tərəfindən müzakirəsi və qanunverici orqanlar arasında dialoqun daha da dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırılıb.

Görüşdə Milli Məclis ilə Parlament Assambleyası arasında əməkdaşlıq məsələləri də müzakirə edilib. Qeyd olunub ki, Milli Məclis parlament diplomatiyası çərçivəsində Asiya ölkələrinin parlamentləri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin gücləndirilməsinə xüsusi önəm verir. Bu baxımdan Milli Məclis müxtəlif sahələrdə əməkdaşlığın inkişafına təkan verən AİPA ilə əməkdaşlığa xüsusi diqqət yetirir. Bildirilib ki, Parlamentlərarası Assambleyanın 2022-ci ildə Kamboca Krallığında keçirilmiş 43-cü Baş Assambleyasının Plenar Sessiyasında Azərbaycan Milli Məclisi təşkilata müşahidəçi üzv kimi qəbul edilib. Bu, Azərbaycanın həmin təşkilatla əməkdaşlığının daha da dərinləşməsinə xidmət edir.

Söhbət zamanı xatırladılıb ki, 2023-cü ilin martında Manamada Azərbaycan parlamentinin sədrliyi ilə AİPA ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında da əməkdaşlıq memorandumu imzalanıb. Sözügedən sənəd parlament diplomatiyasının, dialoqun və əməkdaşlığın inkişafına töhfə verən qarşılıqlı faydalı əlaqələrin daha bir nümunəsidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan və İtaliya yaxın dost və strateji tərəfdaş ölkələrdir

**Mayın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İtaliya Parlamenti Deputatlar Palatasının vitse-prezidenti Ciorcio Mule ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən "Mədəni irsin qorunmasında qanunvericiliyin rolu və qabaqcıl təcrübələr" mövzusuna həsr olunmuş Parlamentlərarası Konfransın əhəmiyyətinə dair müzakirələr aparılıb. Milli Məclisin Sədri bu cür forumların mədəni irsin qorunmasında, mədəniyyətlərarası dialoqun güclənməsində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərinin müzakirə edilməsində mühüm rol oynadığını qeyd edib, İtaliyanın Avropada ən zəngin mədəniyyətə malik ölkələrdən biri və Azərbaycana dost ölkə olduğunu söyləyib.

Görüşdə iki ölkə arasında münasibətlərin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq bildirilərək qeyd edilib ki, bu gün Azərbaycan və İtaliya iki yaxın dost və strateji tərəfdaşdırlar. Əlaqələrimizin bu səviyyəyə çatmasında ali səviyyədə həyata keçirilən qarşılıqlı səfərlər, aparılan danışıqlar əhəmiyyətli rol oynayıb. Söhbət zamanı münasibətlərimizin inkişafında parlamentlərin də vacib rolu diqqətə çatdırılıb. Son illərdə Milli Məclislə İtaliya parlamentinin hər iki palatası arasında sıx əməkdaşlıq yarandığı qeyd edilib.

Söhbət zamanı Milli Məclisin Sədri parlamentlərarası dostluq qruplarının fəaliyyətinin intensivləşdirilməsi, Azərbaycanın evsahibliyi edəcəyi COP29 kimi möhtəşəm tədbirin əhəmiyyəti barədə də fikirlərini bölüşüb.

Spiker Sahibə Qafarova görüşdə həmçinin bəzi Qərb strukturlarında müşahidə olunan ikili standartları və ölkəmizə qarşı qərəzli mövqeyi tənqid edib. O, xüsusilə Fransanın Azərbaycan və Ermənistan arasında gedən sülh prosesini pozmağa və bölgədəki maraqlarını həyata keçirməyə çalışması haqqında məlumat verib.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən İtaliya Parlamenti Deputatlar Palatasının vitse-prezidenti Ciorcio Mule VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluğunu ifadə edib.

Qonaq müasir Azərbaycanın inkişafı və qazandığı uğurlar, parlamentlərarası dostluq qruplarının fəaliyyəti, COP29 kimi mühüm tədbirin ölkəmizdə keçirilməsi barədə fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycanın mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa töhfələri yüksək qiymətləndirilib

**Milli Məclisin Sədri Sahibə Qafarova Beynəlxalq Parlamentarilər Konqresinin baş katibi, senator Sitarə Ayaz ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycanda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti və tədbir çərçivəsində keçirilən müzakirələr haqqında fikir mübadiləsi aparılıb. Bakının evsahibliyi ilə tədbirin təşkili, Azərbaycanın mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa töhfələri yüksək qiymətləndirilib.

Söhbət zamanı Azərbaycan Milli Məclisi ilə Beynəlxalq Parlamentarilər Konqresi arasında əməkdaşlığa dair də müzakirələr aparılıb. Azərbaycan parlamentinin təşkilatın fəaliyyətində yaxından iştirak etdiyi, Milli Məclisin Beynəlxalq Parlamentarilər Konqresinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Asiya Parlament Assambleyası və Türk Dövlətləri Parlament Assambleyası ilə institusional əməkdaşlığının qurulmasında mühüm rolu qeyd edilib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər mövzular haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Milli Məclisdə Mərakeş parlamentinin komitə sədri ilə görüş olub

**Mayın 2-də Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının Təhsil, mədəni və sosial işlər komitəsinin sədri Abdelrahman Drissi ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı salamlayan Fəzail İbrahimli onun VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluğunu bildirib. Vitse-spiker cənab Prezident İlham Əliyevin forumda etdiyi çıxışındakı fikirlərin regional və qlobal təhlükəsizlik üçün aktuallığını vurğulayıb, forum çərçivəsində keçirilən müzakirələrin əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Vitse-spiker qonaqlara Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bəzi Qərb dairələrinin haqsız təzyiqləri ilə üzləşməyimizdən söz açıb, regionda təhlükəsizliyin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi barədə danışıb.

Söhbətdə qonaq Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda aparılan müzakirələrin, fikir mübadiləsinin beynəlxalq əməkdaşlığa verdiyi töhfələri yüksək dəyərləndirib, ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

*"Azərbaycan"*

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Rusiya nümayəndə heyəti Milli Məclisdə olub



**Mayın 2-də Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, söhbət zamanı ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyi vurğulanıb, parlamentlərin dövlətlərarası əlaqələrin möhkəmlənməsində önəmli rolu qeyd olunub. Bildirilib ki, qanunvericilik orqanları arasında dostluq qrupları çərçivəsində, beynəlxalq parlament qurumlarında qarşılıqlı faydalı əməkdaşlıq genişləndirilir. Bununla yanaşı, Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin İkitərəfli parlamentlərarası komissiyası təqdirəlayiq fəaliyyət göstərir.

Tərəflər 44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsi, postmüharibə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı vəziyyət, bölgədə sülhün və sabitliyin təmin olunması istiqamətində atılan addımlar barədə fikirlərini bölüşüblər.

Söhbət zamanı Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun xalqlar arasında qarşılıqlı hörmətə əsaslanan dialoqun qurulması, sülhün, təhlükəsizliyin təmin edilməsi baxımından daha bir uğurlu addım olacağına əminlik ifadə edilib, aparılan müzakirələr müsbət dəyərləndirilib.

Görüşdə Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputatlar Mixail Zabelin, Elnur Allahverdiyev, Emin Hacıyev, Rusiya nümayəndə heyətinin üzvləri Leonid Kalaşnikov, Olqa Germanova və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Həmin gün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə dövlətlərarası və parlamentlərarası əlaqələrin mütəmadi xarakter daşıdığı bildirilib, ölkələrimiz arasında siyasi, mədəni, humanitar sahələrdə əməkdaşlığın daha da genişləndiyi vurğulanıb. Həmçinin ikitərəfli görüşlərin münasibətlərin inkişafı və möhkəmləndirilməsi baxımından əhəmiyyətindən bəhs edilib.

Qeyd olunub ki, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsi ölkəmizin dünya miqyasında gündən-günə nüfuzunun artmasının bariz nümunəsidir. Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif qarşılıqlı maraq doğuran məsələlərin həlli baxımından böyük əhəmiyyət daşıyır.

Görüşdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Sabir Hacıyev, Rusiya nümayəndə heyətinin üzvləri Leonid Kalaşnikov, Olqa Germanova və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*



## Regional vəziyyət müzakirə edilib

**Mayın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və Rusiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, COP29-a hazırlıq işləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov ölkəmizdə təşkil olunan mötəbər beynəlxalq tədbirlər, o cümlədən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Rusiya tərəfinin aktiv iştirakının və töhfəsinin məmnunluq doğurduğunu bildirib.

İki ölkənin liderləri arasında mövcud yüksəksəviyyəli dialoqun, habelə intensiv təmasların münasibətlərin inkişafına təkan verdiyi diqqətə çatdırılıb. Mövcud ikitərəfli əməkdaşlığın regional və beynəlxalq formatlar çərçivəsində davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

COP29-a sədrliyimiz çərçivəsində görülən işlərdən bəhs edən nazir Ceyhun Bayramov bu istiqamətdə əməkdaşlıq üçün yeni imkanların yarandığını diqqətə çatdırıb.

Postmünaqişə dövründə mövcud regional vəziyyət, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi məlumatlandıran nazir Ceyhun Bayramov delimitasiya komissiyaları arasında əldə olunmuş son razılığın süllh gündəliyi çərçivəsində olduqca müsbət irəliləyiş olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə ölkəmizin normallaşma prosesinin bütün elementləri üzrə real nəticələrin əldə edilməsində qərarlı olduğunu vurğulayıb.

Xüsusi nümayəndə Mixail Şvıdkoy iki ölkə arasında müxtəlif, xüsusilə təhsil, mədəniyyət, texnologiya və innovasiyalar sahələri üzrə əməkdaşlıq üçün geniş perspektivlərin mövcud olduğunu, bu istiqamətdə birgə fəaliyyətin vacibliyini qeyd edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Heydər Əliyev Fondunun Rusiyadakı layihələri müzakirə olunub



**Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Rusiya ilə müxtəlif platformalarda əməkdaşlığı müzakirə edilib. Bir çox sahələrdə, o cümlədən humanitar istiqamətdə sıx əlaqələrin qurulduğu qeyd olunub.

Azərbaycanda 300-dən çox orta məktəbdə təhsilin rus dilində həyata keçirildiyi, Bakı Slavyan Universitetinin, Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının fəaliyyət göstərdiyi bildirilib. O cümlədən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filiallarının fəaliyyəti vurğulanıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun 20 illik fəaliyyəti dövründə Azərbaycanda və ölkə hüdudlarından kənarda, həmçinin Rusiya Federasiyasında humanitar sahədə həyata keçirdiyi uğurlu layihələr xatırlanıb. Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı bərpa olunan "Azərbaycan" pavilyonunun fəaliyyəti, fondun Rusiya nümayəndəliyinin ikitərəfli əlaqələrin daha da genişləndirilməsi istiqamətində gördüyü işlər qeyd edilib.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə may ayında Moskvada "Helikon-opera"da konsert proqramının təqdim olunacağı bildirilib.

## Forumda aparılan müzakirələr beynəlxalq əməkdaşlığı möhkəmləndirir



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sevil Mikayılova mayın 1-də İspaniya Senatının Milli təhlükəsizlik və müdafiə komissiyası sədrinin müavini Jose Antonio Monago Terrazanın başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində aparılan müzakirələrin, fikir mübadiləsinin beynəlxalq əməkdaşlığın və qlobal təhlükəsizliyin möhkəmləndirilməsi baxımından uğurlu olduğu bildirilib.

Söhbətdə Azərbaycanın əldə etdiyi uğurlar, regional təhlükəsizlik, Cənubi Qafqazda sülh prosesi, beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq, dünyada mövcud olan ikili standartlar barədə danışılıb.

Görüşdə Azərbaycanla İspaniya arasında əlaqələrin, əməkdaşlığın dərinləşdirilməsi, parlamentlərarası təmasların inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## AIPA-nın baş katibi COP29-a hazırlıq işləri barədə məlumatlandırılıb

**Mayın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan ASEAN Parlament Assambleyasının (AIPA) baş katibi Siti Rozaimeriyanti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və AIPA arasında əməkdaşlıq perspektivləri, COP29-dan irəli gələn məsələlər, habelə postmünaqişə dövründə mövcud regional vəziyyət müzakirə olunub.

Azərbaycanın bir çox ASEAN ölkələri ilə mövcud əlaqələrinin öz növbəsində AIPA çərçivəsində əməkdaşlığa, habelə ölkəmizin AIPA-ya müşahidəçi üzv kimi qəbul edilməsinə töhfə verdiyini bildirən nazir Ceyhun



Bayramov çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın parlamentlərarası əməkdaşlıq və dialoq formatlarına əhəmiyyət verdiyi, bu istiqamətdə AIPA ilə də təmasların davam etdirilməsində maraqlı olduğu diqqətə çatdırılıb.

Ölkəmizin COP29-a hazırlıq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran Ceyhun Bayramov həmçinin Vətən müharibəsindən sonra bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesindən ətraflı bəhs edib. Keçmiş münaqişədən sonra sülh təşəbbüsü ilə çıxış edən ilk tərəfin, habelə prosesin irəlilədilməsində ən çox səy göstərən tərəfin ölkəmiz olduğu diqqətə çatdırılıb.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə ilk dəfə səfərdə olan baş katib Siti Rozaimeriyanti bu kimi təşəbbüslərin əhəmiyyətindən bəhs edib, o cümlədən parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Slovakiya nümayəndə heyəti forumda gündəmə gətirilən məsələlərin aktuallığını qeyd edib

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mədəniyyət naziri Adil Kərimli mayın 2-də Slovakiya Mədəniyyət Nazirliyinin dövlət katibi Mario Maruşka və Beynəlxalq əməkdaşlıq departamentinin direktoru Branislav Şalat ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, nazir qonaqlara "Bakı Prosesi" haqqında məlumat verib, ölkəmizin beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa töhfələrindən bəhs edib.

Mario Maruşka VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi mötəbər tədbirə qatılmasından məmnunluğunu bildirib, forumun gündəmə gətirdiyi məsələlərin aktuallığını vurğulayıb.

Adil Kərimli Azərbaycanın ətraf mühit məsələlərinə, qlobal iqlim dəyişiklikləri̇nə həssas yanaşdığını deyib, bu il ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçiriləcəyini diqqətə çatdırıb.

Nazir həmçinin Slovakiyanı COP29-da iştiraka dəvət edib.

## Azərbaycanla Ukrayna arasında əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

**Mayın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratyuk ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Ukrayna arasında əməkdaşlıq gündəliyində duran aktual məsələlər, habelə qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ukrayna arasında mövcud sıx təmasların əməkdaşlığa töhfəsindən bəhs edərək bu istiqamətdə parlament üzvləri arasında əlaqələrin də tərəfdaşlığımızın inkişafında mühüm rol oynadığını vurğulayıb.

Münasibətlərimizin əsasında dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərinə bütün platformalar çərçivəsində daimi dəstəyin nümayiş etdirilməsinin təqdirəlayiq olduğu diqqətə çatdırılıb.

İki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, regional sülh və quruculuq səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Ukrayna tərəfi Azərbaycanın hər zaman beynəlxalq hüquq normalarına, xüsusilə ərazi bütövlüyü prinsipinə münasibətdə sərgilədiyi yanaşmaya, habelə göstərilən humanitar dəstəyə görə təşəkkür ifadə edib. Strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da inkişaf etdirilməsinə dair inam ifadə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın mədəniyyət naziri bir sıra ölkələrin UNESCO yanında daimi nümayəndələri ilə görüşüb

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də mədəniyyət naziri Adil Kərimli bir sıra ölkələrin UNESCO yanında daimi nümayəndələri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-UNESCO əməkdaşlığından söz açılıb, ölkəmizin təşkilatın fəaliyyətində yaxından iştirak etdiyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, 2022-ci ilin oktyabrında Azərbaycanın UNESCO-nun 215-ci sessiyasının gündəliyinə təklif etdiyi "Bakı Prosesi": dayanıqlı sülh və inkişaf üçün mədəniyyətlərarası dialoqu və sosial inklüzivliyi təşviq etmək" adlı qərar layihəsi yekdilliklə qəbul olunub. Bu dəstəyə görə ölkəmiz adından UNESCO-nun İcraiyyə Şurasına minnətdarlıq ifadə edilib.

Nazir forum çərçivəsində mayın 3-də Ağdamda təşkil olunacaq "Minaların və partlamamış hərbi sursatların mədəni mülkiyyətə təsiri" mövzusunda xüsusi sessiya barədə məlumat verib.

Bildirilib ki, sessiya UNESCO-nun 2023-cü ildə qəbul etdiyi "Minaların mədəni mülkiyyətə təsirinə dair qətnamə"yə həsr olunub.

Tədbirdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Turizm insanları birləşdirir və mədəniyyətlərarası dialoqu təşviq edir





**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Turizm insanları birləşdirən və mədəniyyətlərarası dialoqu təşviq edən alət kimi" adlı panel sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Turizm Araşdırmaları Salnaməsi"nin təsisçi-redaktoru Cəfər Cəfərinin moderatorluğu ilə keçən sessiyada çıxış edən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev COVID pandemiyasından sonra bu il Azərbaycanda turizm sahəsinin tam bərpasına nail olunduğunu, xarici turistlərin sayında xeyli artım qeydə alındığını bildirib.

O, Azərbaycanda turizm sahəsinin inkişafına böyük diqqət yetirildiyini vurğulayıb: "Azərbaycanın turizm potensialı yüksəkdir. Həmçinin turizm insanları birləşdirmək imkanı yaradır. Bütün dünya üzrə turistlərin sayının artmasını nəzərə alaraq, fərqli mədəniyyətlərə malik insanlar davamlı şəkildə mübadilə edirlər. Turizm mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır".

BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Zoritsa Uroseviç çıxışında Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun çox yüksək səviyyədə təşkil olunduğunu deyib. "Forum vasitəsilə mədəniyyətlərarası dialoqa təsir göstərə bilirik. Turizmin gəlir yerlərinin yaradılmasında rolu məlumdur. Daha aydın desək, iş yerlərinin 10 faizi məhz turizmlə bağlıdır. Dünyada 2023-cü ildə 1 trilyondan çox turist qeydə alınıb. Bu, kifayət qədər böyük rəqəmdir. Bu mənada turizmin daxili və beynəlxalq dialoqa necə şərait yaratdığını görürük", - deyə Zoritsa Uroseviç vurğulayıb.

Sarayevo Şəhər Şurasının sədri Yasmin Ademoviç turizmlə bağlı gənclərdə ortaq fikrin çox olduğunu bildirib. O, gənclərə turizmlə bağlı daha çox məlumat verilməsinin vacibliyinə diqqət çəkib.

Tədbirdə çıxış edən "Songa Africa"nın təsisçisi Roset Şantal turizmin bərpası baxımından Ruandanın yaxşı nümunə olduğunu deyərək bildirib: "Bu ölkə kiçikdir və hazırda bərpa olunur. Turizmin bu baxımdan böyük rolu var. Ölkəmizdə yoxsulluğun aradan qaldırılması və statusunu yaxşılaşdırmaq üçün turizmi inkişaf etdirdik. Yenidənbərpa üçün turizm əsas şərtdir. Bu da sülh olmadan mümkün deyil".

Turizm sektorunda gənclər və istedadların inkişafı üzrə ekspert Lusi Qarner dünyada son zamanlarda gənclərin ciddi çağırışlarla üzləşdiyini deyib. Diqqətə çatdırıb ki, gənclərin fikirlərini dinləyib, onları dəyərləndirmək lazımdır. "Əsas məqsəd müxtəlif dinə və mədəniyyətə mənsub olan gənclərin ünsiyyətinə şərait yaratmaq olmalıdır. Bunun üçün birgə layihələr həyata keçirilməsi əsas şərtdir. Düşünürəm ki, mədəniyyətlərarası dialoq bu baxımdan böyük təsir göstərəcək", - deyə Lusi Qarner vurğulayıb.

Dünya Turizm Etikası Komitəsinin sədrinin icraçısı Daniela Otero turizmin inkişaf etdirilməsinin vacibliyindən danışıb. O, bu sahənin inkişafı üçün belə forumların keçirilməsinin önəmini vurğulayıb.

"Get up and go Colombia"nın həmtəsisçisi və direktoru Migel Karvaxal turizm sahəsində icmalara dəstək göstərən layihələrin vacibliyindən bəhs edib: "Bununla bağlı mərkəzlər daha çox qurulmalı, həmin yerlərdə insanlara turizmlə bağlı məlumatlar verilməlidir. Düşünürəm ki, bütün ölkələrdə bu cür yerlər olmalıdır. Çünki həqiqətən də, turizm çox vacib sahədir", - deyə M.Karvaxal diqqətə çatdırıb.

Panel sessiya işini müzakirələrlə davam etdirib.

## "Üfüqləri birləşdirərək: İpək yolu proqramının müasir trendləri və qlobal təsiri" mövzusunda panel iclası

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də Azərbaycanın Mərakeş Krallığındakı, eyni zamanda Qambiyadakı səfiri Nazim Səmədovun moderatorluğu ilə "Üfüqləri birləşdirərək: İpək yolu proqramının müasir trendləri və qlobal təsiri" mövzusunda 8-ci panel sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında tarixi İpək yolunun bərpasının Avropa, Qara dəniz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadəyə və qarşılıqlı faydalı əməkdaşlığa hər zaman kömək etdiyini bildirib. Azərbaycanın mövcud zəngin təbii xammal ehtiyatı və Avropadan Asiyaya uzanan ticarət yollarında əlverişli coğrafi mövqedə yerləşməsi onun dünya birliyində nüfuzunun güclənməsinə imkan verib. Böyük İpək yolunun inkişafı təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlməsində, onun mənəvi oyanışı və inteqrasiya prosesində misilsiz rola malikdir.

"Azərbaycan UNESCO-nun müxtəlif layihələrində fəal iştirak edir. Beynəlxalq Türk Akademiyası ilə sıx əməkdaşlıq qurulub. İlk dövrlərdə Şərq-Qərb əlaqələrinin yaxınlaşması prosesində əlaqələndirici amil rolunu oynayan böyük İpək yoluna hazırda mədəniyyət yolu ilə yeni nəfəs verilməsi çox böyük önəm daşıyır", - deyə F.Cəfərov vurğulayıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev qeyd edib ki, İpək yolu mövzusu bir sıra dövlətlər üçün böyük maraq kəsb edir. İpək yolu tarixi fenomenlərdən biridir. Türk millətləri bu yolun qorunub saxlanılması üçün çox səylər göstərib. Bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu kimi qiymətləndirilən böyük İpək yolu eradan əvvəl II əsrdən başlayaraq Çindən Qərb istiqamətində ticarət karvanlarının hərəkət etməsi sayəsində xarici ticarət əlaqələrinin yaranmasına səbəb olub.

"Odlar yurdu Azərbaycan hələ antik dövrlərdə böyük İpək yolu zəncirində olduqca önəmli, strateji mövqeyə malik bir region kimi qiymətləndirilib. Şərq və Qərb ölkələri arasında ticarət yollarının ölkəmizin ərazisindən keçməsi Azərbaycanın bölgənin siyasi və iqtisadi inkişafında önəmli rolunu artırıb, - deyə Ş.Mustafayev əlavə edib.

UNESCO-nun İpək yolu üzrə nümayəndəsi Mehrdad Shahabang bildirib ki, İpək yolu tarixən texnoloji biliklərin ötürülməsində müstəsna rol oynayıb.

Şri-Lankanın UNESCO yanında daimi səfiri xanım Manişa Qunasekera İpək yolunun inkişafında Çinlə yanaşı, müxtəlif bölgələrin də böyük rol oynadığını diqqətə çatdırıb.

Diplomat qeyd edib: "Böyük İpək yolunun və "Şərq-Qərb" enerji dəhlizi sisteminin yaranması, mövcud və perspektivli nəqliyyat dəhlizləri XXI əsrin qlobal tarixi hadisələrindəndir. Müasir dövrdə Avropa və Asiyanın mərkəz hissəsində yerləşən, 34-dən çox dövlətin ərazisindən keçərək onları birləşdirən tarixi İpək yolunun əhəmiyyəti ölçüyəgəlməzdir".

Prezident İlham Əliyevin forumun açılış mərasimindəki çıxışına da toxunan Manişa Qunasekera bildirib ki, Azərbaycanın baxışları "Bir kəmər, bir yol" təşəbbüsünün ümumi vizionu ilə də üst-üstə düşür.

Qazi Universiteti Təhsil fakültəsinin Sosial elmlər təhsili bölməsinin professoru Bülent Aksoy diqqətə çatdırıb ki, İpək yolu qlobal ticarətdə çox böyük rol oynayır. Çindən başlayaraq Anadolu və Aralıq dənizindən keçib Avropaya uzanan ticarət yolu əsrlərboyu Şərqlə Qərb arasında ticarət mallarının daşınmasını təmin edib. Aralarında Türkiyənin də olduğu 65 ölkənin iştirak etdiyi bu layihə dünya əhalisinin 60 faizə yaxınını, yəni təxminən 4,4 milyard insanı əhatə edir. Layihənin ən mühüm məqsədlərindən biri dəmir və quru yolları, dəniz və hava limanları, qaz kəmərləri və digər infrastruktur layihələri həyata keçirərək qitələrarası inteqrasiyanı təmin etməkdir.

## Bakı Forumu çərçivəsində müasir yaradıcılıq sənayesinə aid panel sessiya keçirilib

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Müasir inkişaf meyillərinin təmin edilməsində və iqtisadi şaxələndirmədə mədəni və yaradıcı sənayelərin əhəmiyyəti" mövzusunda panel sessiya keçirilib.**





AZƏRTAC xəbər verir ki, "ArtXchange Global"ın icraçı direktoru Ornela Ramasauskaitenin moderatorluğu ilə keçirilən sessiyada ABŞ-nin "Stirling Fondu"nun prezidenti və İdarə Heyətinin sədri Maylz Hansen çıxış edərək bildirib ki, dünyada millətçilik və qəbiləçiliyin olması münaqişələrin yaranmasına səbəb olan ən təhlükəli səbəblərdəndir. Onun sözlərinə görə, fəaliyyətlərini bu cür ideyalar üzərində quran qruplar və təşkilatlar bəşəriyyəti qütblərə bölür. Bu tendensiya tək Asiyada, Şərqdə deyil, özünü ABŞ və Avropada da göstərir.

"Bu gün Azərbaycanda təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu fərqli mədəniyyətlər və dinlərin birgə müzakirələr aparmasına şərait yaradır. Bu cür tədbirlər dünya mədəniyyətlərini bir araya gətirir", - deyə M.Hansen bildirib.

Daha sonra "British Council"ın ölkə üzrə direktoru Nərgiz Hacıyeva məruzəçi kimi çıxış edərək təmsil olunduğu qurumun ölkəmizdə həyata keçirdiyi layihələrlə bağlı danışıb. O əlavə edib ki, "British Council" Azərbaycan Mədəniyyət Nazirliyi ilə birlikdə mühüm layihələr hazırlayıb. Bu layihələr nəticəsində Azərbaycan mədəniyyəti Birləşmiş Krallıqda və dünyada tanıdılıb.

"Bu il keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın reallaşdırdığı ekoloji və sosial layihələri dünyaya təqdim etməklə yanaşı, gənclərin geniş təcrübə qazanmasına da səbəb olacaq", - deyə N.Hacıyeva vurğulayıb.

"Alove Animasiya" studiyasının həmtəsisçisi və "Plastilin-medianın" həmtəsisçisi və rəhbəri Oktay Yusibov isə qeyd edib ki, Azərbaycanın animasiya yaradıcılığını inkişaf etdirib, qonşu və digər ölkələrdə nümayiş etdirməsi müsbət nəticələrə yol aça bilər. Onun sözlərinə görə, bunun sayəsində uşaqlar müxtəlif xalqların və ölkələrin mədəniyyətini tanıyacaqlar.

Rəqəmsal mediada baş məsləhətçi Nina Lariçeva ilk olaraq ölkəmizlə bağlı təəssüratlarını bildirib. O, Bakıya ilk dəfə gəldiyini deyərək Zaha Hadidin inşa etdiyi Heydər Əliyev Mərkəzinin incəsənət əsəri, Bakının dünyanın gözəl şəhərlərindən biri olduğunu əlavə edib. N.Lariçeva qeyd edib ki, bu gün dünyanın animasiya və film sənayesində ABŞ məhsulları çoxluq təşkil edib. Qlobal bazara digər mədəniyyətlərə aid yaradıcılıq məhsullarının da olması lazımdır.

Daha sonra UNESCO-nun Banqladeşdəki daimi nümayəndəsi səfir Xondkar Muhammad Talha, "Bazelevs" film şirkətinin baş prodüseri Lalə Rüstəmova, Daxili Məlumat Yayıcıların Sosial təsir şöbəsinin tərəfdaş və rəhbəri Martina Nadal və Türkiyə Yaradıcı Sənayelər Şurasının Prezidenti WDO-nun (Dünya Dizayn Təşkilatı) Avropa üzrə regional müşaviri Sərtac Əray Ərsayın məruzələrlə çıxış ediblər.

## Mərkəzi Asiya və Qafqazda Gənc Sülh Qurucuları Proqramının işə salınması müzakirə olunub

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Peace4Culture Qlobal Çağırışı: Mərkəzi Asiya və Qafqazda BMT-nin Sivilizasiyalar Alyansı (BMTSA) Gənc Sülh Qurucuları Proqramının işə salınması" mövzusunda panel sessiya keçirilib.**





AZƏRTAC xəbər verir ki, sessiyaya Gənc Sülh Qurucuları Proqramının idarə olunması üzrə mütəxəssis Dana Podmolikova moderatorluq edib.

Panel sessiyada çıxış edən BMTSA-nın gənc sülh qurucusu Denis Adesina Daniel Mədəniyyətlərarası Dialoq Forumunun gənclər üçün böyük təcrübə olduğunu deyib. "Dünyada baş verən münaqişələrin həlli üçün aparılan müzakirələr mənim üçün olduqca faydalı oldu. Xüsusilə qadınların hüquqları ilə bağlı məsələlərə, onların dəstəklənməsi üçün səslənən fikirlərə və təşəbbüslərə nail olmaq lazımdır", - deyə o bildirib.

Sülh qurucusu Anand Junior çıxışında Mədəniyyətlərarası Dialoq Forumunun mövzusunun çox əhatəli olduğunu vurğulayaraq qeyd edib ki, forumda iştirak edən gənclər müxtəlif bilik və bacarıqlara yiyələniblər. Gənc Sülh Qurucuları Proqramının məqsədindən də danışan Anand Junior diqqətə çatdırıb ki, proqram dünya gənclərinin sülh quruculuğu prosesinə cəlb olunmasını hədəfləyir. Siyasətdə gənclərin rolundan da danışan sülh qurucusunun fikrincə, siyasətdə gənclərə də yer verilməlidir: "Bəzən gənclərin ideyaları manipulyasiya edilir. Yaşlı insanlar isə gənclərin yeniliklərini qəbul etmək istəmirlər. Bu kimi hallardan çəkinmək lazımdır".

Sonra sülh qurucusu Hazhir Aljaf çıxış edib. Gənc Sülh Qurucuları Proqramının karyerasına təsirlərindən danışan Hazhir Aljaf deyib: "Dünyanın bir çox ölkəsindən olan yeni dostlar tapmaq, insanları tanımaq, onların mədəniyyətlərini kəşf etmək mənim üçün inanılmaz təcrübə olub. Eyni zamanda proqram mənim şəxsi karyerama da çox müsbət təsir edib".

BMTSA-nın digər gənc sülh qurucusu Sarra Messaudi proqram vasitəsilə sülhün təşviqi ilə bağlı bir sıra müzakirələrin aparıldığına diqqət çəkib: "Bu məqsədə nail olmaq üçün araşdırmalar aparırıq. Bu, bizə çox böyük təcrübə qazandırır".

Sülh qurucusu Dania Abraham isə çıxışında gənclərin dəyişikliyə hər zaman hazır olduğuna diqqət çəkib. "Onlar fərqli rəyləri eşitməyə, müzakirələrə hazırdır. Təklif edirəm ki, gənclərin yeni ideyaları yaşlı nəslin təcrübələri ilə birləşsin. Nəsillərarası əməkdaşlıq yaransın", - deyə o, diqqətə çatdırıb.

Sessiya müzakirələrlə davam edib.

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Bakı Forumunun növbəti panel iclası münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi üçün sülhün təmin olunmasına həsr edilib

**"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mayın 2-də keçirilən növbəti panel iclası "Münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi və qorunması üçün davamlı sülhün təmin edilməsi" mövzusuna həsr olunub.**





AZƏRTAC xəbər verir ki, panel sessiya Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi, səfir Elman Abdullayevin moderatorluğu ilə keçirilib. E.Abdullayev çıxışında dayanıqlı sülhün önəmli amil olduğunu bildirib. "Biz tarixi-mədəni irsin qorunması istiqamətində səylərimizi birləşdirməliyik. Aydındır ki, müharibələr zamanı mədəniyyətlərə çox böyük zərərlər dəyir. Sülhə aparan yol isə heç də asan olmur. Mədəniyyətlərin bərpası çağırışlarla doludur. Eyni zamanda nəzərə almalıyıq ki, kollektiv səylər hər zaman önəmlidir. Biz dialoq və əməkdaşlıq körpüsü qurmalıyıq", - deyə səfir vurğulayıb.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova diqqətə çatdırıb ki, Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra həmin ərazilərdə dağıdılmış mədəniyyət abidələrinin geniş bərpasına başlayıb. Türk Mədəniyyəti və İrsi Fondu bu işə töhfə vermək məqsədilə Füzuli rayonunun Qoçəhmədli kəndindəki məscidi bərpa etməyi planlaşdırır.

O qeyd edib ki, işğaldan azad edilmiş ərazilərə məcburi köçkünlərin qayıdışı uğurla davam edir. Bu məsələdə Azərbaycan çox böyük uğurlar qazanıb. "Şuşanın mədəniyyət paytaxtı elan edilməsi bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətli olduğunu bir daha göstərir", - deyə o vurğulayıb.

ICESCO-nun İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro çıxışında mədəniyyətin təkcə abidələr deyil, həm də insanlarla bağlı olduğunu deyib. O qeyd edib: "Biz müharibələr zamanı insanları qorumalıyıq. Abidələri bərpa etmək asandır, burada əsas məsələ insanları qorumaqla bağlıdır. İnsanlar mədəniyyəti özlərinin həyat tərzi kimi görməlidirlər. Həmçinin tarixi yaşatmaq üçün tarixi abidələri də mühafizə etmək lazımdır".

Türkiyə- Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və xarici siyasət Şurasının üzvü Aygün Attar ermənilərin Azərbaycan torpaqlarını işğal altında saxladığı müddətdə mədəniyyətləri, abidələri, xatirələri məhv etdiyini vurğulayaraq bildirib.

O deyib: "Dialoq Forumunun əsas mahiyyəti təkcə Azərbaycan üçün deyil, həm də bütün dünyanın mədəniyyət mirasını qorumaqla bağlıdır. Bu istiqamətdə görülən tədbirlər yetərli deyil. Mədəniyyətin əsaslı təminatı olan qeyri-hökumət təşkilatları, bir sözlə, hər kəs bu məsələlərə etirazını bildirməlidir. Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan 44 günlük müharibəyə məcbur qalıb. Məsələnin kədərli nəticəsi ondan ibarətdir ki, üç minə yaxın şəhid verib".

İşğal dövründə Azərbaycanın təbiətinə də böyük zərər dəydiyini diqqətə çatdıran Aygün Attar əlavə edib: "Azərbaycanın ekologiyasına vurulan zərər həm də bütün dünyanın ekologiyasına vurulan zərərdir. Bu zərərin də maddi dəyəri ödənilməlidir".

Otuz il boyunca Qarabağda məscidlərin tamamilə yox edildiyini qeyd edən Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədri deyib: "UNESCO-da mədəni irsin qorunması ilə bağlı qanunu qəbul edənlər bu məsələdə səslərini çıxarmadı. Dünyada riyakar siyasət həyata keçirilir, ikili standartlar nümayiş etdirilir. Bütün bu baş verənlərin obyektiv şəkildə hesabı verilməlidir.

UNESCO üzrə Türkiyə Milli Komissiyasının prezidenti Öcal Oğuz çıxışında təhsilin və maarifləndirmənin rolundan danışıb. O, hər şeyin məhv olduğu dünyaya sülhü necə gətirmək mümkündür sualına cavab tapmaq üçün UNESCO-nun yaradıldığını bildirərək deyib: "Biz ətrafımızdakı münaqişələrə qarşı daim mübarizə aparmalıyıq. Biz dünya olaraq 1954-cü ildə qəbul edilmiş Konvensiyanın arxasında dayana bilmədik. UNESCO bu məsələnin həlli üçün, ilk növbədə təhsilin önəmini irəli sürüb, daha sonra mədəni irsin qorunmalı olduğunu təklif edib. Bildirilib ki, əgər mədəniyyətlər birləşərsə, sülh əldə etmək daha asan olar. Miqrasiya edənlərin də maddi-mədəni irsinin qorunması üçün UNESCO mexanizmi əhəmiyyət daşıyır".

Məşhur fotojurnalist Rza Deqqəti çıxışında 45 il ərzində şahidi olduğu münaqişələrdən söz açıb. O, münaqişələr zamanı infrastruktura, insana dəymiş ziyanlardan danışaraq əsas dağıntının gözlə görünməyən yaralanmış ruhlar olduğunu deyib, mədəniyyəti bərpa etməyin müxtəlif üsullarından danışıb. R.Deqqəti həmçinin Qarabağda son 30 ildə törədilmiş cinayətləri sənədləşdirdiyini də vurğulayıb. Fotojurnalist deyib ki, bəşəriyyət Qarabağın işğal altında qaldığı 30 il ərzində orada nə baş verdiyini bilməlidir.

## Mədəni liderlərin konsultativ görüşü - "Mədəni diplomatiya təcrübədə: mədəniyyətlərarası anlaşmanın inkişafı"



**Mayın 2-də Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ikinci günündə Azərbaycanın mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun moderatorluğu ilə Mədəni liderlərin konsultativ görüşü - "Mədəni diplomatiya təcrübədə: mədəniyyətlərarası anlaşmanın inkişafı" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, C.Səlimxanov mədəniyyət diplomatiyasının artıq yumşaq gücə çevrildiyini qeyd edib. "Biz SSRİ-də yaşayan insanlar kimi bunu daha yaxşı bilirik. Biz bu mədəni təsirlərdən necə qorunmaq, yumşaq gücə qarşı müdafiə mexanizmi barədə fikirləşməliyik", - deyə C.Səlimxanov vurğulayıb.

Malayziya Senatının sədri Mutang Tagal deyib ki, qloballaşma prosesində mədəniyyətlərarası sərhədlər daha tez silinir. Hər bir ölkə həm ölkədaxili, həm də xaricdə sülh və mehriban münasibətlərin qurulmasının tərəfdarıdır. Mədəniyyət diplomatiyası burada müstəsna rol oynayır və münaqişə, nifrət kimi mənfi təsirlərə qarşıdır. Qəzzada baş verən faciə zamanı mədəniyyət diplomatiyası olsaydı, orada aclıq olmazdı, təhlükəsizlik kimi həyati vacib şərtin mövcudluğu mümkün olardı.

"Azərbaycan Malayziya kimi çoxmədəniyyətlilik nümunəsidir. Multikultural mühitin qorunması və təbliği diplomatiyanın bir istiqamətidir. Biz rəqəmsal platformalar vasitəsilə muzeylərə virtual sərgilər təşkil edərək mədəniyyətlərin yayılması və millətlərin birləşməsi üçün bir sıra tədbirlər keçiririk. Təəssüflə bildirmək istərdim ki, son illərdə qloballaşma zəifləyib, dövlətlər arasında böyük aşılmaz sədlər qurulur, irqçilik artır. Buna görə də düşünürəm ki, belə bir forumun keçirilməsi ölkələr arasında mədəniyyət diplomatiyasının - qarşılıqlı etimadın, sülhün və dostluğun yayılmasında əvəzsiz rol oynayır", - deyə Malayziya parlamentinin nümayəndəsi vurğulayıb.

Rusiya Milli Musiqi Muzeyinin baş direktoru Mixail Brizkalov mədəniyyət diplomatiyasının yayılmasında musiqinin müstəsna rolunu qeyd edib. O bildirib ki, musiqi sərhəd tanımır. Əgər fərqli mədəniyyətlərə malik insanlar bir-birinin mahnılarını dinləyə, paylaşa bilirsə, bu, digər sahələrdə də sınanmalıdır.

Westmister Universitetinin dosenti xanım Yemisi Sloane Laura bildirib ki, multikulturalizm sülhün əsasını təşkil edir. Mədəniyyət diplomatiyası sərhədləri aşır və digər mədəniyyəti qəbul etməyə çağırır. "Mən Bakıda bu iki gün ərzində Azərbaycan yeməklərindən daddım və çox bəyəndim. Qərara gəldim ki, bu mədəniyyətlə daha yaxından tanış olum. Problem mədəniyyətdə deyil, iyerarxiyada və özünü digərindən üstün tutmaqdadır. Digər mədəniyyətləri öyrənməklə yanaşı, onların ideologiyasını da mənimsəmək lazımdır", - deyə Yemisi Sloane Laura vurğulayıb.

Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda isə çıxışında bildirib: "Bu gün biz danışırıq, müzakirələr aparırıq. Lakin düşünürəm ki, biz danışmaqdan daha çox iş görməyə çalışmalıyıq.

Prezident İlham Əliyev çıxışında çox vacib bir məsələyə diqqət çəkdi - suverenlik. Suverenlik təkcə ölkəyə aid deyil. On il sonra alimlər və tədqiqatçılar bugünkü günə dair mövzularla bağlı araşdırma aparmaq istəsələr, çox böyük çətinliklə qarşılaşacaqlar. Çünki bu gün artıq heç kim qəzet oxumur, hamı informasiyaları ağıllı telefonlar, planşetlər vasitəsilə alır. Təklif edirəm ki, biz birləşərək gələcəkdə də istifadə edə biləcəyimiz etibarlı resurs yaradaq".

Yalovdan Haddassah Akademik Kollecinin elmi işçisi Elina Bardaç özünü bir sıra mədəniyyətlərin birləşməsinin təcəssümü hesab etdiyini deyib. O bildirib: "Çünki köklərimdə rus, yəhudi qarışığı var, həmçinin İngiltərədə yaşadığım üçün bu ölkənin mədəniyyəti ilə yaxından tanışam. Düşünürəm ki, mədəniyyət diplomatiyasında informasiyanın və onun təqdimat formasının rolu danılmazdır".

Rusiya Teatr Sənəti İnstitutunun rektoru Qriqori Zaslavski deyib ki, hər il Rusiyada teatr festivalı keçirilir. Azərbaycan, Tacikistan, Qırğızıstan və digər ölkələrin teatrlarından tələbələr festivala gəlirlər və bir-birilə çox mehriban, dostcasına davranırlar. Mədəniyyətlər arasında sərhəd yoxdur, bu tələbələr bir-birinin mədəniyyətindən faydalanır və möcüzə baş verir. "Çox sevindirici haldır ki, bu il Qırğızıstanda, İssık-Kulda keçiriləcək teatr festivalına Azərbaycandan nümayəndə heyəti yenidən qatılacaq",- deyə o əlavə edib.

Qrabar İncəsənət Qoruğu Mərkəzinin direktoru Dmitri Sergeyev mədəniyyət diplomatiyasının xalqlar arasında müsbət istiqamətdə yayılmasının önəmini vurğulayıb.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver qeyd edib ki, fərqli mədəniyyətlərə, dinə və irqə mənsub insanların bir arada yaşamaları yalnız dialoq, qarşılıqlı anlaşma, hörmət və birgə yaşayışa səy göstərməkdən keçir. "Mədəniyyət diplomatiyası sayəsində dünyamızda sülh və əmin-amanlıq şəraitində yaşaya bilərik. Çoxmədəniyyətli coğrafiya yaratmalıyıq. Dinlər dinləri, mədəniyyətlər mədəniyyətləri, dillər dilləri yalnız dialoq vasitəsilə anlaya bilər", - deyə Akkan Suver vurğulayıb.

Birləşmiş Millətlər Universitetinin Siyasət əsaslı Elektron İdarəetmə üzrə əməliyyat bölməsində baş köməkçi ekspert Səlim Qriqori Zuğbi isə bildirib ki, dünyada sülh yalnız qarşılıqlı hörmət və anlayış nəticəsində bərqərar ola bilər.

## "Sosial media: mədəniyyətlər və insanlar arasında körpü və ya sədd?" mövzusunda müzakirələr aparılıb

**Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mayın 2-də işini sessiyalarla davam etdirib.**

AZƏRTAC xəbər verir ki, "Sosial media: mədəniyyətlər və insanlar arasında körpü və ya sədd?" mövzusunda keçirilən panel sessiyaya ADA Universitetinin Kommunikasiya və rəqəmsal media proqramının rəhbəri Şəfəq Mehrəliyeva moderatorluq edib.

Şəfəq Mehrəliyeva çıxışında bildirib ki, rəqəmsallıqla xarakterizə edilən bir dövrdə sosial media platformaları ünsiyyət, qarşılıqlı əlaqə və məlumatın yayılması üçün güclü alətdir. Sosial media insanları coğrafi və mədəni sərhədlər boyunca birləşdirmək potensialına malik olduğu kimi, bölünmələri, stereotipləri və qütbləşməni də gücləndirə bilər.

Panel sessiyada çıxış edən İslam Əməkdaşlıq Təşkilatının Mədəniyyət departamentinin rəhbəri Luçin Razoui deyib ki, texnologiyalar, sosial media sürətlə inkişaf edir. Fərqli din, dil, irq və mədəniyyətlərə sahib olan insanlar medianın yaratdığı virtual məkanlarda bir araya gəlirlər.

O qeyd edib ki, sosial media platformalarında kütlələrin ziddiyyətli və bənzər fikirlər paylaşması bəzən təhlükəli vəziyyət yarada bilər. "Müəyyən bir kütlə öz fikirlərinin digərlərindən daha dəyərli və düzgün olduğunu düşünür. Bu isə olduqca təhlükəli anlayışdır. Sosial medianın əsas məqsədi mədəniyyətlər və düşüncələr arasında çaxnaşma yaratmaq deyil. Burada məqsəd hər kəsin öz düşüncəsini, ideyasını açıq şəkildə qeyd edə bildiyi platforma yaratmaq idi. Artıq fərqli mövqe bildirmək digər insanları təəccübləndirir. Çünki qütbləşmiş baxış yaranıb, insanlar qarşılıqlı ünsiyyət qurmağı unudub. Bu vəziyyət hətta mənfi və yanlış fikirlərin təbliğinə gətirib çıxarır", - deyə o əlavə edib.

Sosial medianın müsbət tərəflərindən də danışan Luçin Razoui qeyd edib: "Biz mənfilərdən danışa bilərik, ancaq sosial medianın, həmçinin həyatımızı asanlaşdırdığını unutmaq olmaz. Biz bütün məlumatları asanlıqla əldə edə, yeni ideyalarımızı burada nümayiş etdirə bilirik. Sosial media insanların intellektual potensialını artırıb. İnsanlar öz mədəni təcrübələrini, ənənələrini paylaşırlar. Sosial media həm də fərqli mədəniyyətlərlə tanışlıq, mədəniyyətlərarası dialoqun formalaşmasına xidmət edir. Media platformaları insanların öz tələblərini açıq şəkildə ifadə etmələrinə kömək göstərir.

Düşünürəm ki, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu sosial mediada yaranan mənfi halların aradan qaldırılmasına öz töhfəsini verəcək. Eyni zamanda qonaqpərvərliyə, dünyada yaranan problemlərin həlli istiqamətində gördüyü tədbirlərə görə Prezident İlham Əliyevə təşəkkür edirəm".

Amerika Dövlətləri Təşkilatının komissarı Fernando Lottenberg diqqətə çatdırıb ki, Rəqəmsal erada mənbə müxtəlifliyi var və burada yanlış informasiyalar asanlıqla yayıla bilir. Sosial media, əslində, insanların birləşmələri, biliklərini paylaşmaları üçün platforma olub. Hazırkı zamanda isə burada nifrət hissləri görünməmiş şəkildə geniş yayıla bilər.

O bildirib ki, sosial media etik şəkildə fəaliyyət göstərməlidir. Bunun üçün müxtəlif tərəflərin tənqidi yanaşması olmalıdır.



"Yanlış, zərərverici informasiyalar sosial mediada nəzarətsiz şəkildə yayılır. Məhz bu zərərverici kontentlər bizim cəmiyyətimizi laxlada, eyni zamanda ekstremizmə güc verə bilər. Araşdırmalar göstərir ki, nifrət nitqinin yayılmasında sosial şəbəkələr məsuliyyət daşıyır. Biz məlumatların keyfiyyətinə nəzarət edə biləcəyimiz bir cəmiyyət qurmalıyıq. "İfadə azadlığı" anlayışı da nifrət nitqinin yayılmasına şərait yarada bilər. Bütün bunlarla mübarizə üçün bəzi hüquqi sənədlərin, konvensiyaların hazırlanmasının zamanı artıq gəlib çatıb", - deyə Fernando Lottenberg əlavə edib.

İslamabad Strateji Araşdırmalar İnstitutunun direktoru Sahil Məhəmməd bəzi ölkələrdə sosial medianın müsbət siyasi amil rolu oynadığına diqqət çəkib. Vurğulayıb ki, bəzən sosial media əsassız məlumatların, kütləvi nifrətin yaranmasına səbəb olur. Gənclər arasında islamofobiyanın yayılması, terrorizm kimi qlobal problemlərin inkişaf etməsi sosial media ilə birbaşa bağlıdır. Bu kimi halların qarşısını almaq üçün sosial media platformalarına nəzarət etmək lazımdır. Çünki yarana biləcək potensial təhlükə olduqca böyükdür. Sosial media şirkətləri ilə əməkdaşlıq etmək məsələnin həlli istiqamətində ilk addım ola bilər. Şirkətlər öz platformalarına yeni kontent əlavə edərkən ölkələrin mədəniyyətini və dini görüşlərini nəzərə almalıdır. Eyni zamanda nifrət dolu çıxışlar, saxta xəbərlər dərhal müəyyən edilməli, həmin platformalardan qaldırılmalı, düzgün mexanizmlər yaradılmalıdır. Bir sözlə, sosial media vətəndaşla dövlət arasında körpü olmalıdır".

Argentinanın müdafiə nazirinin müşaviri, jurnalist Brayan Mayer isə qeyd edib: "Biz elə bir dünyada yaşayırıq ki, bu, sosial mediaya da birbaşa təsir göstərir. Yaxşı niyyətlə istifadə olunsa, sosial media bizim köməyimizə çata bilər. Mənim sosial şəbəkə hesabımda xeyli izləyicim var. Sosial media vasitəsilə bir çox jurnalist birləşə bilib, biz bir növ ailə olmuşuq. Bu və ya digər hadisələrlə bağlı məlumatları sosial mediada bir-birimizlə paylaşırıq. Minlərlə kilometr uzaqda olan insanlar bir-biri ilə ünsiyyət qura bilirlər. Sosial media bir çox məlumatlara çıxış üçün yaxşı imkan yaradır. Bizim üzərimizə düşən əsas iş isə XXI əsrin bizə verdiyi bu imkanları sülh və tolerantlıq üçün istifadə etməkdir.

Analitik Xəbər Bülleteninin baş analitiki Orxan Amaşov çıxışında sosial media düzgün istifadə edildiyi təqdirdə müsbət platforma olduğunu deyib. Bildirib ki, hətta Azərbaycan və Ermənistan jurnalistləri arasında qarşılıqlı ünsiyyət qurmaq məhz sosial media platformasında mümkün olur.

O bildirib ki, bəzi şəxslər sosial medianı özlərinin mənfi əməlləri üçün istifadə edirlər. "Azərbaycan ilə Ermənistan arasında müharibə bitdikdən sonra Ermənistan tərəfinin yaratdığı vəziyyəti sosial medianın mənfi kontekstə istifadəsinə nümunə göstərmək olar. Ermənistan tərəfi Qarabağda hər iki millətin sülh içərisində yaşamasını istəmirdi və bu fikirlər sosial mediada paylaşılırdı. Ancaq Ermənistan sakinləri Laçın dəhlizi vasitəsilə Qarabağı tərk edərkən azərbaycanlı jurnalistlər onlarla ünsiyyət qura bilirdilər. Bu göstərdi ki, ünsiyyət qurmaq mümkündür. Eyni zamanda Gürcüstanda azərbaycanlılar və ermənilər bir yerdə yaşayıb işləyirlər".

Panel sessiya sual-cavab formatında davam edib.

Qeyd edək ki, Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən forumda 100-dən çox ölkədən 700 mötəbər qonaq iştirak edir.

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Dini liderlər Füzuli şəhərində olublar





**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər işğaldan azad edilmiş Füzuli şəhərində olublar.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Füzuli Beynəlxalq Hava Limanına gəlib. Onlara beynəlxalq hava limanı haqqında məlumat verilib. Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və istənilən hava gəmisini qəbul etmək imkanı var.

Qonaqlar Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Füzulidə törədilən dağıntılarla, həmçinin rayon işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-tikinti işləri ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev qonaqlara 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdikləri cinayətlər barədə ətraflı məlumat verib. Bildirilib ki, erməni vandalları işğal etdikləri şəhər və kəndlər kimi Füzuli şəhərini də talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib.

Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbə nəticəsində işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri başlanılıb. Füzuli şəhərində ilk yaşayış məhəlləsinin inşası yekunlaşıb və keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı başlayıb.

Nümayəndə heyəti sonra Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə gəlib. Məlumat verilib ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən məktəb 960 şagird yerlikdir. İki mərtəbə və zirzəmidən ibarət məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Qonaqlar daha sonra Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə gəliblər. Bildirilib ki, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-video montaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetiriləcək.

Nümayəndə heyəti Füzulidən sonra Şuşaya yola düşüb.

## Müsəlman din xadimləri Yuxarı Gövhər ağa məscidində namaz qılıblar



**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər Şuşa şəhərindəki Yuxarı Gövhər ağa məscidi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, müsəlman din xadimləri məsciddə namaz qılıb, şəhidlərin ruhuna dualar oxuyublar.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə nümayəndə heyətinə ermənilərin mədəni, tarixi, dini abidələrə qarşı həyata keçirdikləri vandalizm barədə məlumat verib. Bildirilib ki, işğal edilən bütün ərazilərdə olduğu kimi, Şuşada da abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqir edilib. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər ağa məscididir. Şuşa şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövlətinin diqqət və qayğısı ilə məsciddə yenidənqurma və bərpa işləri həyata keçirilib.

## Şuşada dini liderlərin görüşü keçirilib




**Azərbaycan Prezidenti İlham Əliyevin himayədarlığı ilə keçirilən VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər işğaldan azad olunmuş Şuşa şəhərinə səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, 38 ölkəni və 10 beynəlxalq təşkilatı təmsil edən müsəlman, xristian, yəhudi, buddist, induist və digər dinlərin liderləri və nümayəndələri mədəniyyət paytaxtımız Şuşa şəhərində dini liderlərin Şuşa görüşündə bir araya gəliblər.

Görüşdə əvvəlcə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoq və əməkdaşlıq məsələlərinə daim böyük qayğı ilə yanaşdığını bildirib, dinlərarası dialoq və multikulturalizm ideyalarının dünyanın və bəşəriyyətin ümumi sərvətlərindən biri kimi qorunmalı və inkişaf etdirilməli olduğunu qeyd edib.

Sonra BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos, Beynəlxalq Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdül Salam, Misirin baş müftisi Şövqi Əllam, Rusiyanın Baş ravvini Berl Lazar və digərləri Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyini vurğulayıblar. Görüş iştirakçıları həmçinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə yönəlik dəyərli fəaliyyət və səylərə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinə, VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Bakı və Şuşa görüşlərinin yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar.

Dünya mədəni və mənəvi irsinə aid olan, o cümlədən Azərbaycanın işğaldan azad olunmuş ərazilərində işğal dövründə dağıdılmış mədəni və dini abidələrin bərpası prosesi yüksək dəyərləndirilib.

Şuşa görüşünün iştirakçıları müzakirələrdə Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin yüksək səviyyədə formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyini bildiriblər. Eyni zamanda Azərbaycanın müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə yönəlik dəyərli fəaliyyət və səyləri, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələri yüksək qiymətləndirilib. Dini liderlər ölkəmizin mədəniyyət paytaxtı Şuşada dini liderlərin forumlarının mütəmadi keçirilməsi barədə təşəbbüs irəli sürüblər.

Sonra dünya dini liderlərinin Şuşa Bəyannaməsi yekdilliklə qəbul edilib *(Bəyannamə qəzetin bugünkü nömrəsində dərc olunur)*.

İştirakçılar Prezident İlham Əliyevin müəllifi olduğu "Bakı Prosesi"ni alqışlayaraq cari ilin noyabrında keçiriləcək COP29 - İqlim Dəyişikliyi üzrə Bakı Sammitinin təşkilatçısı Azərbaycan Respublikasına uğurlar diləyiblər.

Sonra dini liderlər Şuşada erməni vandalizminin nəticələri ilə tanış olub, Azərbaycan dövlətinin bu ərazilərdə apardığı bərpa, yenidənqurma işlərinin gedişatı barədə məlumatlandırılıblar.

## Dini liderlərin Şuşa Bəyannaməsi

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də müxtəlif ölkələrin dini liderlərinin Şuşa görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, görüşün sonunda dini liderlərin Şuşa Bəyannaməsi qəbul olunub. Bəyannamədə deyilir:**

"2024-cü ilin 1-3 may tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayədarlığı ilə təşkil olunan VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Bakıda, müxtəlif ölkələrin dini liderlərinin "Dinlərarası dialoq vasitəsilə etimadın möhkəmləndirilməsi" mövzusunda plenar sessiyası (Bakı görüşü) və Şuşa görüşü keçirilmişdir.

Dini liderlərin Bakı və Şuşa görüşlərinin iştirakçıları - dünya və ənənəvi dinlərin liderləri, ictimaiyyət, elm xadimləri, beynəlxalq və dini təşkilatların nümayəndələri:

- Azərbaycan Respublikasının beynəlxalq müstəvidə sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafı, milli-mədəni və mənəvi dəyərlərin qorunması, tolerantlıq və multikulturalizm ənənələrinin təbliğində önəmli rolunu qeyd edərək,

- Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirakını və dərin məzmunlu çıxışını yüksək dəyərləndirərək;

- Azərbaycan Hökuməti tərəfindən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Dini Liderlərin Görüşünə göstərilən diqqət və dəstəyi yüksək qiymətləndirərək,

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi", "Dünya dini liderlərinin I və II Bakı sammitləri, habelə digər ölkələrdə keçirilən mühüm forumlar - "Dünya və ənənəvi dinlərin liderlərinin Astana qurultayları", "Bəhreyn Dialoq Forumu", "G20", "İqlim dəyişikliyi üzrə COP", "Səudiyyə Media Forumu" və s. bu kimi platformalarda dinlərarası dialoq məsələlərinə həsr olunmuş və qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfə verən tədbirlərin əhəmiyyətini vurğulayaraq,

- Zati-Müqəddəsləri Roma Papası Fransisk və Əl-Əzhərin Baş İmamı Şeyx Əhməd əl-Tayyib həzrətləri tərəfindən 4 fevral 2019-cu il tarixində Abu-Dabidə imzalanmış "İnsani Qardaşlıq və Dünyada Sülh" Birgə Sənədinin sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinə, sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğunu vurğulayaraq,

- beynəlxalq səviyyədə terrorizmin geniş miqyasda yayılması, ksenofobiyanın, dini və etnik zəmində dözümsüzlüyün və zorakılığın artması faktları ilə bağlı dərin narahatlıq ifadə edərək,

- davamlı tərəqqiyə, sabitlik və təhlükəsizliyə maneə olan aqressiv təbliğatlara, müxtəlif dinlərin ardıcılları arasında qarşılıqlı inamı pozan əməllərə, nifrət çağırışlarına və dinlərarası ixtilafların qızışdırılması hallarına qarşı beynəlxalq birlik tərəfindən birgə səylərin gücləndirilməsinin zəruriliyini bildirərək;

- insan hüquqlarının, beynəlxalq humanitar hüquq normalarının sistemli və kütləvi şəkildə pozulması hallarını pisləyərək, xüsusilə qadın və uşaq haqlarının qorunması sahəsində dövlət, din, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətinin vacibliyini vurğulayaraq;

- terrorçu və ekstremist qruplaşmaların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinə qarşı birgə və yekdil mövqedən çıxış edilməsinin zəruriliyini vurğulayaraq;

- dünya xalqlarının dini və mədəni müxtəlifliyinin bəşər sivilizasiyasının ən böyük irsi kimi qorunmasının vacibliyini təsdiq edərək;

- silahlı münaqişələr, terror aktları, dini və etnik zəmində baş verən zorakılıqların insan tələfatı ilə yanaşı, mədəni və dini irsin talan və məhv edilməsi ilə müşayiət olunmasından, o cümlədən Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı dövründə Azərbaycanın mədəni və mənəvi irsinə aid olan abidələrin dağıdılmasından, məqsədyönlü şəkildə həyata keçirilən yandırılmış və minalanmış torpaq, ekosid və urbisid siyasətinin ağır nəticələrindən dərin narahatlıq ifadə edərək;

- Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərini, xüsusilə də mədəni və dini abidələrin bərpası və yenilərinin inşası proseslərini təqdirəlayiq hesab edərək,

- Cənubi Qafqaz regionunda sülhə, barışığa, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və birgəyaşayışa xidmət edən siyasi prosesləri dəstəkləyərək,

- bəzi dövlət, beynəlxalq və dini təşkilatların bu bölgədə sabitliyə xidmət etməyən bəyanatları, xüsusilə də erməni kilsəsi tərəfindən təbliğ olunan işğalçılıq, aqressiv separatizm və revanşizm ideyalarını zərərli tendensiya kimi qiymətləndirərək,

- dünyanın müxtəlif regionlarını təmsil edən xristian, müsəlman, yəhudi, buddist, induist və digər dini konfessiya təmsilçilərinin müasir dünyanı təhdid edən problemlərə dair birgə mövqedən çıxış etməsi üçün bu kimi dinlərarası tədbirlərin mütəmadi keçirilməsi və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində davamlı əsaslarda "Dini Liderlərin Görüşü"nün təşkil olunması niyyətlərini ifadə edərək,

- 2024-cü ilin noyabr ayında Bakıda keçiriləcək İqlim dəyişikliyi üzrə COP29 Sammitinə, habelə bu mühüm platforma çərçivəsində beynəlxalq "Dini pavilyonu"na və "Dini Liderlərin Zirvə görüşü"nə evsahibliyi edəcək Azərbaycan Respublikasına uğur diləyərək,

Dövlətləri, beynəlxalq, regional, dini, ictimai təşkilatları və dini liderləri

- dünyanın müxtəlif regionlarında hazırda baş verən müharibələrin və hərbi münaqişələrin tezliklə dayandırılması, günahsız insanların və mülki əhalinin qanının tökülməsinin qarşısını almağa yönəlmiş təxirəsalınmaz səyləri dəstəkləməyə;

- dialoq və ümumbəşəri humanizm ideyalarının təbliği yolu ilə dünya və ənənəvi dinlərin liderlərinin sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşma və dinc birgəyaşayış mühitinin təşviqi sahəsində dövlət və ictimai qurumlarla, beynəlxalq təşkilatlarla birgə əməkdaşlığına dəstək verməyə;

- terrorizmin və insanlıq əleyhinə cinayətlərin din adı ilə əlaqələndirilməsi, ayrı-seçkiliyə əsaslanan rasizmin, irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların qarşısının alınması üçün təsirli tədbirlər görməyə;

- dini rəmzlərə, müqəddəsliklərə və atributlara qarşı vandalizm aktlarını pisləməyə, demokratiya və söz azadlığı pərdəsi altında bu kimi əməllərə bəraət qazandırmağa yol verməməyə;

- gənclərin ksenofobiya və ayrı-seçkiliyə qarşı mübarizədə daha fəal iştirakı məqsədilə bərabər vətəndaşlıq mövzusunda maarifləndirilməsini və bu proseslərdə kütləvi informasiya vasitələrinin rolunu təşviq etməyə;

- dini, mədəni və etnik müxtəlifliyin himayə olunması və buna hörmətlə yanaşılmasını dəstəkləməyə;

- silahlı münaqişə, təqib və zorakılıq səbəbindən qaçqınların, məcburi köçkünlərin və miqrantların kütləvi axını nəticəsində dünyada humanitar böhranın fəlakət həddinə çatması ilə bağlı öz dərin narahatlıqlarını ifadə etməyə, onların pozulmuş hüquqlarının bərpa olunmasına, eləcə də bu cür vəziyyətlərin yaranmasına gətirib çıxaran faktorların aradan qaldırılmasına səy göstərməyə;

- media və informasiya texnologiyaları vasitəsi ilə irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və nifrət çağırışlarının qarşısının alınmasında əməkdaşlığın artırılmasına;

- dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olması, habelə iqlim dəyişikliyi ilə əlaqədar yaranmış problemlərin həllində dinlərin potensialından daha səmərəli şəkildə faydalanmağa;

- İnsan hüquqları haqqında Ümumi Bəyannaməyə riayət olunaraq, insan hüquqlarının, qadın və uşaq haqlarının qorunması sahəsində dövlət, din, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırırlar.

*Şuşa şəhəri, 2 may 2024-cü il"*

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun vacib platformasıdır

**"Çoxtərəfli əməkdaşlığın inkişafında yumşaq gücün tətbiqi, həmrəyliyin möhkəmləndirilməsi və parçalanmaya qarşı müqavimət mövzusunda təşkil olunan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mühüm əhəmiyyətə malikdir. Bu mötəbər tədbirə evsahibliyi etmək dövlətimiz üçün olduqca əhəmiyyətlidir. Forumun açılış mərasimində Prezident İlham Əliyevin çıxışı isə çoxşaxəli və dərinməzmunludur".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, forum mədəniyyətlərin inkişafına mühüm töhfə verir: "Üç gün davam edəcək forum çərçivəsində 4 plenar sessiyanın və 12 panel müzakirənin keçirilməsi nəzərdə tutulub. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir. Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də nəzərdə tutulmuşdu. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiyalar keçirilib".

Deputatın sözlərinə görə, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu eyni zamanda Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciəti üçün bir platforma yaratmaq fürsətidir. 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə təşkil olunub.

"Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Bu günə kimi forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və müxtəlif institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib", - deyə müsahibimiz əlavə edib.

Müşfiq Cəfərov onu da qeyd edib ki, Prezident İlham Əliyevin VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışı beynəlxalq siyasətdə özünü demokratiya carçısı kimi təqdim edənlərə dərs oldu: "Uzun illər ikili standartlardan, riyakar qlobal siyasətdən əziyyət çəkən xalqların mübarizəsindən bəhs edən dövlətimizin başçısının forumdakı çıxışı unudulan insan haqlarının və beynəlxalq dəyərlərin bəyənnaməsi oldu".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*




## 110 ölkə, 700 mötəbər qonaq

### İlham Əliyevin təşəbbüsü ilə yaradılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu artıq mühüm qlobal platforma kimi qəbul edilir

**"Mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər".**

**Bəşəriyyəti narahat edən qlobal çağırışlar**

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha dünyaya sülh, həmrəylik çağırışı etdi. Azərbaycanın bu yolda tutduğu mövqeyini, qarşıya qoyduğu məqsədini açıqlayan Prezident qlobal təhdidlərə qarşı birgə mübarizənin konturlarını təqdim etdi.

Tədbirin moderatoru, ABŞ-nin Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor Alpaslan Özerdem də səmimi şəkildə vurğuladı ki, forum iştirakçıları Bakıda toplaşan zaman sərhədləri aşan, məfkurələri keçən dərin çağırışlarla və fürsətlərlə səciyyələnən qlobal duruma şahidlik edirlər.

Onun fikrincə, bu gün bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kibertəhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Əlbəttə ki, dünya dövlətləri insanlıq naminə münaqişələri həll etməli və sülhü yaratmalıdırlar. 2011-ci ildən başlayaraq məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub.

Xatırladaq ki, 2008-ci ildə İlham Əliyev tərəfindən irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda forumlar çərçivəsində 180 ölkədən olan iştirakçı 250-dən artıq müxtəlifformatlı tədbirlərə, plenar və panel müzakirələrə, təqdimatlara qatılıb. Keçirilən 250 tədbir bölgədə yeni mədəniyyətlərarası təşəbbüsləri ilhamlandırıb.

Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

Əsas məqsəd dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Forumun məqsədi yeni siyasət, sənədlər və razılaşmalar formalaşdırmaqdır.

**Dünyada yeni münaqişələr, təhdidlər hələ də davam edir**

İlham Əliyevin müəllifi olduğu "Bakı Prosesi" də dünyaya ədalət çağırışı edir - gəlin, bu yola birgə çıxaraq, qarşımızdakı fürsətdən yararlanaq, birləşək, müxtəlifliyi bayram edək, sülh, qarşılıqlı hörmət və anlaşma dünyasının yaradılmasına ümumi səylər, baxışlar və biliklər ilə töhfə verək!

İndiyədək bu istiqamətdə həyata keçirilən reallıqlardan söz açan İlham Əliyev iştirakçıların diqqətinə çatdırdı ki, 2019-cu ildə Bakıdakı görüşdən sonra əfsuslar olsun dünya təhlükəsiz olmayıb. Çox təəssüf ki, bu gün də dünyada yeni münaqişələr, qeyri-sabitlik məkanları, təhdidlər mövcuddur. Məhz buna görə də qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılmalıdır.

Azərbaycanın mədəniyyətlərarası dialoqu güclü şəkildə təşviq etdiyini deyən dövlət başçısı bildirdi ki, ölkəmizdə çoxsaylı tədbirlər təşkil edilir. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bu proses Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçirilir və digər tədbirlərdə bu məsələyə toxunulur. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaq. Bu dialoq məsələsi orada da müzakirə olunacaq.

Əksər ekspertlər də hesab edirlər ki, COP29 Azərbaycan üçün həm də bir fürsət sayılır. Bu beynəlxalq toplantı Azərbaycan həqiqətlərinin, reallıqlarının və eləcə də ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə istiqamətində həyata keçirdiyi layihələrin dünyaya olduğu kimi çatdırılmasında mühüm platforma olacaq.

**"Alova yenidən odun atmaq istəyirlər"**

Azərbaycan Prezidenti həmçinin forum vasitəsilə Cənubi Qafqazda maraqları olan qüvvələrə də xəbərdarlıq etdi. Hazırda Ermənistanla Azərbaycan arasında proseslərin yumşaldığını, tərəflərin sülhə yaxın olduğunu deyən Müzəffər Ali Baş Komandan bəyan etdi ki, hər iki tərəfin sülh danışıqlarını aparması üçün vasitəçiyə ehtiyacı yoxdur: "Əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb... Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər", - deyə Prezident qətiyyətli şəkildə vurğuladı ki, Azərbaycan Cənubi Qafqazda buna icazə və imkan belə verməyəcək. Çünki 30 illik toqquşmadan sonra Ermənistan da aydın şəkildə Azərbaycanın Cənubi Qafqazda sülh istədiyini anlayır və barış bölgədə yalnız iki ölkə arasında normallaşma vasitəsilə həll oluna bilər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Bakı qlobal problemlərin həlli mərkəzinə çevrilib

**"Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi deməyə əsas verir ki, Azərbaycan bəşəri problemlərə biganə deyil. Tədbirdə 110 ölkəni təmsil edən 700 mötəbər qonağın iştirak etməsi də forumun qlobal əhəmiyyətinin bir daha nümayişi oldu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib. Deputat bildirib ki, bu forum Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında aparıcı rolunun bir daha bütün dünyaya sübutu olmaqla yanaşı, Bakının beynəlxalq münasibətlər sisteminin aparıcı aktor kimi mövqelərinin möhkəmlənməsinə də şərait yaradacaq. Forumun Azərbaycanda keçirilməsi artıq ənənə halını alıb. Hər zaman bəşəri dəyərləri müdafiə edən, mədəniyyətlərarası dialoqun inkişafına töhfə verən Bakı məhz belə tədbirlərin keçirildiyi mühüm platformaya çevrilib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu milli sərhədləri aşan aktual qlobal problemlər üzrə vacib müzakirələr aparmaq üçün unikal və dəyərli platforma kimi qiymətləndirilir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 110 ölkənin foruma qatılması onun mədəniyyətlərarası dialoq məsələlərinin müzakirə edildiyi çox mühüm beynəlxalq platforma olduğunun təsdiqidir.

Deputat qeyd edib ki, belə beynəlxalq tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qlobal problemlərin həllində oynadığı strateji rolun əhəmiyyətini bir daha nümayiş etdirmək baxımından olduqca əhəmiyyətlidir. Eyni zamanda Azərbaycan həqiqətlərinin də qlobal müstəvidə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasına və zəruri müzakirələrin aparılmasına şərait yaradır. "Forum xüsusilə də Azərbaycanın 44 günlük müharibəsindən sonra yaratdığı postmüharibə reallıqlarının daha yaxından öyrənilməsi və beynəlxalq ictimai rəyin formalaşmasına müsbət təsir göstərəcək müzakirələrin aparılması nöqteyi-nəzərindən böyük əhəmiyyət daşıyır. Forumda Prezident İlham Əliyev Cənubi Qafqaz regionundakı son geosiyasi proseslər fonunda Azərbaycanın hədəfləri barədə ətraflı məlumatları və dünyaya önəmli mesajları ilə diqqət çəkdi. Prezidentin sözlərinə görə, XXI əsrdə Avropanın bəzi ölkələrinin digər xalqlara müstəmləkə kimi yanaşmasına imkan verilməməlidir. Dövlət başçısı açıq şəkildə bildirdi ki, dünya iyrənc neokolonializm praktikasına göz yummalı deyil. Bu, məcburi assimilyasiyaya aparır və buna son qoyulmalıdır", - deyə Rəşad Mahmudov əlavə edib.

Komitə sədrinin müavini bildirib ki, dövlət başçısı Azərbaycanın çoxtərəfliliyə qəti şəkildə sadiq olduğunu diqqətə çatdırıb. Biz çoxtərəflilik dəyərlərini 2019-cu ildən bu ilin əvvəlinə qədər Qoşulmama Hərəkatında təşviq etmişik. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə onun təsisatlanması istiqamətində mühüm addımlar atdığını vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradıldığını xatırladaraq QH-nin təsisatlanmasının gələcəkdə də davam edəcəyinə əminliyini ifadə edib. Prezident İlham Əliyev Ermənistanla sülh sazişinə dair danışıqlara da toxunub. Dövlət başçısı Azərbaycanın çox fəal çalışdığını, Ermənistana sülh sazişi ilə bağlı danışıqları başlamaq təşəbbüsü irəli sürdüyünü, hətta baza prinsiplərini və sülh sazişi layihəsini hazırladığını vurğulayıb. Ötən ilin sentyabrında Azərbaycanın suverenliyini tam bərpa etdiyini söyləyən Prezident İlham Əliyev bundan sonra ölkəmizin siyasi hücumlara məruz qaldığını bildirib. Dövlət başçısı forum iştirakçılarının diqqətinə çatdırıb ki, hazırda Azərbaycan və Ermənistan müsbət tendensiyadadır, sülhə doğru gedirlər.

R.Mahmudovun sözlərinə görə, Azərbaycan Prezidenti forumun mahiyyətindən irəli gələn məsələlərə geniş və əsaslı təhlillə toxunaraq öz sistemli nitqində açıq şəkildə bəyan edib ki, biz XXI əsrdə Avropanın bəzi ölkələrinin digər xalqlara müstəmləkə kimi yanaşmasına imkan verməri̇k: "Bu mövqenin Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan tərəfindən ifadə olunduğunu bildirən dövlətimizin başçısı hansısa ölkəyə qarşı yox, ədalətə, beynəlxalq hüquqa zidd məsələlərə qarşı olduğumuzu bildirdi. Bakıda keçirilən forum dünya mediasının diqqət mərkəzindədir. Belə mötəbər tədbirə evsahibliyi etməklə Azərbaycan dinlərarası əlaqələrin qədim ənənələrinə malik olduğunu dünyaya nümayiş etdirir, eyni zamanda bəşəriyyətin ayırıcı yox, birləşdirici meyillərə üstünlük verməsinin önəmini vurğulayır".

Deputat qeyd edib ki, bu gün dünyanın sülhü qorumaq, harada sülh yoxdursa, onu qurmaq və mədəni müxtəlifliyi müdafiə etmək üçün konstruktiv dialoqa ehtiyacı var. Ölkəmiz də məhz bu bəşəri vəzifələrin müzakirə olunduğu və müvafiq qərarlar qəbul edildiyi mühüm məkana çevrilib. Sirr deyil ki, Prezident İlham Əliyevin dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş siyasəti bu önəmli vəzifələrin yerinə yetirilməsinə istiqamətlənib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycanda vətəndaş cəmiyyətində qadınların rolu artır

**Bu gün üzləşdiyi iqlim dəyişmələri, terrorçuluq, pandemiya, kiber təhlükələr, geosiyasi gərginlik və digər qlobal problemlərin öhdəsindən bəşər övladları yalnız birlikdə gələ bilərlər. Gözlənilən qlobal fəlakətlərin qarşısını almaq üçün ayrı-ayrı ölkələr, müxtəlif xalqlar əl-ələ verməli, birgə mübarizə aparmalıdırlar.**

Məhz dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq məqsədilə yüksəksəviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mayın 1-dən 3-dək ölkəmizdə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bir araya gəldilər.

Xatırladaq ki, Azərbaycan artıq uzun illərdir ki, mədəniyyətlərarası və dinlərarası qlobal dialoqlara mühüm töhfələr verir. Forumun açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin bildirdiyi kimi: "Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərqlə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub" Dövlət başçısı əminliklə bildirdi ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanların, müxtəlif etnik qrupların və müxtəlif dinlərin təmsilçilərinin bir ailə kimi yaşadıqlarını diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır: "Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, "Bakı Prosesi"ni başlamalı idik və bildiyiniz kimi, üç ildən sonra "Bakı Prosesi" rəsmən təsdiqləndi. Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Foruмuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır".

Qeyd edək ki, "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə 2011-ci ildə, daha sonra 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil edilib.

Prezident İlham Əliyev "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda təəssüflə qeyd etdi: "2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük".

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bəşəriyyət üçün olduqca əhəmiyyətli olan bir çox məsələ müzakirəyə çıxarıldı. Belə ki, beynəlxalq tədbirdə "Çoxtərəfli əməkdaşlığın inkişafında yumşaq gücün tətbiqi: həmrəyliyin möhkəmləndirilməsi və parçalanmaya qarşı müqavimət", "Sülh və qlobal təhlükəsizlik naminə nəsillərarası dialoq", "Müxtəliflik harmoniyası: qlobal mədəni intibah naminə mədəniyyətlərarası dialoqun təşviqi", "Yaşıl gələcəyə davamlı yol: COP29 və sonrakı dövr üçün birgə fəaliyyət", "Təhsilin və gənclərin ayrı-seçkilik və ksenofobiya ilə mübarizəyə cəlb edilməsinin rolu", "Tənzimlənməyən miqrasiya və sosial təsirlər: beynəlxalq təhlükəsizlik üçün təhdid və imkanlar", "Süni intellekt - təhdid, yoxsa imkan?", "Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi; Qlobal inkişafa doğru", "Dinlərarası dialoq vasitəsilə etimadın möhkəmləndirilməsi" mövzularında panellər təşkil edildi, müzakirələr aparıldı.

Forum çərçivəsində keçirilən "Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi; qlobal inkişafa doğru" adlı panel sessiyada çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova son illər dünyanın simasının dəyişdiyini, hazırda sülh və təhlükəsizlik məsələsinin bütün platformalarda vacib bir mövzuya çevrildiyini nəzərə çatdırdı. O, dünyanın bu gün sülh və təhlükəsizliyin təmin olunmasına çox böyük ehtiyacı olduğunu qeyd etdi. Bildirdi ki, mədəniyyətlərarası toqquşmanın daha da dərinləşməməsi üçün təcili hərəkətə keçməliyik: "Biz forumda eyni zamanda müxtəlifliyin harmoniyasından istifadə edərək dünyamızı birliyə səsləyəcəyik. Hesab edirəm ki, qadın hüquqları, ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı məsələ bütün forumların başlıca mövzusuna çevrilməlidir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyətlərində qadınların iştirakı çoxalır. Bu, Azərbaycanın demokratik ənənələrindən irəli gəlir".

Tədbirdə çıxış edən Türkiyə Böyük Millət Məclisinin Qadın və kişilər üçün bərabər imkanlar komissiyasının sədri, UNESCO-nun aparıcı proqram mütəxəssisi Çiğdem Erdoğan ölkəsində qadın hüquqlarının qorunması istiqamətində həyata keçirilən işlərdən danışdı. O, eyni zamanda qadın deputatların sayının hər parlament seçkilərində artmasının əhəmiyyətini vurğuladı. Çıxışının sonunda bütün dünyanın Qəzza zolağında baş verən insanlıq faciəsinə diqqət yetirməli olduğunu nəzərə çatdırdı.

İndi əsas məqsədin çiçəklənən cəmiyyətin mədəni baxımdan tam formalaşması olduğunu söyləyən Uqandanın gender, əmək və sosial inkişaf üzrə naziri Betti Amongi Ongom insan və qadın hüquqlarının əhəmiyyətini qeyd etdi. UNESCO-nun 2015-ci ildə qəbul edilmiş konvensiyasına diqqət çəkən Betti Amongi Ongom mədəni hüquqların mühafizə edilməli olduğunu vacib bildi. Uqandanın gender, əmək və sosial inkişaf üzrə naziri təməl hüquqların qorunmasının insan haqları üzrə beynəlxalq qanunvericiliyə əsaslandığını, universal dəyərlərin mədəniyyətlərə də təsir göstərdiyini bildirdi.

Tədbirdə digər çıxış edənlər bəzi ölkələrdə qadınların cəmiyyətdən təcrid olduqlarını, qadın hüquqlarının pozulduğunu, azyaşlıların insan alverinin qurbanına çevrildiyini və başqa vacib məsələləri nəzərə çatdırdılar. Problemlərin həlli yolları ilə bağlı müzakirələr aparıldı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Bakı Forumu çərçivəsində "Keçmiş və gələcəyin mühafizəsi: iqlim dəyişikliyi fonunda mədəni irs" adlı plenar sessiya keçirilib

**"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Keçmiş və gələcəyin mühafizəsi: iqlim dəyişikliyi fonunda mədəni irs" adlı 4-cü plenar sessiya təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın UNESCO üzrə milli komissiyasının baş icraçı direktoru və Baş katibi Ceyms Bricin moderatorluq etdiyi plenar sessiyada çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova Azərbaycanda mədəni irs abidələrinin iqlim dəyişikliyinin təsirlərindən birbaşa sığortalanmadığını diqqətə çatdırıb. İqlim dəyişikliklərinin torpaqların eroziyasını sürətləndirdiyini bildirən nazir müavini fikirlərinə belə davam edib: "1918-ci ilin martında ermənilərin törətdikləri soyqırımı zamanı qətlə yetirilənlərin xatirəsinin əbədiləşdirilməsi üçün Qubada yaradılan memorial kompleksdə aparılan müvafiq qazıntılar zamanı torpaq eroziyasının xeyli artdığı müşahidə edildi. Qobustandakı qayaüstü rəsmlərdə də iqlim dəyişikliyinin təsirindən müəyyən mənfi proseslər gedib. Yağışların həcminin azalması Damcılı kimi digər tarixi obyektlərin də mövcud durumunu çətinləşdirib. Memarlıq obyektləri əsrlərin sınağından çıxmasına baxmayaraq, təbiətin təsirinə məruz qalırlar. Burada daha çox bioloji və kimyəvi amillər üzə çıxır. Onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması istiqamətində görüləcək işlər çətinləşir. Azərbaycan ərazisində UNESCO-nun siyahısında olan azı 6 obyekt təhlükədədir".

İqlim dəyişikliyi səbəbindən milli parklarda, yasaqlıqlarda vəziyyətin heç də ürəkaçan olmadığını söyləyən S.Yusifova bununla bağlı tədqiqatların aparıldığını deyib. Qeyd edib ki, təhlillər əsasında təkliflər hazırlanıb. "Biz təbiətin və milli mədəni irs obyektlərinin qorunması ilə bağlı Yol Xəritəsi tərtib etmişik. Bu da vahid strategiyaların tətbiqi ilə bağlı yeni imkanlar açıb. Bu gün bir çox ölkə eyni problemlə üzləşib. Odur ki, effektiv uyğunlaşma strategiyalarının həm milli, həm də beynəlxalq səviyyədə hazırlanmasına ehtiyac duyulur. Azərbaycan iqlim dəyişiklikləri ilə mübarizəyə ardıcıl töhfələrini verir. COP29-a evsahibliyi edəcək ölkə kimi Azərbaycan bu istiqamətdə irəli sürüləcək hər hansısa strategiyalara dəstək verməyə hazırdır.

Əfsuslar olsun ki, iqlim dəyişiklikləri ilə yanaşı, müharibələr də təbiətə və mədəni irsə mənfi təsir göstərir. Təxminən 30 il ərzində Ermənistan işğalı altında qalmış abidələrimiz məhv olub və orada mədəni soyqırımı törədilib. Qarabağ və Şərqi Zəngəzurda yerləşən təxminən 35 xüsusi əhəmiyyət kəsb edən mədəni irsin obyekti xeyli mənfi təsirə məruz qalıb. Onların sırasında biz vandalizm aktlarını da xüsusilə qeyd etmək istəyirik. On minlərlə tarixi abidə məhv edilib, yüzdən çox abidəyə çıxış əngəllənib. Bu, həmin ərazilərə aparan yolların minalanması ilə izah olunur. Həmin abidələrin qorunması Böyük Qayıdış Prosesinin ayrılmaz hissəsidir", - deyə nazir müavini əlavə edib.

Çıxışında sənayeləşmənin ətraf mühitə təsirindən, biomüxtəlifliyin azalmasından danışan Çinin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondunun (CBCGDF) Baş katibi Jinfeng Zhou deyib: "Bu anadək heyvanat aləminin yalnız müəyyən cins və növlərinə diqqət yetirmişik. Bir çox növlər diqqətdən kənarda qalıb. Bəzi cinsləri tamamilə itirmişik. Bu halda qarşılıqlı əlaqəyə ehtiyac duyulur. İnsanlar, cəmiyyətlər həmin problemdən yaxşı məlumatlı olsalar, bir araya gəlsələr, gələcəklə bağlı məsələləri anlasalar, iqlim, biomüxtəliflik sahəsində gedən mənfi proseslərin qarşısını ala bilərik".

Frison Horta Fondunun təsisçisi və baş direktoru Nupur Tron yetişməkdə olan nəslin ətraf mühitə sevgi ruhunda böyüdülməsinin, iqlim dəyişikliyi problemləri ilə erkən tanış olmasının vacibliyini qeyd edərək deyib: "Əgər iqlim dəyişikliyi problemlərinə səsimizi çıxarmasaq, təbiət daha ağır vəziyyətlə üzləşəcək. Elə tədbirlər görməliyik ki, gənclərin təbiətlə ahəngdarlığını möhkəmləndirək".

ICESCO Baş katibinin müşaviri Heşam Əl Əskəri bildirib ki, aparılan tədqiqatlara əsasən, iqlim dəyişiklikləri ilə bağlı üç fərqli xəbərdaredici ssenari mövcuddur. Ən son araşdırmalara görə, iqlim dəyişikliyinin mədəni irs abidələrində olduqca mənfi təsirləri müşahidə edilir. Qeyri-maddi və maddi mədəni irs abidələri təhlükə altındadır. Son beş il ərzində aparılan tədqiqatlar yeni modellərin işlənib hazırlanmasına imkan yaradıb. Mədəni irsin qorunması ilə bağlı qarşımızdakı məqsəd çox vacibdir. Bu, bizim keçmişimizlə bağlıdır və gələcəyimizə aiddir".

Çıxışında fövqəladə hallara hazırlıq və cavab tədbirlərindən danışan "Smithsonian"ın Asiya Mədəniyyət Tarixi Proqramının direktoru, "Smithsonian"ın Antropologiya Departamentinin Asiya, Avropa və Yaxın Şərq üzrə kuratoru Pol Maykl Taylor deyib: "Nəinki insan həyatının, hətta mədəni irs obyektlərinin qorunması üçün fövqəladə hallara hazırlıq olmalıdır. Əgər mədəni irsin qorunması haqqında danışırıqsa, ən yaxşı variantlardan biri həmin eksponatların surətlərinin rəqəmsal formada çıxarılmasıdır".

O, mədəni irsin qorunması sahəsində Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq etdiklərini, hətta birgə kitab hazırladıqlarını da diqqətə çatdırıb.

"İqlim dəyişiklikləri dünya irsinə ən böyük təhlükələrdən biridir", - deyən Afrika Ümumdünya İrs Fondunun icraçı direktoru Albino Jopela bu gün Afrikada yerləşən məkanların təhlükədə olduğunu qeyd edib. "Afrika qitəsində UNESCO-nun irs siyahısına daxil olan təxminən iki minə yaxın obyekt var. Onlardan təqribən 6 faizi təhlükə ilə üzləşib. Siyahıda olan Afrika abidələrinin 7 faizinə iqlim dəyişiklikləri birbaşa təsir göstərir. Mədəni irs obyektlərinin idarə edilməsi ilə bağlı müxtəlif strategiyalara ehtiyac var", - deyən icraçı direktor tədbirə dəvətə, eyni zamanda Afrika Ümumdünya İrs Fonduna maliyyə dəstəyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Azərbaycan Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva ölkəmizdə 7 mindən çox arxeoloji abidənin mövcud olduğunu diqqətə çatdırıb. Deyib ki, onlar bizə əvvəlki nəsillərdən qalıb və qorunma statusundadır. Hökumətin abidələrə qayğısına baxmayaraq, yenə də onların qorunması ilə bağlı müəyyən problemlər var. "Ən böyük problem uzun illər işğal altında qalmış torpaqlarımızda olan abidələrdir. Ərazilərin xeyli hissəsi minalı olduğundan onlara yaxınlaşa bilmirik. Xüsusilə arxeoloji baxımdan çox dəyərli məkanlara daxil ola bilmirik", - deyə o əlavə edib.

Küveytin UNESCO yanında daimi nümayəndəsi, səfir Adam Al Mulla iqlim dəyişiklikləri prosesinin sürətləndiyini, hətta müxtəlif yerlərdə sürətini üç dəfə artırdığını bildirərək deyib: "İqlim dəyişiklikləri çoxtərəfli cavab tədbirlərinin görülməsini, strategiyaların hazırlanmasını və həyata keçirilməsini tələb edir. Bu, təxirəsalınmaz şəkildə həyata keçirilməlidir. Mədəniyyətlərarası Dialoq Forumu hər kəsi iqlim dəyişiklikləri təhlükəsinə qarşı mübarizədə birləşdirir".

## "Müxtəlifliyin qorunması: multikultural dünyada çağırışlar və qlobal əməkdaşlığın təşviq edilməsi" mövzusunda müzakirələr aparılıb



**Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də "Müxtəlifliyin qorunması: multikultural dünyada çağırışlar və qlobal əməkdaşlığın təşviq edilməsi" mövzusunda panel sessiya təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Hüquq və Dini Araşdırmalar Mərkəzinin direktor müavini xanım Elizabet A.Klarkın moderatorluğu ilə keçirilən sessiyada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov açılış nitqi ilə çıxış edib.

O qeyd edib ki, müxtəlif mədəniyyətlər və inanclar arasında körpü yaratmaq inklüziv və multikultural cəmiyyətlərin xüsusiyyətidir. Əməkdaşlıq olmadan bu körpülər yaradıla bilməz. Əməkdaşlıq cəmiyyətdə təcrid olunmuş və azlıq təşkil edən qruplar üçün inteqrasiya imkanları yaradır.

R.Həsənov eyni zamanda bildirib ki, multikultural cəmiyyətin formalaşmasına müxtəlif maneələr yaratmaq insanlar arasında nifrətin yayılmasına səbəb olur. "Multikultural cəmiyyət yaratmaq ictimai birliyə nail olmağın həlledici yollarından biridir. İctimai birliyə nail olmaq bu gün hökumətlərin və dövlətlərin qarşısında duran prioritetlər sırasındadır. Bu, çox mürəkkəb və vaxtaparan prosesdir. Amma bu, bizi ruhdan salmamalıdır. Biz beynəlxalq əməkdaşlığımızı, dostluğumuzu gücləndirməliyik", - deyə icraçı direktor vurğulayıb.

Sessiyada çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru professor Kamal Abdulla ölkəmizdə multikultural dəyərlərin son dərəcə yüksək qiymətləndirildiyini söyləyib. Diqqətə çatdırıb ki, bu, həm Azərbaycan dövlətinin apardığı siyasətin tərkib hissəsidir, həm də xalqımızın canından, qanından gələn hisslərdir.

O bildirib ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev başqa dinin nümayəndələrinə, digər millətlərə hər zaman böyük hörmətlə yanaşırdı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev bütün konfessiyalara, milli müxtəlifliklərə eyni siyasi münasibəti bəsləməsi ilə multikultural təhlükəsizliyi təmin edib.

"Hər dövlətin bir çox təhlükəsizlik doktrinaları var. Ölkəmizin əsas məqsədi bütün konfessiyaların, milli azlıqların nümayəndələrinin özlərini Azərbaycanda rahat, bərabər hiss etməsidir. Azərbaycan Prezidenti bütün konfessiyalara eyni münasibət bəsləyir. Heç bir konfessiyanı, milli icmanı digərindən ayırmır. Bu, dövlətimizin başçısının verdiyi qərarlarda da özünü göstərir", - deyə Kamal Abdulla vurğulayıb.

Pakistanın UNESCO yanında daimi nümayəndəsi səfir Asim İftixar Əhməd çıxışında bildirib ki, dünyada hələ də həllini gözləyən bir çox böhranlar, münaqişələr var. Hazırda dünyada irqi ayrı-seçkilik kimi bir çox başqa ciddi problemlərlə qarşılaşırıq.

O deyib ki, dialoq çox önəmlidir, lakin bu gün sülh üçün kifayət edəcək qədər deyil. "Bakı Prosesi" və bu kimi digər platformalar sivilizasiyalar arasında körpü yaratmaq məqsədi daşıyır.

İsa Məsihin Son Günlər Müqəddəsləri Kilsəsinin Mərkəzi Avropa və Avrasiya üzrə prezidenti Cek Noel Gerard isə qarşılıqlı hörməti və anlaşmanı yüksək qiymətləndirdiklərini söyləyib. Qeyd edib ki, onlar dünyanın bütün inanclarında olan dəyərlərə hörmət edirlər.

"Müxtəlif dinlər, mədəniyyətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq körpüləri qurulmalıdır. Bununla biz dünyanın qarşıladığı çağırışlarla mübarizə apara bilərik. Əməkdaşlıq çərçivəsində dəstəyə həqiqətən ehtiyacı olan şəxslərə ləyaqətli şəkildə kömək göstərə bilərik", - deyə Cek Noel Gerard vurğulayıb.

Xarici Regional Araşdırmalar Departamentinin rəhbəri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Yekaterinburq filialının Ural Federal Universitetinin rəhbəri Aleksandr Nesterov isə diqqətə çatdırıb ki, multikulturalizm termin olaraq qədim deyil. Lakin onun özündə ifadə etdiyi hər bir anlayış qədim tarixə malikdir.

"Azərbaycan, xüsusilə də bu ölkənin Prezidenti multikulturalizmi dövlət siyasətinin əsasına çevirib. Bununla belə, multikulturalizm, yəni müxtəlif azsaylı xalqların, ayrı-ayrı konfessiyaların və mədəniyyətlərin tarixən bir yerdə olması Azərbaycan xalqının həyat tərzidir", - deyə o əlavə edib.

Banqladeşin sabiq səfiri və İƏT-in Avropa İttifaqındakı keçmiş daimi müşahidəçisi İsmət Cahan vurğulayıb ki, Azərbaycan multikulturalizm cəhətdən olduqca inkişaf etmiş ölkədir. Mədəniyyətlərarası dialoq sülh, mədəniyyət və qarşılıqlı anlaşmanı formalaşdırır.

İnsanların sülh şəraitində yaşamasının önəmli olduğunu vurğulayan İ.Cahan diqqətə çatdırıb: "Təəssüf ki, dünyada siyasi və dini baxımdan ayrı-seçkilik var. Bu, cəmiyyətdə sülhün bərqərar olması üçün problem yaradır. Dinlərarası dialoqlarda üst-üstə düşən məqamlar olsa da, fərqli fikirlər də mövcuddur. Bu zaman ilk növbədə dinləmə və dialoqun qurulması əsas şərtdir. Bunun üçün isə ortaq həll yolları tapılmalıdır".

Panel sessiyada çıxış edən ABŞ-nin Daxili Təhlükəsizlik Departamentinin sabiq direktor müavini Janna Skot gənclərin qlobal sahəyə cəlb olunmasının önəmindən bəhs edib. Bildirib ki, bu vasitə ilə onlar arasında kommunikasiya yaratmaq mümkündür.

Dinlərarası Dindarlıq Proqramının direktoru, professor Kamal Abu-Şamsieh, Parisdəki Ərəb Dünyası İnstitutunun direktoru, sabiq mədəniyyət naziri Kərim İfrak və "CAGE International"ın icraçı direktoru Muhammad Əbdur Rabbani çıxışları zamanı sülhün dünya üçün son dərəcə vacib olduğunu vurğulayıblar. Bildirilib ki, yoxsulluq, şiddət və ayrı-seçkilik aradan qaldırılmalıdır.

Panel sessiyası işini müzakirələrlə davam etdirib.

## VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi olub

**Mayın 2-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, Koventri Universitetinin İnam, Sülh və Sosial Münasibətlər Mərkəzinin təsisçi direktoru, professor Mayk Hardinin moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Prezident İlham Əliyevin mühüm fikirlərini əks etdirdiyi çıxışına və mədəniyyətlərarası dialoqa göstərdiyi xüsusi dəstəyə görə minnətdarlığını bildirib.

"Biz forum çərçivəsində keçirilən tədbirlərdə daha inklüziv dünya və sülh yaratmaq üçün ən önəmli mövzuları müzakirə etdik. Bunlardan mədəniyyət və irs, təhsil və texnologiya, din, miqrasiya, gənclərin proseslərə cəlb olunmaları və turizmin mədəniyyətlərarası dialoqa təsirini nümunə göstərə bilərik", - deyə nazir qeyd edib.

Forumda COP29-la bağlı önəmli mesajların çatdırıldığını bildirən A.Kərimli deyib: "Bizim əsas məqsədimiz mədəniyyətin iqlim dəyişikliyi məsələlərinin həllində önəmli yer tutmasıdır. Daha güclü və dayanıqlı gələcək üçün dəyişikliklər etməliyik".

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bildirib ki, forumda iştirak edənlər bu sahədə maraqlı olduqlarını bir daha göstəriblər.

"Forum işini bitirdi və biz hamımız özümüzdə məsuliyyət hiss edirik. Ona görə ki, biz tolerantlığı və dinc yaşamağı təşviq etməliyik. Elm, təhsil və mədəniyyət sahələrində apardığımız fəaliyyət mühüm əhəmiyyətə malikdir. Əməkdaşlıq dəyərlərinə sadiq olmağa çalışırıq".

Ümumdünya Turizm Təşkilatının İcraçı direktoru Zoritsa Uroşeviç deyib ki, turizm bütün sahələr üzrə ən vacibidir. "Biz prioritetləri müəyyən etməkdə maraqlı olmalıyıq. Turizm sahəsində müqavilənin bağlanılması və həyata keçirilməsi ilə bağlı düşüncələrimiz var", - deyə o əlavə edib.

İcraçı direktor həmçinin qeyd edib ki, gənclər dinlənilməli, onların fikir və düşüncələrinə önəm verilməlidir. Gələcək gəncləri dinləmədən reallaşa bilməz. Çünki gənclər bizim gələcəyimizdir.

BMT-nin Sivilizasiyalar Alyansının (BMTSA) direktoru xanım Nihal Saad forumda iki gün ərzində maraqlı müzakirələrin aparıldığını diqqətə çatdırıb.

"Bu forumdakı mövzular aktuallığı ilə yadda qaldı. Forum növbəti uğura çevrildi. Mədəniyyətin iqlim dəyişikliyi sahəsində rolu böyükdür. Forumun bəşəriyyətin sivilizasiyasında vacib yer tutduğunu düşünürəm. Tədbirdə qlobal çağırışlar da edildi", - deyə N.Saad vurğulayıb.

# VI ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU

## Dünya mətbuatı VI Mədəniyyətlərarası Dialoq Forumunu diqqət mərkəzində saxlamaqda davam edir

**Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Prezident İlham Əliyevin tədbirin açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər hələ də dünyanın bir sıra nəşrlərinin diqqət mərkəzində qalmaqdadır.**




AZƏRTAC xəbər verir ki, Türkiyənin Anadolu Agentliyi, "Milliyyət", "Hürriyet", "Yeni Şafak", "CNN Türk", "TR Haber", "İHA", "İstiklal", "Türkiye Press", "Son saat", "Yeni gün" portalları, "TRT", "Haber Global", "TV 100" media qurumlarının, "Beyaz qazete", "Akşam" qəzetlərinin və digər nəşrlərin yaydığı xəbərlərdə bu mötəbər VI Mədəniyyətlərarası Dialoq Forumuna böyük marağın olduğu vurğulanıb. Xəbərlərdə dövlətimizin başçısının Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri və bu baxımdan forumun əhəmiyyəti, ölkəmizin bölgənin inkişafında rolu, eləcə də regionda sülhün və sabitliyin möhkəmlənməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində atdığı addımlar, Azərbaycanda müxtəlif etnik qrupların və dinlərin təmsilçilərinin bir ailə kimi yaşaması barədə fikirlərinə xüsusi yer verilib. "Azərbaycan Prezidenti Əliyev: Dünya məcburi assimilyasiyaya yol açan iyrənc neokolonializm praktikasına göz yummamalıdır", "İlham Əliyev: Ermənistan ilə sülhə doğru gedirik", "Əliyevdən Ermənistana mesaj: Çox fəal çalışırıq", "Kritik toplantıdan əvvəl Əliyevdən yeni açıqlama: Danışıqlar hansı mərhələdədir?" sərlövhələrlə təqdim olunan informasiyalarda dövlətimizin başçısının fikirlərinə istinad edilərək bildirilib ki, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası kimi qurumlar Avropadan kənarda bəzi ölkələrin daxili işlərinə qarışmağa cəhd edir, lakin neokolonial meyillərə qarşı susur.

Məqalələrdə Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında hər hansı vasitəçi olmadan sülh yolunda atılan addımlar, delimitasiya və demarkasiya işlərinə başlanılması, Azərbaycanın Ermənistanla sülh sazişi üzrə baza prinsiplərini və sülh sazişinin layihəsini hazırladığını qeyd etməsinə geniş yer verilib.

Qardaş ölkə mediasında yer alan xəbərlərdə Prezident İlham Əliyevin Azərbaycanın tarixən mədəniyyətlərin qovuşduğu məkan olması barədə fikri xüsusi vurğulanıb: "Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlərboyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır".

Rusiyanın "Rossiya 24" dövlət telekanalında VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu haqqında geniş reportaj yayımlanıb. Reportajda bu mötəbər beynəlxalq tədbirin əsas mövzusunun sülh naminə dialoq və qlobal təhlükəsizlik olduğu qeyd edilib. Tamaşaçıların diqqətinə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin açılış nitqi söylədiyi Bakı Forumunda yüzdən çox ölkənin, o cümlədən Rusiyanın nümayəndələri iştirak edirlər.

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy telekanala müsahibəsində bildirib ki, bu tədbirdə çoxqütblü dünya konsepsiyasının inkişafı fonunda mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur.

Prezident İlham Əliyevin forumun açılış mərasimindəki nitqi Ukrayna mətbuatının da diqqət mərkəzində qalmaqdadır. "1News", "Meta", "Ua24news" və digər xəbər portallarında dərc olunan məqalələrdə Prezident İlham Əliyevin regionda sülhün və sabitliyin möhkəmlənməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində atdığı addımlar barədə fikirləri xüsusilə diqqət mərkəzində saxlanılıb. Məqalələrdə Azərbaycan Prezidentinin çıxışına istinadla qeyd edilib ki, Cənubi Qafqazda sabitlik Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə əldə olunub. Azərbaycan Ermənistanla sülh əldə etmək üçün fəal işləyir. Danışıqlar Azərbaycan tərəfindən hazırlanmış sənəd əsasında aparılır. Hazırda sülh prosesində müsbət tendensiya müşahidə edilir, sərhədlərin delimitasiyası ilə yanaşı, həm də demarkasiyaya başlanılıb. Sərhədlərin delimitasiyası və demarkasiyası iki ölkə arasında əldə olunan razılaşmalar əsasında, vasitəçilərsiz həyata keçirilir.

Prezident İlham Əliyevin forumun açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər Serbiya mətbuatının da diqqət mərkəzində olub. Bu ölkənin "Politika", "Tanyug", "Novosti", "Alo.rs", "Pink.rs" nəşrləri, "Voyvodine" radio-televiziyası dövlətimizin başçısının xüsusən neokolonializmlə bağlı fikirlərini önə çıxarıb. Bu ölkə mətbuatı xəbərləri oxuculara "Əliyev neokolonistlərə meydan oxudu: Biz imkan verə bilmərik ki, bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın", "Dünya neokolonializmin iyrənc praktikasına göz yummamalıdır" və digər sərlövhələrlə təqdim ediblər. Yazılarda dövlətimizin başçısının çıxışından aşağıdakı sitata xüsusi yer verilib: "Biz belə bir məsələyə imkan verə bilmərik ki, indi - XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, Hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əsla qəbuledilməzdir və buna son qoyulmalıdır".

Qeyd edək ki, yazılarda dövlətimizin başçısının Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, hər iki ölkənin müvafiq komissiyalarının delimitasiya və demarkasiya işlərinə başladığı və özü də bu prosesin vasitəçilərin iştirakı olmadan aparılması barədə fikirləri də diqqətə çatdırılıb.

Ərəbdilli nəşrlər də foruma geniş yer ayırıb. Misirin "Ahram", "Shorouknews, "2lkhbr.com" nəşrləri forumda müzakirə olunan məsələlərlə yanaşı, dövlətimizin başçısının açılış nitqində qeyd etdiyi mövzulara, xüsusilə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə atılan addımlara diqqət çəkib. Xəbərlərdə Prezident İlham Əliyevin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə onun təsisatlanması istiqamətində həyata keçirdiyi tədbirlərdən, ölkəmizin təşəbbüsü ilə Hərəkatın parlament şəbəkəsinin, gənclər təşkilatının, qadın platformasının yaradıldığını bildirdiyi xüsusi vurğulanıb.

Əlcəzairdə fransız dilində yayımlanan "Algere54" media resursunda yerləşdirilən xəbərdə Prezident İlham Əliyevin Fransanın neokolonializm siyasətini kəskin şəkildə qınadığı qeyd olunub.

Mərakeşin "Mapexpress", "Hespress", "2M.ma", Qətərin "Gulf Times", Yəmənin "Pressbee" nəşrlərinin, Bəhreyn Xəbər Agentliyinin yayımladığı informasiyalarda VI Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən çox ölkədən 700-dək qonağın iştirak etdiyi bildirilib. Qeyd olunub ki, forum çərçivəsində keçiriləcək 4 plenar sessiya və 12 panel iclasında təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər mühüm mövzuların müzakirə olunduğu qeyd edilib. Məqalələrdə dövlətimizin başçısının forumun açılış mərasimindəki çıxışında Azərbaycanın əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkan olması, çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik Azərbaycan cəmiyyətinin əsrlərboyu tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qorumasına da fikirləri diqqətə çatdırılıb.

## Heydər Əliyev Sarayında "Əbədi məşəl" adlı konsert təşkil olunub

**VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 2-də Heydər Əliyev Sarayında "Əbədi məşəl" adlı konsert keçirilib.**



AZƏRTAC xəbər verir ki, konsertdə ifaçılar əvvəlcə dahi bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baletindən Vals və Adogionu səsləndiriblər. Sonra Əməkdar artist Fərqanə Qasımova Vüqar Camalzadənin Məhəmməd Füzulinin qəzəlinə həsr etdiyi "Eşitməzdim" əsərini ifa edib.

Konsertdə Xalq artistləri Teyyub Aslanov, Yusif Eyvazov, Elçin Həşimov, Əməkdar artistlər Əliağa Sədiyev, Toğrul Əsədullayev, Şirzad Fətəliyev, Kamran Kərimov, Afaq Abbasovanın möhtəşəm ifaları forumun qonaqlarını valeh edib.

Milli musiqi aləti tarın ecazkar səsinin müşayiəti ilə təqdim olunan rəqslərin ahəngi maraqlı kompozisiya yaradıb.

Tədbirdə həmçinin Fikrət Əmirovun "Gülüstan Bayatı-Şiraz" simfonik muğamından fraqment, "1001 gecə" baletindən Şəhriyar və Şəhrizadın dueti, Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasından qızların rəqsi, Qara Qarayevin "İldırımlı yollarla" baletindən "Ümumi rəqs", Firəngiz Əlizadənin "İntizar" operasından final səhnəsi təqdim olunub.

Konsert proqramı tamaşaçıların zövqünü oxşayıb.

## Norveçli səyyahların Qarabağ və Şərqi Zəngəzura səfəri

Norveçin beynəlxalq səyahətçilərdən ibarət "Vagaclub"unun 30 nəfərlik geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir. AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar, onlara beynəlxalq hava limanı haqqında məlumat verilib.

Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

Sonra səyyahlar Füzuli şəhəri ilə tanış olublar. Onlara şəhərin işğal dövrü və görüləcək işlər barədə məlumat verilib.

Qeyd edilib ki, erməni vəhşiliyi nəticəsində şəhər tamamilə viran edilib, yaşayış binaları ilə yanaşı, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Şəhərin təbiəti, ağaclar və yaşıllıqlar, su mənbələri, kəhriz və bulaqlar da məhv edilib. Qonaqlar 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdikləri cinayətlərin şahidi olublar.

Səyyahlara Füzuli şəhərində görüləcək işlər barədə də məlumat verilib.

Bildirilib ki, şəhərin baş planında 2040-cı ilədək inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur.

Daha sonra qonaqlar uzun illər sonra Füzuliyə qayıtmış sakinlərlə söhbət edib, şəhərdə salınmış yaşayış kompleksi ilə tanış olublar.





* * *

Qonaqlar Füzulidən sonra Şuşa şəhərinə gəliblər.

Səyyahlar əvvəlcə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanında olublar. Məlumat verilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Sonra şəhərin qala divarları ziyarət edilib. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları tərəfindən qonaqlara şəhərin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Səyyahlar həmçinin Xurşidbanu Natəvanın evini, Xan qızı bulağını ziyarət ediblər.

Məlumat verilib ki, 30 ilə yaxın işğal dövründə şəhərdəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Sonda Cıdır düzünə gələn xarici media nümayəndələri buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

* * *

Qonaqlar Şuşa şəhərindən sonra Ağdam şəhərinə gəliblər.

Səyahətçilər əvvəlcə Ağdam şəhər Cümə məscidində olublar. Onlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Qeyd edilib ki, Ağdam şəhəri işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən Cümə məscidində bərpa işlərinə başlanılıb. Bu il aprelin 25-də Prezident İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun iştirakı ilə Ağdam Cümə məscidinin bərpadan sonra açılışı olub.

Sonra səyyahlar Ağdam Çörək muzeyinin dağıntıları ilə tanış olublar.

Onların diqqətinə çatdırılıb ki, dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Norveçli səyyahlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıblar. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, teatr binasının qalıqları gələcəkdə açıq səma altında muzeydə saxlanılacaq.

Xarici qonaqlar sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Xatırladaq ki, heyət 3 gün ərzində avtomobil yolu ilə Füzuli-Xocavənd-Şuşa-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl xətti üzrə hərəkət etməyi planlaşdırır.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania, o cümlədən bu klubların müxtəlif üzvlərinin birləşdiyi Türkiyənin Gəzginlər Klubunun, Britaniyanın "Piki Reels", İsveçin "Club 100" heyətlərinin ötən 4 ildə Qarabağ və Şərqi Zəngəzura 9 səfəri gerçəkləşib. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə baş tutub. Norveçin dünyaşöhrətli "Vagaclub"unun səfəri bu qəbildən sayca 10-cu səfərdir.

Ümumilikdə bu 10 səfərdə 46 ölkədən 360-dan çox beynəlxalq səyahətçi azad edilmiş ərazilərdəki vəziyyətlə yerində tanış olmaq imkanı qazanıb. Dünyada milyonlarla insan onların vasitəsilə Qarabağdakı real vəziyyət barədə ətraflı məlumat alıb.

1923 **Azərbaycanın özü qədər əbədi** 2024

**Şəxsiyyət var tarix yazır, tarix də var şəxsiyyət yaradır...**
**Bu hikmətli fikir müasir qloballaşma dövrünün yeni siyasi reallıqları fonunda da aktuallığını itirməyib. Çünki əksər xalqların milli varlıq və özünütəsdiqinin parlaq ifadəsinə çevrilən müstəqil dövlətçilik konsepsiyasının formalaşması məhz fenomenal liderlərin adı ilə bağlıdır.**
**Bu xalqlar içərisində azərbaycanlıların da adının çəkilməsi bizim üçün fəxarətdir. Anadan olmasının 101 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət qürur ünvanımızdır. Azərbaycanı məhv olmaqdan qurtararaq işıqlı sabaha çıxaran, dövlətin ideoloji-siyasi əsaslarını yaradan Ümummilli Liderin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillər üçün nümunədir, unudulmaz tarixdir.**
**Ərazi bütövlüyünü tam təmin etmiş tarixinin ən qüdrətli Azərbaycanı məhz Heydər Əliyev dühasının bəhrəsidir desək, yanılmarıq.**



# Əbədiyaşar

### Möcüzələr yaradan şəxsiyyət

Hər ilin 10 mayı Azərbaycan xalqının böyük minnətdarlıqla qeyd etdiyi, ehtiramını, məhəbbətini bildirdiyi gündür. Dünyanın ən böyük azərbaycanlısı kimi qəbul etdiyimiz Ulu Öndər Heydər Əliyevin doğum günü həqiqətən də tariximizin ən möhtəşəm səhifələrindən biridir.

101 yaşını qeyd etdiymiz dahi şəxsiyyət tariximizin qürurlu dünəni, öyrənilən bu günü və daim istinad olunacaq sabahıdır. Bu kontekstdə tam əminliklə deyə bilərik ki, Heydər Əliyevin unikallığının, bənzərsizliyinin elə ən vacib simvolu da budur: O, hər üç dövrün əbədi lideridir. Çünki  hər zaman azərbaycanlı olduğu üçün fəxr edən Ulu Öndər dövləti, xalqı üçün əvəzedilməz işlər görüb. Tanrı isə bu yolda ona müdriklik, aqillik, qətiyyət, əyilməzlik, yenilməzlik kimi keyfiyyətlər bəxş edib.

Ulu Öndərin bioqrafiyası bütünlüklə Azərbaycanın tərcümeyi-halı, şərəf salnaməsidir. Ölkəmizdə hansı uğura, zəfərə, tərəqqiyə nəzər salsan, orada hökmən Heydər Əliyev imzası, müəllifliyi görünəcək.

Ümummilli Lider Heydər Əliyev qüdrətli şəxsiyyət kimi yalnız Azərbaycanın və regionun tarixində iz qoymayıb. O, dünyamiqyaslı tarixi şəxsiyyətdir. Aprelin 22-də Rusiya Federasiyasında Baykal-Amur Magistralının inşasına başlanmasının 50 illiyi münasibətilə təntənəli görüş keçirildi. Rusiya Prezidenti Vladimir Putin bu görüşə Prezident İlham Əliyevi də dəvət etmişdi. Həmin görüşdə Baykal-Amur Magistralının inşasına rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev haqqında səslənən səmimi fikirlər hər bir azərbaycanlıya qürur, fəxarət hissi yaşatmaya bilməzdi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dedi ki, Baykal-Amur Magistralı dünyanın ən böyük dəmir yolu arteriyalarından biri, gələcəyin əsl yoludur. Təbii ki, bunu icra edənlərin, bu layihəni həyata keçirənlərin çoxu üçün, - o vaxt deyirdilər və indi də bunu təsdiq etmək olar, - BAM bütöv bir nəslin arzularının və romantik istəklərinin simvoludur. BAM həmçinin Sovet İttifaqının hər yerindən olan iki milyon gəncin nəhəng əməyinin və cəsarətinin təcəssümüdür. Onlar dünya tarixində tayı-bərabəri olmayan, hər mənada bənzərsiz bir layihə həyata keçirdilər.

BAM-ın inşasına başlayarkən SSRİ rəhbərliyi bu layihəyə Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan Ulu Öndər Heydər Əliyevi rəhbər təyin edir. Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək edir və Azərbaycanın qəhrəman oğlu bu nəhəng layihəni həyata keçirə bilir.

Vladimir Putin deyir: "O, özü BAM-ın obyektlərində oldu, inşaatçılar, yeni qəsəbə və şəhərlərin sakinləri ilə söhbət etdi. Necə deyərlər, rahatlıqla ona yaxınlaşa, problemlərini danışa, cari məsələləri müzakirə edə bilərdin. Onu da əlavə edim ki, Heydər Əlirza oğlunun dəstəyi ilə azərbaycanlı layihəçilər və inşaatçılar BAM-ın tikintisi zamanı stansiya kompleksləri olan iki qəsəbə - Ulkan və Anqoyanı salıblar və hazırda Xabarovsk diyarında və Yakutiyada Baykal-Amur Magistral xəttinin hissələrinin yenidən qurulması və müasirləşdirilməsində iştirak edirlər".

Prezident İlham Əliyev də xatirələrini bölüşərək deyir ki, BAM-çıların da yaxşı bildiyi kimi, Ulu Öndər Bratskdan Vladivostoka və Naxodkaya qədər çətin şəraitdə, demək olar piyada, qatarla, vertolyotla uzun bir yol qət edərək, on gün ərzində BAM-çılarla sevincini və kədərini bölüşüb. Dahi lider qayıdanda yalnız sovet dövlətinin həyata keçirə biləcəyi tikintinin miqyasından deyil, ilk növbədə ən çətin şəraitdə, bəzən daim donuşluq içində olan keçilməz meşələrdə, yolsuzluq şəraitində həyatlarını riskə atan BAM-çıların fədakarlığından təsirlənib. Çünki bu insanlar demək olar ki, hər gün şücaət göstərərək, möcüzələr yaradaraq, sovet dövlətinin və bu gün isə həm Rusiyanın, həm də qonşu ölkələrin gələcək inkişafının müqəddəratını əvvəlcədən təyin edərək, uzun illər - 50 il və ya daha çox müddət ərzində həm regional, həm də beynəlxalq əməkdaşlığın inkişafı işinə xidmət edəcək unikal infrastruktur nümunəsi yaratmağa müvəffəq olublar.

Həmin zaman SSRİ nəqliyyat tikintisi nazirinin müavini işləyən Yefim Vladimiroviç Basin də Heydər Əliyevlə bağlı xatirələrini yada salaraq deyir ki, o, möhkəm iradəli, böyük erudisiyaya malik, səriştəli və heyrətamiz insan idi: "Heydər Əliyevin BAM-a gəlişini dəqiq xatırlayıram. 1984-cü ilin iyun ayı idi. Bu, bütün BAM boyu "qızıl birləşmənin" ərəfəsi ili idi. Gərginlik pik nöqtəsinə çatmışdı. İvan Varşavski və Aleksandr Bondarın rəhbərlik etdikləri bütün briqadalar bir-biri ilə qarşılaşmağa tələsirdilər. Lakin onların yolunda, xüsusən böyük körpülər və tunellər kimi bir çox maneələr var idi. Məhz bu problemlərin həlli üçün Heydər Əlirza oğlu Əliyev BAM-a gəldi".

Qətiyyətli, mübariz, yorulmaz, işinin peşəkarı kimi Ulu Öndər bu möhtəşəm tarixi layihəni uğurla yekunlaşdırır. Onun haqqında səslənən həqiqətlər Azərbaycana verilən ən böyük dəyərdir. Yaxşılıq heç zaman unudulmur deyirlər...

### Sədaqətli xidmət missiyası

Ümummilli Lider deyirdi ki, həyatda üç şeyə - Yaradana, zəhmətinə və bir də xalqına arxalanıb. Dahi şəxsiyyət bu müdrik kəlamını əbəs yerə işlətməyib. Dünyaya azərbaycanlı kimi gəldiyi üçün Yaradana minnətdar olan Heydər Əliyev ömrünü xalqının yolunda qurban verib desək, yanılmarıq. Xalqına isə ona görə arxalanıb ki, bütün dövrlərdə Azərbaycan xalqı ona inanıb, güvənib, yürütdüyü siyasəti dəstəkləyib və hər zaman onun yanında olduğunu bəyan edib.

Məhz bu səbəbdən hər kəs Ulu Öndəri Azərbaycan xalqının milli sərvəti, onun qismətinə düşmüş Tanrı payı hesab edir. Bütün mənalı ömrünü xalqa xidmətə həsr edən Ümummilli Lider Heydər Əliyevin böyüklüyünü və əzəmətini xalqımız zaman keçdikcə daha dərindən dərk edir, dahi şəxsiyyətin ömrü qəhrəmanlıq, Vətənə və xalqa sədaqətli xidmət missiyası kimi dəyərləndirilir.

Azərbaycan elə bir həssas coğrafiyada yerləşir ki, tarixboyu, eləcə də müasiri olduğumuz hazırkı dövrlərə qədər dövlətçiliyimizə qarşı təhdidlər olub və bundan sonra da olacağı gözləniləndir. Amma Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci və 1993-2003-cü illəri əhatə edən hər iki zaman kəsimində dövlətçiliyimizin təməllərini elə möhkəmlədib, elə mükəmməl formalaşdırıb ki, bu, uzun onilliklər, hətta yüzilliklər boyu Azərbaycanın uğurlu inkişafını təmin edəcək, xarici təhdidlərdən etibarlı şəkildə qoruyacaq.

Tarixə nəzər yetirsək görərik ki, göstərilən bütün dövrlərdə Ulu Öndərin qəlbi Azərbaycanla döyünüb. O, Azərbaycanı hər yerdə yüksək səviyyədə təbliğ edib. Hər zaman xalqına, ölkəsinə sevgisini əməllərində təcəssüm etdirib. Nə qədər söz desək də, Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılması, möhkəmləndirilməsi, qüdrətli ölkəyə çevrilməsi uğrunda göstərdiyi xidmətləri, fədakarlığı, mübarizliyi ifadə etməyə yetməz. Azərbaycana rəhbərliyinin birinci dövründə - 1969-1982-ci illəri əhatə edən 13 illik tarixi dövrdə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi ilə respublikamızda bütün sahələrin inkişafında böyük sıçrayışa nail olub. Parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaradıb və gələcəyə aparan yolları müəyyən edib. Ulu Öndər sözün əsl mənasında möcüzələr yaradıb.

Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Ulu Öndər Heydər Əliyev ona bəslənilən ümidləri layiqincə doğrulda bilib. Təsadüfi deyil ki, sovet illərində olduğu kimi, müstəqillik dövründə də məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan bütün təbəddülatlardan xilas olmağı bacarıb. Bu baxımdan tarixi həqiqətdir ki, əgər 1993-cü ilin gərgin və böhranlı iyun günlərində Ulu Öndər siyasi hakimiyyətə qayıtmasaydı, indi bəlkə də nə müstəqilliyimiz, nə də dövlətçiliyimiz var idi. Ermənistan kimi vassal dövlət olaraq Azərbaycan da kiminsə buyruğu, əmrləri ilə idarə edilərdi.

Ona görə də əminliklə, qürurla deyirik ki, müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur.

Ulu Öndər Heydər Əliyev xalqımızı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarıb. Ardıcıl mübarizə apararaq ona müasir müstəqil ölkə bəxş edib. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub.

Bu gün Qarabağda, Şərqi Zəngəzurda, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın hər qarışında dalğalanan üçrəngli bayrağımızın əzəməti, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın möhtəşəm nailiyyətləri Heydər Əliyevin ideyalarının təntənəsidir.

### Heydər Əliyev Fondu - 20 ildə qazanılan misilsiz nailiyyətlər

Ümummilli Lider Heydər Əliyev xalqın son ümid yeri, xilaskarı idi. Xalqımızı zülmətdən aydınlığa aparan dahi şəxsiyyət hər bir azərbaycanlı üçün təkcə xilaskar olmadı, həm də valideyn, qayğıkeş, nümunəvi ata oldu.

Onun siyasi məktəbinin ən layiqli varisi - Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Cənab İlham Əliyev həyata keçirdiyi tam müstəqil siyasət, uğurlu xarici diplomatiya ilə Ulu Öndərin yarımçıq qalan işlərini başa çatdırdı və indi Azərbaycan məhz Heydər Əliyevin görmək istədiyi, dünyaya günəş kimi doğan ölkədir. Əlbəttə ki, bu gün bizlərlə birgə olmasa da, dahi liderin ruhu sevinir və onun ideyaları, zəngin irsi hər zaman təbliğ edilir. Bunu əbədiyaşar liderin adını daşıdığı Heydər Əliyev Fondunun təməl prinsiplərində, həyata keçirdiyi bütün layihələrdə görmək mümkündür.

Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 20 il öncə yaradılan fond ötən müddət ərzində Ümummilli Liderin zəngin irsini öyrənməyi, təbliğ etməyi, onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, mədəniyyətimizin, tariximizin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərməyi özünə fəaliyyət prinsipi seçib.

Ulu Öndərin ruhuna dərin hörmət, ehtiram əlaməti olaraq 2004-cü ildə yaradılan fond Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 20 ildir ki, Azərbaycanın dahi liderinin  parlaq ideyalarının əbədi yaşaması üçün misilsiz xidmətlər göstərir. Ölkəmizdə elə sahə tapılmaz ki, onun problemlərinin çözülməsində, aradan qaldırılmasında, inkişafında Heydər Əliyev Fondunun xidmətləri olmasın. Elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə fondun gördüyü işlər inqilabi xarakter daşıyır.

Fondun fəaliyyətinə ən böyük qiyməti isə Prezident İlham Əliyev verib. Dövlət başçısı vurğulayıb ki, Heydər Əliyev Fondu sözün əsl mənasında ümumxalq fonduna çevrilib. Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır: "İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".

Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilməsi də Birinci vitse-prezidentin xalqı qarşısında xidmətlərinə verilən ən ali mükafatdır, çox yüksək qiymətdir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bu gün hər şeydən əvvəl son ümid yeri, xeyirxah aksiyaların, marafonların məkanı, nicat qapısıdır.

Bu gün fondun işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələr misilsizdir. Bəllidir ki, işğaldan azad edilən ərazilərimizdə minlərlə maddi-mədəni, dini irs nümunəmiz var ki, onların da çox böyük  bir hissəsi işğal dövründə erməni vandalizminə məruz qalıb, düşmən tərəfindən təhqir olunub, dağıdılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Layihələrin icrasına yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olundular və xüsusi işçi qrupları yaradıldı. Bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparıldı. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etdi. Məhz həmin layihələr əsasında fond artıq bir çox mədəniyyət, dini-tarixi  abidənin bərpasını başa çatdırıb.

Birinci vitse-prezidentin tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzur ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan məscidlərin, dini-mədəni abidələrin bərpası ilə yanaşı, həm də bu bölgədəki mədəni ənənələrimizi də bərpa edir.

### Zəfər gündəliyi

Artıq Qarabağ adlı münaqişə yoxdur. Üç il beş aydır ki, Azərbaycan xalqı Vətən müharibəsindəki Böyük Zəfərin sevincini, qürurunu yaşamaqdadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sülh gündəliyinin icra prosesinə başlanılıb. Regionda kənar qüvvələrin olmaması Ermənistanla Azərbaycan arasında münasibətləri normallaşdırıb. Ərazilərin delimitasiya və demarkasiya prosesinə start verilməsi bunun bariz təcəssümüdür.

Düzdür, bu prosesə qədər Azərbaycana qarşı çoxsaylı hücumlar oldu. Hətta regionda yeni münaqişə yaratmaq cəhdləri də edildi. Amma Azərbaycan Prezidentinin qətiyyətli siyasəti nəticəsində bütün məkrli planlar iflasa uğradı. Nəhayət, Ermənistan rəhbərliyi anladı ki, bölgədə sülhün təminatı yalnız iki ölkə arasındakı razılaşmadan asılıdır. Qazaxın 4 kəndinin qaytarılması, Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması prosesi də Azərbaycan Prezidentinin uğurlu diplomatiyasının növbəti təntənəsi oldu.

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha İkinci Qarabağ müharibəsinə, qazandığımız Şanlı Zəfərə və hazırda davam edən danışıqlar prosesinə diqqət çəkdi. Möhtərəm Prezident bildirdi ki, ötən ilin sentyabr ayında Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam bərpa edəndən sonra Ermənistanın himayədarları tərəfindən siyasi hücumlara məruz qalıb. Buna baxmayaraq, Azərbaycan  yenə də sülh təklif edib. İndi isə proseslər, əslində, müsbət tendensiyaya və sülhə doğru aparır. Sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiya, hətta demarkasiya prosesi reallaşır.

Prezidentin də söylədiyi kimi, buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub: "Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil".

Dövlət başçısı bir daha regionda sülh istəməyən qüvvələrə də mesaj ünvanlayaraq bəyan etdi ki, Azərbaycan bu ərazilərdə yeni savaş meydanı yaratmaq istəyən qüvvələrə imkan verməyəcək: "Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər".

### COP29 - Azərbaycan dövlətlər, mədəniyyətlər arasında yeni körpülər salacaq

Tarixi həqiqətlər göstərir ki, Azərbaycanın qazandığı bütün misilsiz nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir. Çünki müharibənin başa çatdığı gün müqəddəs ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini söyləyən dövlətimizin başçısı cənab İlham Əliyevin bu fikirləri bir daha təsdiq edir ki, bu Zəfər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi müasir inkişaf konsepsiyasının böyük uğurudur.

Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil, qətiyyətli siyasətin qayəsində xalqın milli tərəqqisi və intibahı hər zaman ön planda dayanır. Dövlət başçısının özünün də qeyd etdiyi kimi, Zəfərdən sonra Azərbaycan öz tarixinin ən şərəfli, qüdrətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyevin ideyalarını real həyatda təcəssüm etdirən müstəqil Azərbaycan dahi liderin layiqli davamçısının rəhbərliyi ilə işıqlı gələcəyinə doğru inamla addımlayır.  Bu gün dünya düzənində böyük hörmət qazanan Azərbaycan möhtəşəm qələbələrlə beynəlxalq birliyə daha sürətlə inteqrasiya istiqamətində böyük imkanlar əldə edir. Müstəqil dövlətimiz bu gün bütün dünyada aparılan mədəniyyətlərarası dialoqların təşkilatçısıdır. Azərbaycan malik olduğu zəngin mədəniyyəti ilə bu dialoq prosesinin əsas iştirakçılarından birinə çevrilib. Elə COP29-a evsahibliyinin Azərbaycana verilməsi də bunun bariz təcəssümüdür. Çünki bütün dünyaya bəllidir ki, Azərbaycan möhtəşəm konfransların, forumların keçirilməsində böyük təcrübəyə malikdir. BMT-dən sonra ikinci ən böyük təşkilat sayılan Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Azərbaycanın sərgilədiyi mövqe, reallaşdırdığı layihələr, irəli sürdüyü təkliflər ölkəmizin nüfuzunu daha da artırıb. Heç şübhə yoxdur ki, ilin sonunda keçiriləcək COP29 sammitində də Azərbaycan ənənəsinə sadiq qalaraq dövlətlər, mədəniyyətlər arasında yeni körpülər salacaq. Dünyaya həmrəylik çağırışı edib, iqlim dəyişikliyi ilə mübarizədə mühüm işlər görəcək.

*Bir sözlə, Azərbaycanın varlığı, yaşaması, gələcəyi, xalqımızın bir daha əsarətdə yaşamaması, vüqarlı olması, başını dik saxlaması üçün Ulu Öndər Heydər Əliyevin çəkdiyi zəhmət bu gün öz bəhrəsini verir. Əldə edilən möhtəşəm uğurlarımızın elə bir səhifəsi yoxdur ki, orada Heydər Əliyev dühasının nişanəsi görünməsin. Məhz bu nişanə Azərbaycanın nüfuzunu getdikcə daha da yüksəldir, Prezident İlham Əliyevin qətiyyətli, düşünülmüş siyasəti ilə ölkəmiz daha möhtəşəm zəfərlərə doğru inamla addımlayır.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 233 QƏRAR Bakı şəhəri, 1 may 2024-cü il

## "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında

"Energetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 dekabr tarixli 2372 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi:

2.1. enerji balansının tərtib edilməsi üçün energetika subyektlərindən alınan məlumatlara dair hesabat formaları və metodoloji izahları altı ay müddətində təsdiq etsin;

2.2. bu Qərarın 2.1-ci bəndində qeyd olunan hesabat formalarının və metodoloji izahların, habelə hər il "Azərbaycan Respublikasının enerji balansı"nın layihəsinin tərtib edilməsi və icrasına nəzarət məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti və Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri də daxil olmaqla daimi fəaliyyət göstərən İşçi qrupun yaradılmasını və onun fəaliyyətinin əlaqələndirilməsini təmin etsin;

2.3. rəsmi internet səhifəsində "Azərbaycan Respublikasının enerji balansı" adlı məhdud giriş imkanlarına malik elektron məlumat bazasının on ay müddətində yaradılmasını təmin etsin;

2.4. ölkədə istehsal (tədarük) olunan enerji və yanacaq növlərinin istiliktörətmə qabiliyyəti üzrə göstəricilərini müəyyən edərək, "Enerji məhsullarının şərti ölçü vahidlərinə orta çevrilmə əmsalları"nı səkkiz ay müddətində təsdiq etsin və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 2.3-cü bəndində nəzərdə tutulmuş tədbirin həyata keçirilməsini təmin etmək məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi rəsmi statistika məqsədləri üçün ölkə üzrə enerji balansının beynəlxalq metodologiyalara uyğun olaraq hər il iyul ayının sonunadək tərtib edilməsini və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

## Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 17.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət qaydasını müəyyən edir.

1.2. Enerji balansı energetika subyektlərindən alınan məlumatlar (enerjinin istehsalı həcmləri, enerjinin təchizatı üzrə öhdəliklər, habelə enerjinin istehlakına dair məlumatlar) əsasında Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən tərtib edilir.

1.3. Enerji balansı bu Qaydanın əlavəsində göstərilən struktura uyğun əvvəlki iki ilin faktiki, cari ilin gözlənilən, növbəti ilin illik, rüblük və hər sonrakı üç ilin illik proqnoz göstəriciləri əsasında tərtib edilir.

1.4. Enerji balansı tərtib edilərkən enerji məhsullarının şərti ölçü vahidlərinə orta çevrilmə əmsallarına istinad olunur.

1.5. Enerji balansının tərtib edilməsi üçün bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulan məlumatları təqdim etməli olan energetika subyektlərinin (bundan sonra - subyektlər) siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarının 2.2-ci bəndinə əsasən Nazirlikdə yaradılan İşçi qrup (bundan sonra - İşçi qrup) tərəfindən müəyyən edilir.

**2. Enerji balansının hazırlanması və təsdiq edilməsi**

2.1. Subyektlər növbəti il üçün neft, təbii qaz, elektrik və istilik enerjisi üzrə itki və texnoloji sərf normalarını (%-lə), elektrik stansiyaları üzrə ayrı-ayrılıqda olmaqla elektrik enerjisinin istehsalı və xüsusi sərfiyyatı, habelə elektrik və istilik enerjisinin buraxılışı üzrə şərti yanacağın xüsusi sərfinin (qram/kilovattsaat və kiloqram/qiqakalori ifadələri ilə) və gücdən istifadə əmsalının (%-lə) göstəricilərini hər il mart ayının 15-dək Nazirliyə təqdim edir. Nazirlik həmin məlumatlar əsasında növbəti il üçün normaları mart ayının sonunadək təsdiq edir.

2.2. Subyektlər hər il aprel ayının 15-dək enerji balansının tərtib edilməsi üçün bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulan məlumatları Nazirlik tərəfindən təsdiq edilən hesabat formalarına uyğun olaraq Nazirliyə təqdim edir. Subyektlər məlumatları bu Qayda ilə müəyyən edilən müddətdə və düzgün təqdim etməlidirlər.

2.3. Subyektlərin bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq təqdim etdiyi məlumatlar İşçi qrup tərəfindən təhlil olunur və müvafiq düzəlişlərin edilməsi zərurəti yarandıqda, həmin məlumatlar İşçi qrupun rəyi əlavə olunaraq hər il may ayının 1-dək subyektlərə qaytarılır.

2.4. İşçi qrupun rəyi nəzərə alınmaqla, subyektlər tərəfindən dəqiqləşdirilən məlumatlar hər il may ayının 15-dək yenidən Nazirliyə təqdim edilir.

2.5. Nazirlik tərəfindən hər il iyun ayının 1-dək enerji balansının layihəsi tərtib olunur, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

2.6. Bu Qaydanın 2.5-ci bəndinə uyğun olaraq təqdim edilmiş enerji balansının layihəsi noyabr ayının sonunadək Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir və Nazirlik tərəfindən rəsmi internet səhifəsində məhdud giriş imkanlarına malik "Azərbaycan Respublikasının enerji balansı" elektron məlumat bazasında (bundan sonra - məlumat bazası) yerləşdirilir.

2.7. Enerji resurslarının hərəkəti və qiymətlərində əhəmiyyətli dəyişikliklər baş verdiyi təqdirdə enerji balansının proqnoz göstəricilərinə müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təkliflər subyektlər tərəfindən dəyişikliklər baş verdiyi tarixdən 10 (on) gün müddətində Nazirliyə, Nazirlik tərəfindən dəyişikliklər baş verdiyi tarixdən 30 (otuz) gün müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

**3. Enerji balansının icrasına nəzarət**

3.1. Enerji balansının icrasına nəzarət İşçi qrup tərəfindən həyata keçirilir.

3.2. İşçi qrup subyektlər tərəfindən bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan hesabatların bu Qaydaya uyğun olaraq təqdim edilməsinə, eləcə də proqnozların icrasına nəzarət edir.

3.3. Subyektlər tərəfindən enerji balansı üzrə cari ilin faktiki göstəriciləri növbəti ilin mart ayının 1-dək real vaxt rejimində məlumat bazasına daxil edilir.

3.4. Nazirlik tərəfindən növbəti ilin aprel ayının 1-dək enerji balansı üzrə cari ilin gözlənilən göstəriciləri faktiki göstəricilərlə əvəz edilir və məlumat bazasında yerləşdirilir.

3.5. Bu Qaydanın 2.6-cı bəndinə əsasən təsdiq edilmiş enerji balansının icrası barədə rüblük məlumatlar subyektlər tərəfindən hər rübdən sonrakı ayın 20-dək real vaxt rejimində məlumat bazasına daxil edilir.

3.6. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulan rüblük məlumatda enerji balansının faktiki göstəricisi proqnoz göstəricisindən 10 faizdən çox kənarlaşma olduğu halda rüblük məlumata bu kənarlaşma üzrə arayış əlavə edilir.

3.7. İşçi qrup tərəfindən enerji balansının icrası barədə məlumatların təhlili, qiymətləndirilməsi aparılır, bu barədə rüblük (o cümlədən artan yekunla) arayışlar hazırlanaraq birinci rübün nəticələri üzrə cari ilin may ayının 15-dək, ikinci rübün nəticələri üzrə cari ilin avqust ayının 15-dək, üçüncü rübün nəticələri üzrə cari ilin noyabr ayının 15-dək, dördüncü rübün nəticələri üzrə isə növbəti ilin mart ayının 15-dək məlumat bazasında yerləşdirilir.

3.8. Nazirlik bu Qaydanın 3.7-ci bəndində nəzərdə tutulan arayışlar əsasında enerji balansının cari il üzrə icra vəziyyəti haqqında (ayrı-ayrı subyektlər üzrə məlumatlar da daxil edilməklə) hesabatı növbəti ilin mart ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

3.9. Nazirlik Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin, Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin və subyektlərin məlumat bazasına real vaxt rejimində çıxışını təmin edir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 235 QƏRAR Bakı şəhəri, 1 may 2024-cü il

## "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 234 QƏRAR Bakı şəhəri, 1 may 2024-cü il

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 133 nömrəli və 3 aprel tarixli 196 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq-mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissənin "aparat üzrə" sütununda "5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin və həmin hissənin "yanında olan orqanlar üzrə" sütunundan "2" rəqəmi çıxarılsın.

2. Aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 6-1. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 2 | 2 | |

3. 14-cü, 42-ci və 54-cü hissələr ləğv edilsin.

4. 55-ci hissənin "Orqanın adı" sütununda "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Mərkəzi Seçki Komissiyasında

### QƏRAR № 12/39

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 7 mart tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 7 mart tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*02.05.2024*

### QƏRAR № 12/40

## Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Ələmşah oğlu Məmmədovun deputat səlahiyyətlərinə xitam verilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Ələmşah oğlu Məmmədov Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilib.

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatı dövlət orqanlarında vəzifə tutduqda onun deputat səlahiyyətlərinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 175.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının qərarı ilə xitam verilir.

Beləliklə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı R.Ə.Məmmədovun deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsas yaranmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 175.3-cü, 176.2-ci və 176.3-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Ələmşah oğlu Məmmədovun deputat səlahiyyətlərinə xitam verilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*02.05.2024*

### QƏRAR № 12/41

## "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrini rəhbər tutaraq **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2012-ci il 24 fevral tarixli 1/4 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"nin 6.10-cu bəndi (6.10.2-ci yarımbənd istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"6.10. Dövlət qulluqçusu olmayan işçilər (xadimə, nəzarətçi, təsərrüfat işçisi)

6.10.1. əmək müqaviləsində nəzərdə tutulan əmək funksiyasına daxil olan işlərin (xidmətlərin) görülməsini təmin edir.".

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*02.05.2024*

### QƏRAR № 12/42

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Kəmalə Akif qızı Lətifova 79 saylı Astara, Ceyhun Nazəddin oğlu Cabbarlı 117 saylı Oğuz - Qəbələ - Şəki seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Afaq Novruz qızı Səmədzadə 81 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*02.05.2024*

# Birbaşa dialoq yaxşı nəticə verir

## Demarkasiya prosesi sülh üçün ciddi zəmin yaradır

**"Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası prosesinə başlanması sülh yolunda mühüm addımdır. Hazırda sərhədlərin müəyyənləşdirilməsi prosesinin davam etməsi tərəflər arasında digər məsələlərin razılaşmasına təkan verə bilər".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, bu proses bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistan müxtəlif bəhanələrlə sərhədlərin delimitasiyası prosesinə başlanılmasını, o cümlədən Qazaxın işğal altında olan kəndlərinin geri qaytarılmasını uzadırdı. Rəsmi İrəvan nəhayət, anladı ki, bu məsələlər barədə razılığa gəlməkdən başqa şansları yoxdur, xarici havadarlarına güvənməklə onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki ərazilərini öz gücünə işğaldan azad və suverenliyini bərpa edən dövlətimiz Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Hazırda Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Bu səbəbdən də Ermənistan sərhədlərin müəyyənləşdirilməsi ilə razılığa gəlməyə məcbur oldu. Bütün hallarda prosesin dinc yolla həyata keçirilməsi sülh üçün ciddi zəmin yaradır.

S.Fətəliyevanın sözlərinə görə, Qazax rayonunun Ermənistanın işğalı altında dörd kəndinin dinc yolla, qan tökülmədən geri qaytarılması növbəti zəfərimizdir. "Artıq Qazax istiqamətində Ermənistanla sərhədin müəyyən hissəsi tam dəqiqləşdirilib və hazırda proses davam edir. Nəzərə almaq lazımdır ki, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır. Növbəti mərhələlərdə görüləcək işlərlə bağlı isə yeni görüşlər planlaşdırılır. İlkin mərhələdə qeyri-anklav kəndlərin geri qaytarılması məsələsinin həllinin ön plana çıxarılması ölkəmizin bu məsələdəki konstruktiv mövqeyinin göstəricisidir. Əvvəlki görüşlərdə qarşı tərəfin bəzi hallarda qeyri-adekvat mövqe sərgiləməsinə baxmayaraq, ölkəmiz birmənalı yanaşmasını ortaya qoydu - Azərbaycan öz torpaqlarını güzəştə getməyəcəyini və sona qədər bu məsələnin həllinə nail olacağını bütün təmaslar zamanı bəyan etmişdi", - deyə o əlavə edib

Komitə sədrinin müavini bildirib ki, bəzi beynəlxalq dairələr, rəsmi İrəvanın havadarları Azərbaycanın guya Ermənistana hücum etməyə hazırlaşdığı ilə bağlı təbliğat aparırdılar. Tərəflərin razılığa gəlməsi ilə bu dairələrin yalan təbliğatı iflasa uğradı. Azərbaycan uzun müddət idi ki, həm dünyaya, həm də qarşı tərəfə izah edirdi ki, tərəflər arasında sülh prosesində kənar vasitəçilərə ehtiyac yoxdur. Problemləri Azərbaycan və Ermənistan birbaşa dialoq yolu ilə həll edə bilər. Sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı tərəflərin kənar vasitəçilər olmadan razılıq əldə etməsi göstərdi ki, hər iki dövlət birbaşa dialoq vasitəsilə daha yaxşı nəticələr əldə edir. Çünki prosesdə vasitəçilik etmək istəyən üçüncü qüvvələr, əslində, regionda öz maraqlarını güdürlər.

Ermənistanda revanşist qüvvələrin əldə olunmuş razılaşmanı pozmağa çalışdığını, etiraz aksiyası keçirdiklərini diqqətə çatdıran deputat əlavə edib ki, cəmiyyətdən ciddi dəstək almasa da, rəsmi İrəvan prosesi nəzarətdə saxlamalı, razılaşmanın pozulmasına imkan verməməlidir: "Sərhədlərin delimitasiya və demarkasiyası prosesində Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır. Razılaşmalara tam əməl edilməsi İrəvanın marağında olmalıdır. Çünki beynəlxalq hüququn pozulmasının hansı nəticələr doğurduğunu erməni tərəfi yaxşı anlayır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcması Azərbaycan həqiqətlərini dünyaya çatdırır

**2020-ci il yaddaşlarda Zəfər ili kimi qaldı. Çünki həmin ilin sentyabr-noyabr aylarında - 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu düşmən üzərində qələbə çalaraq 30 ilə yaxın davam edən işğala son qoydu, ərazi bütövlüyümüzü bərpa etdi.**

Prezident seçildiyi ilk gündən Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad olunmasını başlıca vəzifəsi hesab edən dövlət başçımız İlham Əliyev artıq aforizmə çevrilmiş "Nəyi, nə vaxt, necə etmək lazımdır" sözlərinin hədəfi olan Böyük Qələbəyə nail oldu. Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi verdiyi: "Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq" sözlərini qətiyyətlə yerinə yetirdi. Prezident Şuşada, Xankəndidə və Qarabağın başqa bölgələrində üçrəngli bayrağımızı dalğalandırmaqla torpaqlarımızın işğalına son qoydu, erməni separatizmini darmadağın etdi.

Hələ 2010-cu ildə dövlət başçımız məcburi köçkünlərə Qələbənin mesajlarını verəndə qətiyyətlə inanırdı ki, erməni işğalçıları məğlub ediləcək, ərazi bütövlüyümüz bərpa olunacaq. Yaşanılmış sevinc dolu tarixi günlər qərbi azərbaycanlılarda da böyük ümid yaratdı ki, mütləq zorla çıxarıldıqları ata-baba torpaqlarına qayıdacaqlar. Qərbi Azərbaycanda soydaşlarımızın bir vaxtlar yaşadıqları kəndlərin çoxu hələ də boşdur. Çünki Ermənistanın nə insan resursları, nə də iqtisadi gücü bu yaşayış məntəqələrinin bərpasına imkan vermir.

Artıq xeyli müddətdir ki, Qərbi Azərbaycan İcması Ermənistandan qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtması üçün müvafiq işlər görür. Xatırladaq ki, Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. Qərbi Azərbaycan İcmasının inzibati binasının açılış mərasimində bir qrup ziyalı ilə görüşdə qarşıdakı illərdə görüləcək işlərdən söz açan Prezident İlham Əliyev soydaşlarımızın tarixi torpaqlarına qayıtması məsələsinə də toxunmuşdur: "Buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, icmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır".

Göründüyü kimi, həllini gözləyən vəzifələr, görülməli işlər biri-birindən mühüm və vacibdir. İlk növbədə qədim yurd yerlərinin tarixi, toponimləri, Qərbi Azərbaycanda ermənilər tərəfindən dağıdılan abidələrin vəziyyəti haqqında beynəlxalq ictimaiyyətə məlumat verilməlidir. Daşnakların əzəli yurd yerlərimizdən Azərbaycanın tarixi izlərini silmələri ilə bağlı faktlar beynəlxalq təşkilatlara çatdırılmalıdır. Xarici ölkələrdəki diaspor təşkilatları məskunlaşdıqları ölkələrdə Qərbi Azərbaycan haqqında həqiqətləri təbliğ etməlidirlər. Sovet ideologiyası əsasında yazılan kitablar, dərsliklər yenilənməli, bir çox dillərə tərcümə edilməli, elektron variantları yayılmalıdır. Prezident İlham Əliyevin dediyi kimi, torpaqlarımızı qarış-qarış zəbt edən daşnakların "dənizdən-dənizə böyük Ermənistan" mənfur siyasətləri ifşa olunmalıdır.

Qərbi Azərbaycan İcması bu tarixi görüşdən ötən müddət ərzində xeyli zəruri işlər görüb. Ən başlıcası, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası hazırlayaraq ictimaiyyətə təqdim edib. Mayın 1-də isə Qərbi Azərbaycan İcmasının tərkibində fəaliyyət göstərəcək Qərbi Azərbaycan Televiziyasının binasının açılışı olub. Tədbirdə icmanın İdarə Heyətinin sədri Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış edərək bildirib ki, Qərbi Azərbaycan Televiziyası son 200 ildə mərhələlərlə öz el-obasından deportasiya edilən soydaşlarımız, Qərbi Azərbaycanda məhv edilən irsimiz barədə həqiqətlərin çatdırılmasına, o cümlədən sülh yolu ilə, təhlükəsiz və ləyaqətlə geri qayıdış uğrunda aparılan fəaliyyətə yaxından dəstək olmaqla, bütün işini bu istiqamətə kökləyib. Televiziyanın yeni istifadəyə verilən binası bu fəaliyyəti həyata keçirmək üçün bütün imkanlarla təchiz olunub.

Qərbi Azərbaycan Televiziyası həftədə 6 dəfə - 3 dəfə Azərbaycan, 3 dəfə rus dilində olmaqla 2 saat boyunca efir yayımlayacaq. Üstəlik, həftə ərzində yarım saatlıq ingilis dilində icmal da nəzərdə tutulub. İcmanın sözçüsü, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülviyyə Zülfiqar mətbuata açıqlamasında bildirib ki, televiziyanın ənənəvi verilişləri olan "Müzakirə vaxtı", xəbər buraxılışı, "İnsan hekayəsi" kimi verilişlərlə yanaşı, Ümummilli Lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı fəaliyyətinə dair "Ulu Öndər və Qərbi Azərbaycan", Prezident İlham Əliyevin Qərbi Azərbaycana dair gördüyü işlərlə bağlı "Qərbi Azərbaycana doğru", Qayıdış Konsepsiyasına dair "Qayıdış haqqımızdır", soydaşlarımızın başlarına gələn müsibətləri əks etdirən "İnsanlıq əleyhinə", o cümlədən Qərbi Azərbaycanın maddi və qeyri-maddi, mədəni irsini özündə əks etdirən "Deportasiyaya uğrayan irs", "Addım-addım Qərbi Azərbaycan", "Ədəbi İrəvan", "Qərbi Azərbaycan ləzzətləri" və sair kimi verilişlər də yayımlanacaq. Televiziyanın binasında sözügedən verilişlərin çəkilməsi üçün müvafiq studiyalar və lazımi avadanlıqlar quraşdırılıb, yaradıcı heyətin fəaliyyət göstərməsi üçün geniş şərait yaradılıb.

Televiziyanın yeni binasının açılması və burada çalışan əməkdaşlar üçün yaradılmış yüksəksəviyyəli şərait işlərin daha da rəvan getməsinə təkan verəcək, yaradıcı kollektiv üçün yeni imkanlar açacaq. Qərbi Azərbaycan İcmasının fəaliyyət dairəsi daha da genişlənəcək. Üç dildə ictimaiyyətə təqdim olunacaq verilişlər Azərbaycan həqiqətlərini dünyaya çatdıracaq. Aparılan təbliğat və təşviqat işləri doğma torpaqlara qayıdış prosesini sürətləndirəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Avropa ölkələri AP-yə seçkilərə biganəlik göstərir

## Buna səbəb öz ölkələrinin böhranlı vəziyyətidir

**Bu il iyunun 6-dan 9-dək Avropa Parlamentinə seçkilərin keçirilməsi planlaşdırılır. Bu, 1979-cu ildən bəri Avropa Parlamentinə onuncu milli seçkilər olacaq.**

Bəs, seçicilər səs verərkən ilk növbədə nə barədə düşünəcəklər? Aİ-nin gələcəyi, yaxud ölkələrinin daxili problemləri haqqında?

Avropa Paralamentindəki seçkilər Fransada 2027-ci ildə keçiriləcək prezident seçkilərinin müjdəçisi və ya "aralıq seçki" hesab edilir.

Fransada ifrat sağçı Milli Birlik Partiyasının rəhbəri, "Makronun Avropası"na son qoymağa çağıran Cordan Bardella deyib ki, əgər o, liderlər qrupunda olsa, elə həmin axşam Milli Assambleyanın buraxılmasını xahiş edəcək. Bu, təbii ki, arzudur, çünki Fransa konstitusiyasına uyğun olaraq belə bir qərarı yalnız prezident verə bilər.

Solçu "Yenilməyən Fransa " Partiyasının namizədi Jan-Lük Melanşon da hesab edir ki, 2024-cü il Avropa seçkiləri 2027-ci il prezident seçkilərinə hazırlıqdır" .

Avropa Siyasəti Mərkəzinin analitiki Erik Morisin dediyinə görə, Fransada bu, 2027-ci ildə keçiriləcək növbəti prezident seçkiləri öncəsi yeganə böyük seçkidir. Bu, milli siyahı üzrə səsvermədir, ona görə də onu milliləşdirmək istəyənlərin sayı az deyil.

1979-cu ildə ilk AP seçkilərindən bir il sonra tədqiqatçılar Karl-Haynts Rayf və German Şmitt onu "ikinci dərəcəli milli seçkilər" adlandırıblar. Az əhəmiyyət kəsb edən bu hadisə, xüsusən də prezidentlik müddətinin ortasında baş verərsə, siyasi qüvvələrə öz populyarlıqlarını milli səviyyədə dəyərləndirməyə imkan verir.

Tədqiqatçılar Avropa seçkilərini "milli" adlandırırlar, çünki onlar milli səviyyədə təşkil olunur və milli qaydalara riayət edir və namizədlər bir-biri ilə milli məsələlər ətrafında mübahisə edirlər. Həmçinin səsvermə





üsulu, seçkilərin günü və seçicilərin minimum yaşı ölkədən asılı olaraq dəyişir. Bununla belə, bir sıra araşdırmalar seçicilərin Avropa gündəminə maraq etdiyini göstərir. Morisin fikrincə, son illərin böhranları Avropa İttifaqının fəaliyyətini ön plana çıxarıb. Eyni zamanda analitikin dediyinə əsasən, Avropa təsisatlarının hərəkətləri hələ də geniş ictimaiyyətə az məlumdur.

Bu il bir çox ölkələrin diqqəti başqa bir səsverməyə yönələrkən, Avropa məsələləri arxa plana keçə bilər. Belə ki, Belçikada federal və regional seçkilər Avropa seçkiləri ilə eyni gündə - iyunun 9-da keçiriləcək. Finlandiya, Slovakiya, Litva və Rumıniyada prezident seçkiləri olub və digərlərində 2024-cü ildə keçiriləcək. Portuqaliya, Avstriya və Xorvatiyada isə seçicilər parlament üzvlərinə səs verəcəklər.

Avropa seçkiləri həm də iqtidar və ya müxalifət partiyaları üçün gələcək seçkilərə hazırlıq zamanı populyarlıqlarını yoxlamaq üçün bir fürsət ola bilər.

Ötən il İspaniyada seçkilər keçirilib. Məlumdur ki, hökumət, xüsusilə Kataloniya separatçıları ilə müttəfiqliyinə görə çoxlu suallar doğurur. Bu, həm də Pedro Sançes hökuməti üçün bir sınaqdır.

Polşada ötən ilin oktyabrında keçirilən parlament seçkiləri ifrat mühafizəkar Qanun və Ədalət Partiyasının məğlubiyyətinə və Donald Tuskun rəhbərlik etdiyi liberal Vətəndaş Koalisiyasının qələbəsinə səbəb olub. Payızda məğlub olan Qanun və Ədalət partiyası üçün bu, həm də milli səviyyədə lazımi məcraya qayıtmaq üçün bir fürsətdir.

Eyni təhlil Çexiyaya da aiddir, burada bəzi sorğular son prezident seçkilərində uduzan keçmiş baş nazir Andrej Babişin partiyasının Avropa seçkilərində lider olduğunu göstərir.

Paris Siyasi Araşdırmalar İnstitutunun fəxri professoru və "Siyasət dadı" kitabının müəllifi Paskal Perrino deyir ki, seçicilər milli, iqtisadi və sosial səbəblərə görə səs verirlər. Hazırda bu, Avropa qurumları, Avropa siyasəti və ya hətta Ukraynadakı müharibə kimi Qərb mövzularından daha çox enerji daşıyıcılarının qiymətlərinin artması və inflyasiya problemləridir.

Le Monde, Cevipof, Jan Jores Fondu və Monten İnstitutunun apardığı "Ipsos" sorğusunun nəticələrinə görə, Fransada milli problemlər Avropanın problemlərini üstələyir. Fransalı respondentlərin 53 faizi öz namizədlərini seçərkən ilk növbədə partiyaların milli məsələlərlə bağlı təkliflərini, 47 faizi isə Avropa məsələlərinə dair təkliflərini nəzərə alacaqlarını bildiriblər.

Bundan əlavə, fransalıların 52 faizi əsasən respublika prezidentinə və ya onun hökumətinə öz dəstək və ya etimadsızlığını ifadə etmək üçün səs verəcəklərini bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarında kolonializmin fəsadları ilə bağlı ATƏT DTİHB-nin direktoruna məktub ünvanlanıb



Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə BMT-nin Vyana ofisində keçirilən "Müstəmləkəçilikdən qurtuluş: assimilyasiyanın nəticələri və onun insan hüquqlarının həyata keçirilməsinə təsiri" mövzusunda konfransın iştirakçıları Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adaları xalqlarının məruz qaldıqları müstəmləkə vəziyyətindən dərin narahatlıqlarını ifadə etmək üçün ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun direktoru Matteo Mekaççiyə və ATƏT-in media azadlığı üzrə nümayəndəsi xanım Tereza Ribeyroya açıq məktub ünvanlayıblar.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları 1945-ci ildə BMT Nizamnaməsinin imzalanmasından sonra özünüidarənin beynəlxalq standartlarının BMT Baş Assambleyasının öz müqəddəratını təyinetmə və bundan irəli gələn müstəmləkəsizləşdirmə üçün tələb olunan şərtləri nəzərdən keçirməsi sayəsində inkişaf etməyə başladığını vurğulayıblar. Qeyd olunub ki, 1946-1960-cı illərdə BMT Baş Assambleyası tərəfindən müvafiq qətnamələr qəbul edilib və bu beynəlxalq prinsiplər üzrə qlobal konsensus yaranmağa başlayıb. Proses 1960-cı ildə dekolonizasiya haqqında tarixi bəyannamənin (1514 saylı Qətnamə) və onu dəstəkləyən qətnamənin (1541 saylı Qətnamə) qəbul edilməsi ilə sürətlənib. Bu proseslər müstəmləkə altında olan ölkələrin və ərazilərin müstəqilliyi uğrunda mübarizəni təşviq etdi. Lakin həmin qətnamənin qəbul edilməsindən 64 il keçsə də, Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarının xalqları hələ də yeni müstəmləkəçilik təcrübələrinə məruz qalırlar.

Kolonializmə qarşı mübarizədə Bakı Təşəbbüs Qrupunun rolunun xüsusi vurğulandığı məktubda qeyd olunub: "2023-cü ildə beynəlxalq miqyasda qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun əsas məqsədi müstəmləkəçilik və neokolonializmlə mübarizəni dəstəkləməkdir. Bu çərçivədə Bakı Təşəbbüs Qrupu Cenevrə və İstanbulu da əhatə etməklə Bakıdan Nyu Yorka qədər 10-a yaxın beynəlxalq konfrans təşkil edib. 2024-cü il aprelin 30-da Avstriyanın paytaxtı Vyanada növbəti konfransı keçirdik. Mövzu "Müstəmləkəçilikdən qurtuluş: assimilyasiyanın nəticələri və onun insan hüquqlarının həyata keçirilməsinə təsiri"dir. Yüksək qurumunuz həmin tədbirə dəvət olunub. Son zamanlar Bakı Təşəbbüs Qrupunun fəaliyyəti hökumətlərarası səviyyədə vurğulanıb. 2024-cü il aprelin 4-də Konqo Respublikasının Prezidenti cənab Deni Sassu-Nqessonun Azərbaycan Respublikasının paytaxtı Bakıya rəsmi səfəri zamanı "Azərbaycan Respublikası ilə Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bu bəyannamənin 8-ci bəndində bildirilir: "Hər iki tərəf müstəmləkəçiliyin nəticələri və onun müxtəlif təzahürləri, eləcə də neokolonial təcrübədən irəli gələn çağırışların müzakirəsi üçün əlverişli mühit yaradan Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil olunmuş dekolonizasiya və neokolonializm mövzusunda silsilə beynəlxalq konfransları diqqətə çatdırıblar".

Xüsusilə bildirilib ki, Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilən bütün beynəlxalq konfranslarda Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarında məşğulluq, mənzil təminatı sahələrində ayrı-seçkilik halları, təbii sərvətlərin istismarı barədə ətraflı məlumat verilib, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya faktları diqqətə çatdırılıb.

Həmin hallar məktubda aşağıdakı qaydada ümumiləşdirilərək təqdim olunub:

- Həmin ərazilərdə Fransa inhisarçılığının maraqları güdülərək, həddindən artıq qida asılılığına (ərzaq məhsullarının 80 faizindən çoxu Fransadandır) və həyat bahalılığına səbəb olan düşünülmüş zəif iqtisadi inkişaf strategiyası həyata keçirilir. Yoxsullaşma (Qranadada əhalinin 50 faizi yoxsulluq həddində yaşayır) və kütləvi işsizlik bu ərazilərin gələcəyini ciddi şəkildə sarsıdan hər cür neqativ hallara (zorakılıq, silah və narkotik ticarəti) gətirib çıxarıb;
- 1989-cu il (Qviana) Yerli və qəbilə xalqlarına dair (169 saylı) Konvensiya ratifikasiya edilməyib;
- Getdikcə daha çox təhdid edilən yerli dilləri arxa plana keçirən fransız mədəniyyətinin hegemonluğunun və assimilyasiya siyasətinin tərkib hissəsi kimi, yerli xalqların tarixinə, coğrafiyasına, mədəniyyətlərinə, eləcə də onların gələcəkləri ilə bağlı maraqlarına uyğun gəlməyən fransız tədris proqramları məktəblərdə tətbiq edilir;
- Torpaqların zəbt edilməsi (Fransız Qvianası torpaqlarının 90 faizi Fransa dövlətinə aiddir), sahəsi milyonlarla kvadratmetr olan Xüsusi İqtisadi Zonalara nəzarət (Fransa 11 milyon kvadratmetrlik Xüsusi İqtisadi Zona ilə dünyada ən böyük ikinci dəniz gücüdür), onilliklər ərzində yerli gənclərin Fransaya deportasiyası siyasətinin həyata keçirilməsi Qvadelupa və Martinikada ağır demoqrafik böhrana və təbii ehtiyatların talanmasına səbəb olub;
- Fransız hüquqi dövləti adı altında bütün müqavimət hərəkatlarını cinayətləşdirən və rüşvətxorları qoruyan iki səviyyəli müstəmləkə ədliyyə sistemi formalaşdırılıb (Martinika və Qvadelupada xlordekon zəhərlənməsi və torpaq istilasına qarşı mübarizə aparan gənclərin həbsi, siyasi dustaq statusu tanınmadan korsikalıları mühakimə edən və onların dustaqlıq şəraitinə qeyri-bərabər münasibət göstərən müstəsna yurisdiksiyalar yaradılıb;
- Polineziya müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına yenidən daxil edildikdən bəri "boş kreslo" siyasəti həyata keçirilir;
- Böyük Qərb dövlətləri yerli xalqlarla ən kiçik məsləhətləşmələr aparmadan Hind-Sakit okean regionunda (Polineziya, Yeni Kaledoniya), Karib dənizi-Amerika bölgəsində (Fransız Qvianası, Martinika, Qvadelupa) və Korsikada (Solenzara bazası) ərazilərdən hərbi-geostrateji bazalar kimi istifadə edir;
- Numea Sazişinə əsasən başlayan müstəmləkəsizləşdirmə prosesinə əməl edilmir, beləliklə, qeyri-qanuni referendum keçirilir və seçicilərin sayı azalır.

"Tarix və öz xalqları qarşısında məsuliyyətdən yola çıxaraq, ən son fransız müstəmləkələri olan Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarından olan təşkilatların və Bakı Təşəbbüs Qrupunun nümayəndələri sizdən Fransa hökumətinə beynəlxalq norma və təcrübələrə zidd olan bütün hərəkətləri dayandırmaqla bağlı müraciət etməyi xahiş edirlər.

Biz yerli xalqların mədəni və dini irsinin vəziyyəti haqqında məlumat xarakterli hesabat hazırlamaq üçün UNESCO-nun rəhbərliyi ilə beynəlxalq ekspertlər qrupunun yaradılmasının və dərhal müvafiq ərazilərə göndərilməsinin zəruriliyini vurğulayırıq.

Biz həmçinin 2024-cü ilin noyabrında Azərbaycan Respublikasının paytaxtı Bakıda keçiriləcək COP29-da Fransanın müstəmləkəçilik siyasətinin zərərli ekoloji təsirlərinin müzakirə edilməsinin böyük əhəmiyyətini vurğulayırıq.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının ətraf mühit, iqtisadiyyat, insan hüquqları və yerli xalqların hüquqları ilə bağlı vəziyyəti öyrənmək üçün xüsusi missiya göndərməsi üçün sizdən dəstək göstərməyinizi xahiş edirik.

Bəşəriyyətimizin qlobal istiləşmənin əsas fəsadları və onun gələcəyini təhdid edən görünməmiş təhlükələrlə üzləşdiyi bir vaxtda sizin kömək və dəstəyinizə inanır və ümid edirik ki, bu dəfə xahiş və müraciətlərimiz cavabsız qalmayacaq", - deyə açıq məktubda qeyd olunub.

# REGİONLAR

## İndi kəndlinin hər dəqiqəsi qızıldır



**İndi ilin elə fəslidir ki, kəndlinin hər dəqiqəsi qiymətlidir. İstər taxılçı olsun, istərsə də bağban, yaxud tərəvəzçi, hamı məhsul bolluğu üçün gün çıxandan batanacan işinin başındadır.**

Şabran rayonunda da belədir. Fermerlər çalışırlar ki, özlərinin də, ölkəmizin də çörək təknəsi boş qalmasın. Bunun üçün səylərini səfərbər ediblər.

Rayon üzrə 16 min 769,7 hektar sahədə taxıl becərilir. Onun 8 min 575,9 hektarı buğda, 8 min 193,8 hektarı arpadır. Hazırda taxılçılar sahələrdə mövsümlə əlaqədar görüləcək işlərin heç birini diqqətdən yayındırmır, bütün tədbirləri vaxtlı-vaxtında görməyə çalışırlar. Suvarma vaxtında aparılıb. 2871 hektar sahədə səpsuvar (səpindən sonra torpağı dərhal suvarma üsulu) həyata keçirilib. 2141 hektarda birinci, 2010 hektarda isə ikinci vegetasiya suvarması aparılıb, 5850 hektara yemləmə gübrəsi verilib. Gəmiricilərlə mübarizə də unudulmur. İndiyədək 2228,59 hektar sahədə siçanabənzər gəmiricilərə qarşı kimyəvi üsulla mübarizə aparılıb.

Rayonun kənd təsərrüfatında meyvəçiliyin də öz yeri var. Şabranın meyvə bağlarının sahəsi 3102,3 hektardır. Məlumdur ki, indi ölkəmizin hər tərəfində yeni meyvə bağları salınır. Şabranda bağların ümumi sahəsinin 80,8 hektarı yenidir. Yaxın illər həmin yeni sahələrdə bir neçə növ meyvə yetişdiriləcək. Keyfiyyətli və bərəkətli Şabran torpağında nə əksən becərmək mümkündür.

Unudulmuş kənd təsərrüfatı sahələri Prezident İlham Əliyevin təşəbbüsü ilə dirçəldiləndə, o cümlədən üzümçülüyün keçmiş şöhrətinin qaytarılmasına başlananda şabranlılar da bu işdə geridə qalmamağı qərara aldılar. Bunun sayəsində hazırda 415,9 hektar sahədə üzüm bağları becərilir. Onun 1,50 hektarını yeni salınmış üzüm bağları təşkil edir. İndiyəcən bağbanlar 3224,9 hektarda budama işləri aparıb, 3154,8 hektarda cərgəarası şum işləri görüb, 2874 hektarda isə xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçiriblər.

Bu il şabranlılar tərəvəz əkdikləri 73,2 hektar sahədən də bol məhsul gözləyirlər. Ümumiyyətlə, kəndli və fermerlərin istəyi budur ki, həm rayon əhalisini yerli məhsullarla təmin etsinlər, həm də bərəkətli Şabran torpağının ləziz nemətlərini paytaxtın və digər bölgələrin sakinlərinin süfrəsinə göndərsinlər. Ötən il keçirilən bütün yarmarkalarda Şabran kəndliləri fəal iştirak ediblər. Bu il də istisna deyil.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağstafada "Qərbi Azərbaycan: Gənclərin gözü ilə" gündəmə gəldi

**Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsində canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Dövlət himni səsləndirilmişdir.**



Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, Qərbi Azərbaycan İcmasının aparat rəhbəri Qalib Qasımov, icmanın Qazax-Ağstafa üzrə nümayəndəsi Əbülfəz Qafarov, Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbin direktoru Vüsal Həsənov, əslən Qərbi Azərbaycandan olan, Qarahəsənli kənd tam orta məktəbin müəllimi Elşad Mirzəyev və başqaları mövzuya dair məruzələrlə çıxış etmişlər.

Məruzələrdə icmanın təşkilatlanma işlərinin həyata keçirilməsi, Qayıdış Konsepsiyası müddəalarının izahı, Qərbi Azərbaycanın tarixi, coğrafiyası, icmanın fəaliyyəti barədə ətraflı məlumat verilərək qeyd olunmuşdur ki, Prezident İlham Əliyevin tövsiyələri əsasında qısa zaman ərzində icmanın Qayıdış Konsepsiyası hazırlanaraq qəbul olunmuş, soydaşlarımızın öz doğma torpaqlarına geri qayıdışı uğrunda fəaliyyətə start verilmişdir. Diqqətə çatdırılmışdır ki, şəhər, rayon və kənd icmalarının Qərbi Azərbaycan İcması ətrafında birləşməsi ilə icmanın yenidən təşkilatlanması prosesi daha da intensiv hal almışdır.

## Şəmkirdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində rəsm müsabiqəsi keçirilib

**Şəmkirdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində rəsm müsabiqəsi keçirilmişdir. İstiqlal Parkında təşkil olunan yekun tədbirində sagirdlər çəkdikləri rəsmləri ictimaiyyətə təqdim etmişlər.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizdə ətraf mühitin qorunmasında, iqlim dəyişmələrinin mənfi təzahürlərinin qarşısının alınmasında xüsusi önəm daşıyır. Bu gün beynəlxalq ictimaiyyət Azərbaycanın bu sahədə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirir. Məhz bu səbəbdən aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iştirakçı ölkələrin qərarı ilə Azərbaycanda keçiriləcəkdir.

Sonda müsabiqə qaliblərinə hədiyyələr və diplomlar təqdim edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Horovlu kəndində birinci mərhələdə 334 ev tikilir

**İşğaldan azad olunmuş Cəbrayılın Horovlu kəndinin təməli keçən il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.**

Kənddə ilkin olaraq 334 ev tikilir. Birinci mərhələdə 1395 nəfərin, yaxın gələcəkdə isə 3470 nəfərin (867 ailənin) burada məskunlaşması nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, mövcud məskunlaşma ərazisi 93,74 hektar olsa da, perspektivlər də nəzərə alınaraq kənd ərazisi 246,1 hektar əraziyədək genişləndiriləcək.

Sakinlər üçün inşa edilən evlər iki, üç, dörd və beşotaqlı olacaq. Evlər amfiteatr üslubunda, pilləvari yerləşdirilib, bir evin həyətindən digər evin həyəti görünmür.

Həmçinin kənddə 624 yerlik məktəb binasının, 220 yerlik uşaq bağçasının, inzibati binanın, klub icma mərkəzinin və çoxfunksiyalı binanın, bazar kompleksinin, tibb məntəqəsinin, mərasim zalı və qonaq evinin də tikintisi planlaşdırılıb.

## "Şəhərdən kəndə" layihəsi çərçivəsində Lənkəran və Astarada fermer təsərrüfatlarına dəstək göstərilib

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə həyata keçirilən "Şəhərdən kəndə" layihəsi çərçivəsində regionlarda fəaliyyət göstərən aqroturizm təsərrüfatlarına dəstək tədbirləri davam edir. Növbəti dəfə Lənkəran və Astara rayonlarında aqroturizm təsərrüfatlarının yaradılması istiqamətində işlər görülüb.**

Lənkəran rayonunun Osaküçə kəndində Mahir Həsənova məxsus "Dağ məskəni" aqroturizm təsərrüfatının yaradılması istiqamətində dəstək göstərilib. Layihə çərçivəsində görülmüş işlərlə tanış olmaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin sədri Aqil Quliyev, Lənkəran Şəhər İcra Hakimiyyətinin, Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin və Lənkəran Regional Mədəniyyət İdarəsinin nümayəndələri təsərrüfatı ziyarət ediblər.

1 hektar ərazisi olan təsərrüfatda sitrus meyvəçiliyi və tərəvəzçiliklə məşğul olunur, iri və xırdabuynuzlu mal-qara, at, toyuq-cücə, qaz, ördək saxlanılır. Dəstək tədbirləri nəticəsində təsərrüfatda söhbətgah tikilib, 8 nəfərlik masa dəsti, oturacaqlar, soyuducu, dolab, turistlərə xidmət göstərilməsi üçün tələb olunan mətbəx ləvazimatları verilib.

Astara rayonunun Motlayataq kəndində yerləşən Firuz Teymurova məxsus "Firuzun balı" təsərrüfatına da layihə çərçivəsində dəstək göstərilib. Ərazisi 2 hektar olan təsərrüfatda arıçılıq, bağçılıq, maldarlıqla məşğul olunur. Dəstək tədbirləri nəticəsində təsərrüfatda təndir və sanitar qovşaq bərpa edilib, daş pilləkən tikilib, yelləncəklər, fotostend və rəngli lampalar quraşdırılıb.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Fermerlərimiz dünya təcrübəsini öyrənirlər

### Bu işdə köməyə Aqrar Biznes festivalları gəlir

**Hazırda dünyada elmin nəticələrinin istehsalata tətbiqi geniş yayılıb. Xüsusilə innovasiyalardan və süni intellektdən istifadəyə həvəslə meydan verilir. Qlobal miqyasda baş verən bu prosesdən yararlanmaq üçün ölkəmizdə də bir sıra layihələrə start verilib. Bu layihələrdən biri sözügedən sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Əsas partnyorlarımız Türkiyə, Pakistan və İsrail olsa da, son dövrlər əməkdaşlığın coğrafiyası genişlənir.**

Azərbaycan xüsusilə qardaş Türkiyə ilə aqrar sahədə əməkdaşlığa üstünlük verir. Türkiyə-Azərbaycan Kənd Təsərrüfatı İcra Komitəsinin 11-ci iclasından sonra mövcud əlaqələrin daha da genişlənməsi istiqamətində perspektiv sahələr müəyyənləşdirilib. Tərəflər iki ölkə arasında aqrar təhsil, mütəxəssis hazırlığı, aqrar tədqiqat və inkişaf, torpaqların konsolidasiyası, baytarlıq, heyvan xəstəliklərinə qarşı peyvənd vasitələri ilə təchizat, həmçinin digər sahələrdə əməkdaşlığı genişləndirmək barədə razılığa gəliblər.

Məlumdur ki, Azərbaycanda aqrar sektor üzrə qlobal miqyasda baş verən yeniliklərlə yerli fermerləri tanış etmək və onlara dəstək olmaq üçün Aqrar Biznes festivalları keçirilir. Sonuncu festival Quba rayonunda təşkil edilmişdir. Festivalın açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahənin ölkə iqtisadiyyatının əsas strateji sahələrindən biri olduğunu vurğulayaraq bildirmişdir ki, dünya iqtisadiyyatın qloballaşması şəraitində Azərbaycanda aqrar bölmənin sabitliyi və dünya kənd təsərrüfatı bazarına inteqrasiyası, ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ilk növbədə səmərəli innovasiyaların tətbiqi ilə gerçəkləşə bilər. Ölkəmizdə də kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi ilə bağlı artıq çoxsaylı təcrübələr qazanılıb: "Nazirliyin təşəbbüsü ilə mütəmadi olaraq bölgələrdə təşkil edilən Aqrar Biznes festivalları aqrar innovasiyalar və bu sahədə mövcud yeniliklərlə bağlı məlumatlandırmanı həyata keçirir. Kənd təsərrüfatı fəaliyyətinin maraqlı tərəfləri olan təchizatçı şirkətlərlə fermerləri bir araya gətirməyə, ikitərəfli əlaqələrin qurulmasına imkan verən festivallar zamanı aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün hər kəsə şərait yaradılır. Bu festivallar təkcə fermerlərin ehtiyacları üçün nəzərdə tutulmuş texnoloji vasitələrin nümayişi məqsədi daşımır, burada müxtəlif kənd təsərrüfatı istehsalı vasitələrinə əlçatanlıq təmin edilməklə yanaşı, maliyyə qurumlarının iştirakı ilə dövlət dəstəyi mexanizmləri və sahənin prioritet istiqamətləri barədə əlavə biliklər əldə edilir".

Onu da xatırladaq ki, 2023-cü ilin sentyabrında Quba şəhəri Türk Dövlətləri Təşkilatının kənd təsərrüfatı nazirlərinin paytaxtı elan edilib. Bu da təsadüfi deyil. Çünki Quba ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Festivallarda kənd təsərrüfatı məhsullarının nümayişi və satışı ilə yanaşı, yaxşı qabaqcıl kənd təsərrüfatı təcrübələri barədə təlimlər keçirilir, kredit yarmarkaları təşkil olunur. Yarmarkada bank və bank olmayan kredit təşkilatları və digər maliyyə qurumları fermerlərə güzəştli kreditlər təklif edir, kreditlərlə bağlı yaranan sualları cavablandırırlar.

Qeyd edək ki, aqrar sahənin innovativ əsaslarla inkişaf etdirilməsi, aqrar innovasiyaların təbliği və təşviqi məqsədilə ötən il 14 rayonda bu cür festivallar keçirilib və həmin tədbirlərdə 12 minə yaxın fermer iştirak edib. Cari ildə isə 30 rayonda Aqrar Biznes festivalları, 10 rayonda Toxum Sərgi Satış yarmarkalarının keçirilməsi nəzərdə tutulur. Bu ilin ilk rübündə Salyan, Yevlax, Masallı və Qubada keçirilmiş Aqrar Biznes festivallarında 2663 fermer iştirak edib. 23 rayon və şəhərdən gəlmiş fermerlərin qatıldığı tədbirlər çərçivəsində 13 şirkət və fərdi sahibkar tərəfindən 3,1 milyon manatlıq satış həyata keçirilib. İştirakçılar əsasən traktorlar, konteyner dayışan qoşqular, meyvə yığan platformalar, tunel tipli ön soyutma sistemləri, hava ilə soyutma avadanlıqları, fındıq toplayan aqreqatlar, bağ ləvazimatları, toxum, ting, arıçılıq məhsulları, qurudulmuş meyvə alıblar.

Festivallarda fermerlər üçün 10 təlim də təşkil olunub. Aqrar Təlim Mərkəzi, elmi-tədqiqat institutları və özəl şirkətlərin mütəxəssislərinin iştirakı ilə keçirilən təlimlərin mövzuları fermerlərin ehtiyacları nəzərə alınaraq müəyyənləşdirilib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## 2024-cü il barama mövsümünə start verilib

### Bu il 40 rayonda yaş barama istehsal ediləcək

**Azərbaycanda 2024-cü il barama mövsümünə start verilib. Bu gün Qax Damazlıq İpəkçilik Stansiyasında aran və dağətəyi zonalarda yeləşən 19 baramaçılıq rayonundan olan kümçülərə tut ipəkqurdu toxumunun paylanılması həyata keçirilib.**



Tədbirdə kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri, Qax Rayon İcra Hakimiyyətinin nümayəndələri, Dövlət Aqrar İnkişaf mərkəzlərinin direktorları, 19 rayondan gəlmiş kümçülər, media təmsilçiləri iştirak ediblər.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov bildirib ki, Azərbaycanda qədim ənənələrə malik, tarix və mədəniyyətimizin bir parçası olan ipəkçiliyin bərpasının kənd əhalisinin rifah halının yaxşılaşdırılmasında və məşğulluğunun təmin olunmasında sosial-iqtisadi məsələ kimi xüsusi əhəmiyyətini nəzərə alaraq, barama istehsalının dəstəklənməsi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən cari mövsümdə baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülərin müəyyənləşdirilməsi və tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına ölkədə barama istehsalının artımına nail olmaq hədəf kimi müəyyən edilib.

Tədbirdə qeyd olunub ki, nazirlik tərəfindən rayonlarda fəaliyyət göstərən DAİM-lərin məlumatları əsasında qabaqcıl barama istehsalçılarının siyahısı, onlara məxsus kümxanaların vəziyyəti barədə məlumatlar toplanılaraq təhlil edilib və müvafiq tədbirlər planı hazırlanıb. Tədbirlər planına uyğun olaraq, mövsümün əvvəlindən kümxanaların aqrozootexniki tələblərə uyğun hazırlanması, ipəkqurduların düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə nazirliyin mütəxəssisləri tərəfindən bütün baramaçılıq rayonlarının məhsul istehsalçıları üçün maarifləndirici təlimlər təşkil edilib, kümxanalarda xəstəlik və zərərvericilərə qarşı qabaqlayıcı dezinfeksiya işləri aparılıb və kümçülərə yerində məsləhətlər verilib.

Rayonlar üzrə barama istehsalçılarının sayı, yem ehtiyatı, mövcud kümxanaların sahəsi və vəziyyəti nəzərə alınmaqla cari ildə istehsal olunacaq yaş baramanın həcminə uyğun olaraq, aprelin 20-də 9000 qutu ipəkqurdu toxumu Qax Rayon Damazlıq İpəkçilik Stansiyasında, həmçinin Zərdab, Bərdə, Ağsu, Zaqatala rayonlarında yerləşən baramaqurutma məntəqələrində inkubasiyaya qoyulub. Tut ipəkqurdularının bölgüsünə dair məlumatlar baramaçılıq rayonlarının DAİM-lərinə göndərilib, rayonun kəndləri üzrə barama istehsalçılarının seçilməsi və siyahısının dəqiqləşdirilməsi, kümxanaların yaradılmasında uyğun tikililərdən istifadə edilməsi və onların aqrozootexniki tələblərə uyğun hazırlanması ilə bağlı tövsiyələr verilib. İnkubasiya nəticəsində əldə edilmiş ipəkqurduların təbii-iqlim şəraitinə uyğun olaraq, iki mərhələdə 40 rayonun kümçülərinə paylanılmasının qrafiki tərtib edilib və məlumat üçün əvvəlcədən Qax Damazlıq İpəkçilik Stansiyasına, baramaqurutma məntəqələrinə və DAİM-lərə təqdim edilib. Tədbirdə Qax Rayon Damazlıq İpəkçilik Stansiyasında təxminən 3250 qutu ipəkqurdu toxumlarının aran və dağətəyi zonalarda yeləşən 19 baramaçılıq rayonlarına paylanılması prosesi həyata keçirilib.

Qeyd edək ki, barama istehsalının təşkilinin sınaqdan keçirilməsi məqsədilə cari ildə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasına 30 qutu ipəkqurdu toxumu ayrılıb, bu toxumların inkubasiyasının həyata keçirilməsinə metodiki köməklik göstərilməsi üçün nazirlik tərəfindən Naxçıvan Muxtar Respublikasına mütəxəssis ezam olunub.

*"Azərbaycan"*

## Mayın 4-5-də "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil ediləcək

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 4-5 may tarixlərində Bakıda "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Yarmarkada ümumilikdə 20-yə qədər regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 90-a qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.**

Nərimanov rayonu Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı) ünvanında fəaliyyət göstərəcək yarmarkada məhsullar birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq. Məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Vətəndaşlar satışa çıxarılan istənilən məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün səyyar qida laboratoriyasının xidmətlərindən faydalana bilərlər.

Yarmarkanın keçirilməsində əsas məqsəd təsərrüfat sahibləri üçün alternativ satış kanalı yaratmaq, həmçinin şəhər sakinlərini yerli və təbii kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.








# Gənclik






**Gənclər paytaxtı 2024**




# Dünya gəncləri Şuşada bir araya gələcəklər

**"Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".**

2021-ci ilin yanvarında Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində hərbçilərlə görüşdə belə dedi. O, Şuşa əməliyyatının aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacağına əmin olduğunu da bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi, çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir: "Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır".

2020-ci ilin payızında xalqımızın zəfər günləri ard-arda gəlmişdi. Həmin il sentyabrın 27-də Qəhrəman Azərbaycan Ordusu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Qarabağda genişmiqyaslı əks-hücuma başladı. İkinci Qarabağ müharibəsində aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik noyabrın 9-dək işğalçılardan azad edildi.

O zaman otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış ərazilərimizin hər qarışının düşməndən geri alınması xalqımız üçün misli-bərabəri olmayan sevincə dönür, əsl bayram kimi qarşılanırdı. Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı, Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi isə bu sevincin zirvəsi oldu. Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində dedi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" Həmin gün Azərbaycan tarixinə şanlı bir gün kimi əbədi yazıldı. Şuşa şəhərinin işğaldan azad edildiyi gün - noyabrın 8-i Zəfər Günü elan olundu.

O möhtəşəm qalibiyyəti xalqımıza bəxş edən, sıldırım qayaları dırmaşaraq işğalçı Ermənistan silahlı qüvvələrinin bölmələrinə ağır zərbələr endirən qəhrəmanlarımızın əksəriyyəti vətənpərvər ruhda böyüyüb tərbiyə almış gənclər idi. Onlar otuz ilə yaxın ölkəsinin əzəli torpaqlarını işğalda saxlamış düşmən döyüşçülərini müasir silahların deyil, qəlblərindəki vətən sevgisinin gücü ilə məğlub etdilər. Azərbaycanın gənc qəhrəmanları bütün dünyadakı həmyaşıdları üçün igidlik, vətənsevərlik nümunəsinə çevrildilər.

Azərbaycanın mədəniyyət paytaxtı azadlığına qovuşduqdan sonra bir-birindən maraqlı və əhəmiyyətli beynəlxalq tədbirlərin keçirildiyi ünvan oldu. Bu il Şuşa şəhərinin tarixində ən əlamətdar illərdən biridir. Şuşa 2024-cü il də yalnız ənənəvi tədbirlərə evsahibliyi etməyəcək.

Ötən il noyabrın 10-da İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilib. Sözügedən iclasda İƏT Gənclər Forumunun həyata keçirdiyi "Gənclər paytaxtı 2024" beynəlxalq proqramının seçim komissiyasının üzvləri bu qərarın lehinə yekdilliklə səs veriblər.

Prezident İlham Əliyev aprelin 17-də "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı.

İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtında - Şuşada düzənlənəcək tədbirlərə qatılmaq üçün müxtəlif ölkələrdən gənclər gələcək. Layihənin əsas məqsədi dünya gənclərini bir araya gətirməkdir. Şuşanın gənc qonaqları bu tarixi şəhərin azad olunmasında misilsiz hünər göstərmiş həmyaşıdları barədə geniş məlumatlar əldə edəcəklər.

Qeyd edək ki, bu il Şuşa islam dünyasının həm gənclər, həm də mədəniyyət paytaxtıdır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Yurdu yaşadan qəhrəmanlar**

# "Vətənin şərəfini qoruya biliriksə, biz varıq"

**Qəsbkar ermənilərin torpaqlarımızı işğal altında saxlaması, şəhərlərimizi xaraba, yurd yerlərimizi viran qoyması, təbii sərvətlərimizi talaması illər idi ki, insanlarımızı qisasa səsləyirdi. Doğulan körpələr dünyaya Qarabağ dərdi ilə gəlirdi. Analarımız körpələrinə şirin nağıllar əvəzinə qorxunc Xocalı qətliamı haqqında danışırdılar… Cənnət diyarımız Qarabağ erməni vandalizminin törətdiyi vəhşiliklər nəticəsində dünyanın ən dəhşətli fəlakət zonasına dönmüşdü…**



Samir Qarabağdan uzaq, qədim Bərgüşad kəndində doğulub dünyaya gəlsə də, ürəyi Qarabağ həsrəti ilə döyünür, düşüncəsində torpaqlarımızın azad olunması kimi müqəddəs hisslərlə yaşayırdı.

Bu gün Bərgüşadda elə bir nəsil olmaz ki, yetişdirdiyi oğullardan Qarabağ döyüşlərində şəhid verməmiş olsun…

Samir ailədə iki bacıdan sonra dünyaya gələn tək oğlan idi. İki bacının əziz xələfi idi. Bacıları onu göz bəbəkləri kimi qoruyur, az qala ürəklərinin içinə qoyub orada bəsləmək istəyirdilər.

Samir Qəfərli 1 noyabr 1994-cü ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olub. 2012-ci ildə orta məktəbi əla qiymətlərlə bitirən Samir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya fakültəsinə qəbul olunub. Müəyyən səbəblərdən bir müddət təhsil aldığı universitetdən ayrılmaq məcburiyyətində qalıb. 2016-cı ildə təhsilini yenidən davam etdirmək üçün universitetə qayıdan Samir 2019-cu ildə oranı uğurla başa vurub. Təhsil aldığı müddətdə Samir Qəfərli Xəzər TV-də yayımlanan "Ata ocağı" serialında aktyor kimi ilk debütünü edib. 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılıb.

27 sentyabr 2020-ci ildə erməni qəsbkarlarının növbəti təcavüzü nəticəsində başlayan Vətən müharibəsi zamanı artıq Samir Qəfərli düşmənlə üzbəüz səngərdə duran igidlərimizin ön cərgəsində səf tutanların sırasında idi. Sinəsi düşmənə qarşı qəzəb, torpaqlarımızın azad olunma həsrəti ilə çırpınan Samir sonuncu dəfə ailəsi ilə 15 oktyabrda əlaqə saxlayıb bacısı ilə danışır. 30 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. 31 oktyabr 2020-ci ildə doğulduğu doğma Bərgüşad kəndində böyük izdihamla canından çox sevdiyi torpağa tapşırılır.

Böyük bacısı Aysel qardaşı ilə son telefon danışıqlarını göz yaşı içində xatırlayır: "Oktyabrın 15-i axşamüstü telefonuma zəng gəldi. Samir idi. Səsindən, danışığından hiss etdim ki, sevinci yerə-göyə sığmır. "Aysel, Cəbrayıldan zəng edirəm" dedi. Ordumuz sürətlə irəliləyir. Cəbrayıl, Kəlbəcər, Hadrut əlimizdədir. Üzü Qubadlıya sarı gedirik. İnşallah, tezliklə torpaqlarımızı düşməndən azad edəcəyik. Qardaşın bir qəhrəman kimi qayıdar evimizə, sən də sevinərsən. Qardaşınla bir ömür fəxr edəcəksən" dedi. Samirin ən böyük arzusu idi ki, evlənsin, qızı olsa, anamızın adını ona qoysun. Deyirdi ki, qızım olsa, onu qolumun üstündə böyüdəcəyəm. Anamı yaşada bilmədik, barı adını yaşadaq..."

Vətənin azadlığı, Qarabağın erməni qəsbkarlarından xilas edilməsi uğrunda qanlı döyüşlərə qatılan, düşmənə kini, nifrəti ilə silahlanan cəsur döyüşçü Füzuli, Cəbrayıl, Qubadlının, Laçının uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak edir. Samirin bir şüarı var idi: "Vətənin şərəfini qoruya biliriksə, biz varıq. Onda yaşamağa dəyər". Samir Tanrının ona verdiyi 26 illik bir ömrü şərəflə yaşayanlardan oldu. Oktyabrın 30-da düşmən gülləsinə tuş gələn igidimizin həyatı yarımçıq kəsilsə də, ömrünü vətənin ömrünə calayanlardan oldu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Samir Qəfərli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

**İstedadlar**

# Təbib rəssam

**Təsviri sənətin bəlkə də ən maraqlı sahələrindən biri rəngkarlıq və ya boyakarlıq adlanır. Haqqında bəhs etdiyimiz qəhrəmanımız məhz təsviri sənətin rəngkarlıq sahəsində fəaliyyət göstərir.**





Onun bir sıra tabloları var ki, onlara tamaşa edəndə rəssamın nə dərəcədə həyatı sevdiyini, təbiətin vurğunu olduğunu, özünün daxili dünyasını, nikbin əhval-ruhiyyəsini rənglərlə təcəssüm etmək qabiliyyətinə malik olduğunu duyursan. Bu tablolara tamaşa edərkən insanda suallar yaranır: bunu başa gətirən sənətkar harada rəssamlıq təhsili alıb, müəllimi kim olub?

Aytən Canəli qızı Qocayeva Bakı şəhərində dünyaya göz açıb. Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən İlqar Əliyev adına 96 saylı orta məktəbdə oxuyub. Hələ orta məktəb yaşlarından onda rəssamlığa sonsuz sevgi yaranıb. Lakin o, ali təhsilini tibb sahəsində davam etdirməyə qərar verib. Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə işi kafedrasında təhsil almasına baxmayaraq, A.Qocayeva ali məktəb illərində də rəssamlıqla mütəmadi məşğul olub. Beləliklə, Aytən Qocayeva Respublika İncəsənət Gimnaziyasında tanınmış rəssam Əsgər Əsgərovdan bu sənətin incəliklərini öyrənib. O, bu gün də müəllimi - 2020-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmiş Leyla Rəşidovadan rəssamlığın sirlərini öyrənməkdədir.

2012-ci ildə Tibb Universitetində təşkil olunan "Təbib rəssam" adlı sərgidə öz yaradıcılıq nümunələri ilə iştirak edən Aytən Qocayeva 23 nəfər iştirakçı arasında birinci yerə layiq görülərək, diplomla mükafatlandırılıb. 2012-ci ildə Tibb Universitetini bitirib, Milli Onkologiya Mərkəzində rezidentura təhsili alıb. 2020-2022-ci illərdə Milli Onkologiya Mərkəzində həkim-onkoloq işləyən Aytən Qocayeva 2022-ci ildən Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti Hərbi-Tibb Baş İdarəsinin Hərbi Hospitalında işləyir.

Öyrəndik ki, Aytən Qocayeva peşəkar həkimdir. İnsanların sağlamlığının keşiyində dayanır. Lakin o, insanların cismani sağlamlığı ilə bərabər, həm də mənəvi, ruhi sağlamlığının da qayğısına qalmağı düşünür. Bununla əlaqədar olaraq mütəmadi rəssamlıqla məşğul olur, ərsəyə gətirdiyi sənət tabloları ilə bunu sübut edir. Aytən Qocayevanın sənət nümunələrinə baxanda, onları seyr edəndə tamaşaçıda xoş duyğular yaranır. Rəssamın tabloları insana müsbət impuls verir. Aytən Qocayeva yaradıcılığında daha çox ülviliyə, mənəvi saflığa, ruhi sakitliyə, lirik hisslərə köklənib. Çalışır ki, onun təxəyyülündən, yaradıcı rəssam müşahidələrindən əldə etdiyi bədii görüntüləri rənglərin dili ilə kətan üzərində canlandırıb başqalarına da göstərə bilsin. Deyə bilərik ki, rəssam öz istəyinə nail ola bilib.

Aytən Qocayevanın bədii yaradıcılıq nümunələri güclü estetik təsir qüvvəsinə malikdir. Kətanda canlandırılmış məkan, təbiət mənzərələri - dağ, meşə, dəniz, ağac, körpü, ev, qayıq təsvirləri öz natural keyfiyyətlərini qoruyub saxlamaqla yanaşı, həm də rəssamın fərdi görüm-duyum, yaradıcı təxəyyülündən süzülərək sanki ayrı biçimdə, kətanda fırça ilə ecazkar rənglərin ahəngi ilə "sığallana-sığallana" yaradılıb. Bu baxımdan rəssam yaradıcı daxili məni ilə özünün potensialını göstərməyə, təcəssüm etməyə çalışır. Aytən Qocayeva həm də diqqəti cəlb edən natürmortlar müəllifidir. Rəssamın yaratmış olduğu natürmort nümunələrində Azərbaycan təbiətinin yetirdiyi nemətlər - nar, heyva, alma, əlvan güllərin təsviri şamdan və ya qədim xalça fonunda incə zövqlə öz orjinal bədii həllini tapıb.

2023-cü ildə Muzey Mərkəzinin sərgi qalereyasında Aytən Qocayevanın yaradıcılıq dünyasını əks etdirən sənət nümunələrindən ibarət "İkinci məkan" adlı fərdi sərgisi təşkil olunub. Bu rəssam üçün yaradıcılıq hesabatı idi. Gənc istedadlı təbib rəssam Aytən Qocayeva bu yaradıcılıq imtahanından müvəffəqiyyətlə çıxıb.

*Əsəd QULİYEV,*
*sənətşünas*

# ADA Universitetində Karyera Hazırlığı Həftəsinin bağlanış mərasimi olub

**ADA Universitetində Karyera Hazırlığı Həftəsinin bağlanış mərasimi keçirilib.**




ABB-nin tərəfdaşlığı və ADA Universiteti Fondunun dəstəyilə keçirilən Karyera Hazırlığı Həftəsinin məqsədi tələbələri ölkəmizin əmək bazarındakı karyera imkanları ilə tanış etmək olub.

Karyera Hazırlığı Həftəsində iştirak edəcək tələbələri müəyyənləşdirmək üçün ADA Universitetinin Karyera xidmətləri şöbəsinin təşəbbüsü ilə 500-dən çox müsahibədən ibarət seçim mərhələsi həyata keçirilib. Tələbələr akademik göstəriciləri və müsahibə nəticələrinə əsasən, sənaye ekspertləri tərəfindən təşkil olunacaq təlim və seminarlarda iştirak imkanı əldə ediblər.

# Xarici universitetlərin əməkdaşları BMU-da olublar

**"Erasmus+ KA1" mübadilə proqramı çərçivəsində İspaniyanın Granada Universiteti və Rumıniyanın Babeş-Bolyai Universitetinin əməkdaşları Bakı Mühəndislik Universitetində (BMU) olublar.**



BMU-dan bildirilib ki, qonaqlar Mühəndislik, eləcə də Pedaqoji fakültənin müəllim və tələbələri ilə görüşüblər.

Granada Universitetinin nümayəndəsi Antonio Ruiz Moya Kompüter və informasiya texnologiyası kafedrasının tələbələri, Babeş-Bolyai Universitetindən Diana Felicia Panait isə Biologiya müəllimliyi kafedrasının tələbələri üçün ixtisasları ilə əlaqəli mövzularla bağlı geniş təqdimatlarla çıxış ediblər.

Qonaqlar həmçinin BMU-nun kampusu, Texnopark və laboratoriyaları ilə yaxından tanış olublar.

Mədəni mübadilə, akademik zənginləşmə və beynəlxalq əlaqələri gücləndirmək məqsədi daşıyan səfər bir həftə davam edib.

**Sağlam nəsil, sağlam gələcək**

# "Gücümə inanıram, hazırlığıma güvənirəm"

**Son illər gənclərimizin idmana marağı, həvəsi getdikcə artmaqdadır. Onlar ölkəmizin idman şərəfini iştirakçısı olduqları bütün yarış və birinciliklərdə layiqincə qoruyurlar. Üçrəngli bayrağımızı ən uca zirvələrdə dağlalandırırlar. Təbiidir ki, bu da dövlətimizin uğurla həyata keçirdiyi gənclər siyasətinin, idmana göstərilən diqqət və qayğının nəticəsidir.**




İdmana böyük maraq göstərən gənclərimizdən biri də Emil Səfərovdur. Hələ kiçik yaşlarından onun qəlbində cüdoya sevgi yaranıb. Bu həvəs və sevgi onu idman zallarına, məşq meydançalarına aparıb çıxarıb. Yaşının az olmasına baxmayaraq, bu günə qədər iştirak etdiyi yarışlarda xeyli uğurlar da qazanıb.

İdmanı həyatının mənası hesab edən Emil Qorxmaz oğlu Səfərov 19 iyun 2007-ci ildə Sumqayıt şəhərində anadan olub. Onun valideynləri 1993-cü ildə erməni işğalı zamanı Cəbrayıl rayonundan məcburi köçkün düşüblər. 2013-cü ildə 36 nömrəli tam orta məktəbin 1-ci sinfində oxumağa başlayıb. 4-cü sinfi bu təhsil ocağında bitirdikdən sonra Vaqif İbrahim adına 35 nömrəli tam orta məktəbdə oxuyub. Hazırda təhsilini həmin məktəbin 11-ci sinfində uğurla davam etdirir. İdmanla məşğul olmaqla yanaşı, dərslərini də yaxşı oxuyur, ali məktəbə qəbul olmaq arzusu ilə çalışır. "İdmanla məşğul olmağa 9 yaşımdan - 2016-cı ildən başlamışam", - deyə Emil bizimlə söhbətə başladı: "Cüdoçu olmaq çoxdankı arzum idi. İstəyimə çatmaq üçün məşqçilər Xalıqverdi Gülüşova və Elnur Əhmədova müraciət etdim. Onlar müraciətimi hörmətlə qarşıladılar, dəyərli məsləhətlər verdilər. Beləcə, ilk məşqlərim başladı. Hər işin başlanğıcı bir az çətin olur. Amma sonra yavaş-yavaş hər şey öz axarına düşür. İlk məşqlərdən sonra cüdoya olan maraq və həvəsim daha da artdı. Bir müddətdən sonra yarışlarda iştirak etdim. Qarşılaşmalarda uğurlar qazandım. İlk böyük uğurum 2019-cu ildə oldu. Həmin il iyunun 8-də yeniyetmələr arasında cüdo üzrə Sumqayıt birinciliyinə 27 kq çəki dərəcəsində qatılmışdım. Hazırlığım yüksək olduğuna görə məşqçilərim də uğur qazanacağıma ümid edirdilər. Gərgin mübarizə şəraitində keçən yarışda onların ümidlərini doğruldaraq gümüş medal qazandım. Bu, mənim yarışlarda əldə etdiyim ilk uğur oldu. 2019-cu ilin oktyabr ayında Sumqayıt birinciliyində 2-ci yerə çıxdım. Həmin il Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə bürünc medal qazandım".

Bundan sonra gənc cüdoçunun idmanda uğurları başlayıb. Emil 2022-ci il oktyabrın 30-da yeniyetmələr arasında Sumqayıt şəhər birinciliyində 46 kq çəki dərəcəsində yarışaraq 1-ci pilləyə yüksəlib. Həmin il dekabrın 20-də yeniyetmələr arasında keçirilən Sumqayıt birinciliyində 1-ci yerə çıxaraq Azərbaycan birinciliyində iştirak etmək hüququ qazanıb. 2023-cü il yanvarın 24-də U-18 yeniyetmələr arasında keçirilən yarışda uğurla çıxış edərək gümüş medal qazanıb. Belə yüksək göstəticisinə görə milli komandanın tərkibinə qatılıb. 2023-cü il noyabrın 11-də yeniyetmələr arasında keçirilən Avropa Kubokunda 50 kq çəki dərəcəsində çıxış edən Emil Səfərov gümüş medala sahib çıxıb. Həmin il dekabrın 23-də U-18 yeniyetmələr arasında Sumqayıt şəhər birinciliyində isə daha yaxşı nəticə göstərərək 1-ci yeri tutub. 2024-cü il aprelin 1-də U-18 yeniyetmələr arasında ACF Kubokunda 55 kq çəki dərəcəsində bürünc medal qazanması ilə Emil Səfərov Avropa Kubokunda iştirak etmək hüququ əldə edib.

Gənc idmançı söhbətinin sonunda dedi ki, hədəfim qarşıdakı Avropa Kubokunda daha yaxşı nəticələr göstərərək qızıl medal qazanmaqdır: "Bunu bacaracağıma əminəm, çünki gücümə inanıram, hazırlığıma güvənirəm! İlk addımlarımı atdığım idman yarışlarında qazandığım uğurlara görə məşqçilərim Elnur Əhmədova və Xalıqverdi Gülüşova sonsuz təşəkkürümü bildirirəm".

İnanırıq ki, idmanda ilk addımlarını atan Emil Səfərov gələcək yarışlarda daha da ürəkaçan uğurlar qazanacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

"BAKI DƏMİR-BETON8" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)*

*31 Dekabr 2023-cü il tarixinə*

(Azərbaycan manatı ilə)

| Bölümün / maddənin №-si | | Qeydlərə istinad | 2023 |
|---|---|---|---|
| | Malların təqdim edilməsindən (İşlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlir | | 364 857.87 |
| | İcarədən gəlir | | 30 000.00 |
| | **Ümumi gəlir** | | **394 857.87** |
| | **Ümumi xərclər** | | **555 744.34** |
| | Əmək haqqı və ona bərabər tutulan ödəmələr | | 230 644.00 |
| | Sosial sığorta haqları | | 43 389.87 |
| | Xammal və materiallar | | 106 026.18 |
| | Elektrik enerjisi | | 117 700.57 |
| | Qaz xərci | | 5 545.16 |
| | Yanacaq xərcləri | | 2 602.31 |
| | Su və kanalizasiya xərcləri | | 35 087.04 |
| | Rabitə xərcləri | | 2 093.21 |
| | Bank xidməti üzrə xərclər | | 3 022.00 |
| | Ödənilmiş sığorta haqları | | 760.00 |
| | Digər xərclər | | 8 874.00 |

| | HESABAT DÖVRÜ ÜÇÜN VERGİNİN HESABLANMASI MƏNFƏƏT VƏ ZƏRƏR | | 2023 |
|---|---|---|---|
| | Vergiyə cəlb olunan mənfəət | | -160 886.47 |
| | Mənfəət üzrə azadolnalar və güzəştlər | | |
| | ZƏRƏR | | |
| | Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| | Mənfəət vergisinin dərəcəsi | | 20% |
| | **MƏNFƏƏT VERGİSİ** | | **0.00** |
| | Mənfəət vergisi hesablanan zaman tanınmamış gəlirlər və xərclər | | |
| | **XALİS MƏNFƏƏT VƏ YA CARİ İLİN ZƏRƏRİ** | | **-160 886.47** |

RƏHBƏR

BAŞ MUHASİB

Azərbaycan Respublikası «BAKI DƏMİR BETON-8» Açıq Səhmdar Cəmiyyəti

# Etirazçılar Paşinyana vaxt verdilər

## Keçmiş hərbi xunta ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır

**Hayastanda ictimai-siyasi vəziyyətin daha böyük sürətlə gərginləşməsi müşahidə olunur. Son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda sosial narazılıqlardan istifadə edən keçmiş hərbi xuntanın yenidən revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir. Belə ki, Sarkisyan-Koçaryan tandemi ölkədəki xaosu dərinləşdirməyə cəhd göstərir.**



Kütləvi həbslərə baxmayaraq, aksiyalar fonunda ölkədəki vəziyyət getdikcə daha da dramatikləşir. Hayastanın Azərbaycanla sərhəddə yerləşən Tavuş vilayətinin Kirants kəndində keçirilən etiraz aksiyalarına müqaviləli hərbi qulluqçular da qatılmışdılar. Sonradan hərbi polis onların hər birinin nəzarətə götürülməsi barədə məlumat yaydı. Yerli media isə iddia edir ki, həmin etirazçı hərbçilər zorakılığa məruz qalıblar.

"Hraparak" nəşri yazıb ki, Nikol Paşinyanın toyunda xaç atası olan Tavuş vilayətinin rəisi Hayk Qalumyan dövlətlərarası yolu bağlayan Günən (Kirants) sakinlərini və onlara dəstək verməyə gedən müxtəlif din xadimlərini dağıtmağa çalışır. Qeyd edilib ki, sözügedən xadimlər on gündən artıqdır küçədə gecələyirlər, Günəndə demarkasiya və delimitasiya işlərinin aparılmasına imkan vermirlər. "Kənddən bizə bildiriblər ki, ötən gün Günəndən olan bir qrup şəxs yolda qurulmuş çadırı sökmək üçün etirazçıları fikrindən daşındırmağa çalışıb və mübarizənin artıq nəticə vermədiyini əsaslandıraraq hamısını evə göndərməyə cəhd edib. Arqument kimi deyiblər ki, ara yollar açıqdırsa, o zaman mütəxəssislər təhvil verilən ərazilərə qalxa və dirəklərin quraşdırılması işlərini apara bilərlər. Lakin etirazçılar təxribatlara boyun əyməyib və ötən gün dövlətlərarası yolların bağlanması məsələsini də müzakirə ediblər", - deyə nəşr bildirib.

Bu arada ötən il Hayastanın Azat kəndində baş vermiş yanğın nəticəsində həlak olan hərbçilərin valideynləri etiraz aksiyası keçiriblər. İrəvanda Respublika meydanına toplaşan etirazçılar adları açıqlanmayan müəyyən şəxslərin saxlanılması üçün hakimiyyətə və hüquq-mühafizə sisteminə mayın 10-dək vaxt veriblər. Ölən əsgərlərdən birinin atası Hayk Kirakosyan konkret adlar çəkə biləcəyini, lakin hələlik bundan çəkindiyini deyib: "Əgər mayın 10-da keçirilən məhkəmə prosesində həmin şəxslərə qarşı cinayət işi başlanmadığını öyrənsək və onların həbsi məsələsinin həll olunmadığını görsək, o zaman bütün valideynlər, dostlarımızla birlikdə hökumət binasına axın edəcəyik. Yumşaq desək, bu hökumət üçün problemlər yaradacayıq".

Xatırladaq ki, ötən il yanvarın 19-da Basarkeçər rayonunun Azat kəndində yerləşən N saylı hərbi hissədə yanğın baş verib. Nəticədə 20-yə yaxın erməni hərbçisi həlak olub, üç əsgər isə ölümcül xəsarətlər alıb. Hadisəyə görə korpus komandiri vəzifədən qovulub. Bundan əlavə, daha 10 zabit vəzifədən uzaqlaşdırılıb. Həmçinin sözügedən hərbi hissənin arxa bölməsinin rəisi, briqada komandirinin kommunal xidmət üzrə müavini, polkovnik-leytenant Qor Agekyan saxlanılıb. Ölən əsgərlərin yaxınları hökumətin səsləndirdiyi təsadüfi yanğın versiyasına inanmırlar.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xunta və ona bənzər digər ara qızışdıranlar erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətə salıb. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşür ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Tank bölmələri ilə intensiv döyüş hazırlığı məşğələləri keçirilir

Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun tank bölmələri ilə intensiv döyüş hazırlığı üzrə məşğələlər keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ümumqoşun təlim poliqonunda keçirilən məşğələlər zamanı ərazidə təbii və süni maneələrin dəf edilməsi, döyüş maşınlarının idarə olunması, şərti düşmən üzərinə dərinlikdən irəliləməklə hücum üzrə çalışmalar yerinə yetirilib.

Həmçinin zirehli texnikanın üzərinə quraşdırılmış silahdan aşkar olunan hədəflərin yerində və hərəkətdə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar da icra olunub.

Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərdə tankçılarımız yüksək peşəkarlıq nümayiş etdirirlər.


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**

**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**

**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Ölkənin ikinci böyük elektrik stansiyası təmir edilir







**Enerji effektivliyinin artırılması, atmosferə atılan karbon emisiyasının azaldılması, yeni yaradılan bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının balanslaşdırılması, ölkə enerjisisteminin etibarlılığının və dayanıqlılığının qorunaraq möhkəmləndirilməsi üçün ölkənin ikinci böyük elektrik stansiyası olan, Şüvəlan qəsəbəsində yerləşən 800 meqavatlıq "Şimal" Elektrik Stansiyasında reqlament üzrə təmir-təftiş işləri aparılır.**

Qeyd edək ki, texniki-iqtisadi göstəricilərin yaxşılaşdırılması və istismar səviyyəsinin yüksəldilməsi üçün analoji proses 2021-ci ildə 400 meqavatlıq "Şimal-1" Elektrik Stansiyasında da həyata keçirilmişdi və hazırda 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasında kompleks təmir işləri görülür. Qaz turbinində, generatorda, transformatorlarda, ötürmə xətlərində, idarəetmə və təsirlənmə sistemlərində aparılan təmir-təftiş işlərini "Azərenerji"nin "Şimal" Elektrik Staniyasının və "Enerjiservis" MMC-nin mütəxəssisləri ilə yanaşı, istehsalçı "Mitsubishi Power Europe, Ltd." şirkətinin mütəxəssisləri həyata keçirir. Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, yeni texnologiyaların və əlavə rəqəmsal avadanlıqların tətbiqi nəticəsində stansiyanın səmərəliliyi daha da yüksələcək. Bununla da əvvəllər hər kilovat-saata görə təqribən 220-222 qram şərti yanacaq sərf edilirdisə, indi bu rəqəm hər kilovat-saata görə 215-216 qrama qədər düşəcək, üstəlik təbii qaza qənaət edilməklə yanaşı, karbon emisiyasının azalmasına səbəb olacaq.

Paralel olaraq, "Şimal-2" Elektrik Stansiyasının dənizə geri buraxılan soyutma suyunun üzərində yaradılan kiçik su-elektrik stansiyasında da "Azərenerji" tərəfindən qrafikə uyğun təmir işləri aparılır. Sonda onu da qeyd edək ki, ümumilikdə "Şimal" Elektrik Stansiyası ölkədəki istilik elektrik stansiyaları arasında ən yüksək faydalı iş əmsalına malik olan stansiyadır və bu stansiya 57% faydalı iş əmsalına görə Cənubi Qafqaz regionunda ilk yerdə qərarlaşıb.

# *Sky News:* "Britaniyanın raket hücumundan müdafiə imkanları yetərli deyil"

Böyük Britaniya onilliklər ərzində müdafiədə xərclərə qənaət edərək özünün qlobal hava hücumundan müdafiə sistemini zəiflədib.

AZƏRTAC xəbər verir ki, bunu Britaniyanın "Sky News" kanalına Britaniyanın hərbi mənbələri və soyuq müharibə dövrünün veteranları deyib. Onlar bildirib ki, bu səbəbdən Birləşmiş Krallıq raket və dron hücumu təhlükəsinə qarşı artıq daha həssasdır.

"Böyük Britaniyanın yüksək qabiliyyətli hava hücumundan müdafiə avadanlığı var - lakin artıq bu, ölkə daxilində kritik infrastrukturun geniş spektrini qorumaq və həmçinin xaricdə yerləşdirilən qoşunları müdafiə etmək üçün kifayət deyil", - deyə telekanal hərbi mənbələrə istinadla qeyd edib.

Bildirilib ki, müdafiə sahəsinin rəsmiləri Britaniyanın elektrik stansiyaları, hərbi bazalar və hökumət binaları kimi kritik milli infrastrukturu qanadlı və ballistik raket zərbələrindən qorumaq qabiliyyətini bərpa etmək variantlarını araşdırırlar.

Lakin mənbələr onu da vurğulayıblar ki, hava hücumundan, yaxud raketdən hər hansı etibarlı müdafiə planı milyardlarla funt-sterlinqə başa gələcək.

*"Azərbaycan" qəzetinin 2 may 2024-cü il tarixli sayında ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyinin dərc olunmuş müsabiqə elanı aşağıdakı kimi oxunmalıdır:*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması", "Əlilliyi olan şəxslər arasında idman tədbirlərinin keçirilməsi və onların yarışlarda (beynəlxalq və ya ölkədaxili) iştirakına şərait yaradılması" adlı *müsabiqələr keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 16 may 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 17 may 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5039)**

***Müsabiqə komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədova atası

**VASİF SƏMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədova atası

**VASİF SƏMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əliyev, Lazım və Rafiq Hüseynovlar, Fuad Bəşirov, Məcid Miriyev və İlham Həsənov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdir müavini-sektor müdiri Bahəddin İsayevə atası

**HƏSƏN HÜMBƏT OĞLU İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4266
Sifariş 954

Qiyməti 60 qəpik